Xalqın qəzeti!

Xalq qəzeti

№ 55 (30459) 12 mart 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

İran səmasında turbulentlik, yoxsa avantürizm üçün aydın səma?

Səhifə ⇨ 7

Azərbaycan–Qazaxıstan: dostluq və qardaşlığımız yeni məzmunla zənginləşir!

Ölkəmizə dövlət səfərinə gəlmiş Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin rəsmi qarşılanma mərasimi

Azərbaycan Respublikasına dövlət səfərinə gələn Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin martın 11-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Qazaxıstan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Qazaxıstan Prezidentinə raport verdi.

Prezident Kasım-Jomart Tokayev Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Qazaxıstan Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Qazaxıstan Prezidentinə, Qazaxıstan nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

Azərbaycanın islamofobiya ilə mübarizəsi: mənəvi haqq və bəşəri sülhə töhfə

Ötən həftə paytaxtımızda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin, G20 Dinlərarası Dialoq Forumunun və Bakı Təşəbbüs Qrupunun birgə təşkilatçılığı ilə keçirilmiş "Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə" mövzusundakı konfransın dünya miqyaslı hadisəyə çevrildiyini deyə bilərik. Onu da qeyd etmək mümkündür ki, bu tədbir özlüyündə bir hərəkatdır. Dünyadakı, xüsusən də Avropadakı islamofobiyaya qarşı müstəsna əhəmiyyət daşıyan hərəkatın mərkəzində məhz ölkəmizin dayanması isə ayrıca vurğulanmalıdır.

Azərbaycan belə bir mötəbər konfransa evsahibliyini gerçəkləşdirməklə, İslam dinini, müsəlman dünyasını gözdən salmağa çalışan, ümumən din amilindən imperialist maraqlar naminə yararlanan qüvvələrə qarşı barışmazlıq kursunu daha geniş əhatə dairəsində ortaya qoydu. Mövqeyini özünün sistemli multikultural yanaşması, fundamental baxış bucağı ilə təsdiqlədi. Bir daha sübut olundu ki, Azərbaycanın təlqin etdiyi tolerantlıq modeli beynəlxalq aləm üçün ardıcıllığa söykənmiş nümunədir. Bunu konfransda müzakirəyə çıxarılmış mövzuların əhatə dairəsi də sübuta yetirdi, tədbirlə bağlı dünyanın 30 ölkəsindən paytaxtımıza təşrif buyurmuş alimlər, beynəlxalq təşkilatların ekspertləri, din xadimləri və qeyri-hökumət təşkilatlarının nümayəndələri olan qonaqların səsləndirdikləri fikirlər də. Nəzərə alaq ki, onların düşüncələri bir-birindən rəngarəng idi.

"Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusundakı beynəlxalq konfrans bütün xüsusiyyətləri ilə tarixdir. Prezident İlham Əliyevin toplantı iştirakçılarına məktubunda diqqətə çatdırdığı cəhətlər isə həm yazılmaqda olan tarixin önəminin vurğulanmasıdır, həm də həmin tarixin tam şəkildə ərsəyə gəlməsi üçün prinsipiallıq və iradə nümayişi, əminlik yaradan faktordur. Məktubda ilk olaraq vurğulanır ki, XXI əsrdə islamofobiya, ksenofobiya və irqçiliyə yer olmamalıdır. Terrorizm və ekstremizmi hər hansı bir din, millət, sivilizasiya və ya etnik qrupla əlaqələndirmək yanlış yanaşmadır.

(ardı 7-ci səhifədə)

Separatçıların çarəsiz çapalamaları

Səhifə ⇨ 11

Müxalifət Makronun ağlına şübhə edir

Fransa prezidenti Emmanuel Makronun fevralın 26-da Avropa İttifaqı ölkələrinin Ukraynaya qoşun göndərmək təklifi ilə çıxış etməsindən iki həftədən çox vaxt keçməsinə baxmayaraq, Beşinci respublikada hələ də ölkə başçısının fikirləri kəskin qınaq mövzusu olaraq qalmaqdadır.

"Junge Welt" yazır ki, Emmanuel Makronun "qanadlı sözləri" üçün ağlabatan izahat tapmaq çox çətindir. Bəlkə də belə izah, sadəcə mövcud deyil. Son bir misal: bir həftə əvvəl Fransa prezidenti Ukraynaya fransız əsgərlərini göndərmək istədiyini demədi, lakin o, "belə bir ehtimalı istisna da etmirdi".

(ardı 15-ci səhifədə)

Bakı Limanı – Xəzərin dünyaya ən böyük qapısı

Səhifə ⇨ 9

Bu gün Yel çərşənbəsidir!

Səhifə ⇨ 16

"Keçirəm yenə də Muğan çölündən"

Səhifə ⇨ 14

Məhdud tərkibdə görüş

Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə məhdud tərkibdə görüşü olub.

Prezidentlər Çindən Bakıya Abşeron stansiyasına konteyner qatarının gəlişini onlayn izləyiblər

Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini videobağlantı ilə izləyiblər.

Tədbirin aparıcısı dedi:

- Möhtərəm Kasım-Jomart Kemeleviç.

Möhtərəm İlham Heydər oğlu.

Bu gün Sian şəhərinin Qazaxıstan-Çin terminalından birinci konteyner qatarını qarşılayırıq. Qatar Bakı şəhərinədək məsafəni on bir günə qət edib. Diqqət yetirməyinizi xahiş edirəm.

Sonra qatarın gəlməsinə dair videokadrlar nümayiş etdirildi.

Qeyd edək ki, konteyner qatarının Çinin Sian şəhərində istismara verilmiş Qazaxıstana məxsus Nəqliyyat-Logistika Mərkəzi tərəfindən yola salınması Orta Dəhlizin bütün iştirakçıları üçün böyük əhəmiyyət kəsb edir. Altmış bir konteynerdən ibarət qatar uzunluğu 7 min kilometr olan marşrutu (Siandakı Qazaxıstan terminalı - Aktau-Abşeron stansiyası) 11 günə qət edib. Multimodal daşıma zamanı konteynerlər Qazaxıstan limanında yenidən yüklənərək Xəzər dənizi ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, oradan isə Abşeron stansiyasına çatdırılıb.

Orta Dəhlizin inkişaf etdirilməsi və yeni yüklərin cəlb edilməsi baxımından bu günlərdə Çində fəaliyyətə başlamış Qazaxıstanın Nəqliyyat-Logistika Mərkəzi marşrut üzrə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artırılmasına hədəflənib. İlkin razılaşmaya əsasən, bu Mərkəz vasitəsilə Azərbaycana ayda 10 konteyner qatarının yola salınması planlaşdırılır.

Bununla yanaşı, Orta Dəhlizin inkişafı üçün birbaşa istehlakçılara yönəlmiş rəqəmsal DTC platforması yaradılıb, Azərbaycan və Qazaxıstan dəmir yolları "Track and Trace" ("Təqib və İzləmə") funksiyası vasitəsilə real vaxt rejimində marşrut boyunca yüklərin izlənməsi sisteminə inteqrasiya olunub. Vahid rəqəmsal ekosistemin yaradılması və inkişaf etdirilməsi Orta Dəhlizin şəffaflığını, cəlbediciliyini getdikcə artırır.

Azərbaycan və Qazaxıstan dəmir yolları idarələrinin birgə səyləri sayəsində 2024-cü ildə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artırılması planlaşdırılır. Cari ilin yanvar-fevral aylarında "Qazaxıstan Dəmir Yolları" Səhmdar Cəmiyyəti ilə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti arasında yükdaşımaların həcmi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 25 faiz artaraq 539,5 min ton təşkil edib.

Xatırladaq ki, əvvəllər Çindən Orta Dəhliz vasitəsilə yüklərin Qara dəniz limanlarına çatdırılması təxminən 53 gün çəkirdisə, hazırda bu müddət 18 gün təşkil edir.

Aparıcı: Qatar gəldi. İcazə verin, mərasimə başlayaq.

Prezident İlham Əliyev dedi:

– Bu əlamətdar hadisə münasibətilə nəqliyyatçıları təbrik etmək istəyirəm. Bu gün Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri çərçivəsində nəqliyyat-logistika sektoruna aid məsələlər ətraflı müzakirə olundu. Qəbul etdiyimiz qərarlar mahiyyətcə bu gözəl mərasimin keçirilməsinə kömək edir. Bu gün Qazaxıstan və Azərbaycan bütün istiqamətlər, o cümlədən tranzit nəqliyyat sahəsində - konnektivliklə bağlı sahədə qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi istiqamətində aktiv fəaliyyət göstərirlər. Bizim ikitərəfli əməkdaşlığımız həm TransXəzər nəqliyyat marşrutu, həm də Orta Dəhliz layihələrinin həyata keçirilməsi çərçivəsində çoxtərəfli əməkdaşlığımızın bir hissəsidir. Bu gün müzakirə edilən planlar ölkələrimizin dəmir yollarının boş qalmaması, belə konteyner qatarlarının isə gündəlik həyatımızın bir parçası olmasına imkan verir.

Ölkələrimiz arasında müxtəlif istiqamətlərdə nə qədər çox yük daşınarsa, əməkdaşlığımız o qədər inkişaf edəcək, Qazaxıstanla Azərbaycan beynəlxalq nəqliyyat daşımalarında daha böyük rol oynayacaqlar.

Bir daha Qazaxıstan və Azərbaycanı, həmçinin Çindəki tərəfdaşlarımızı bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Qatarın yolu açıq olsun.

Prezident Kasım-Jomart Tokayev dedi:

– Hörmətli həmkarlar, sizin hamınızı böyük əhəmiyyətə malik olan bu əlamətdar hadisə münasibətilə ürəkdən təbrik etmək istərdim. Əslində, Avrasiya kontinenti nəqliyyat-logistika karkası formalaşıb. Hesab edirəm ki, bugünkü tədbir Qazaxıstan ilə Azərbaycan arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq tarixinə qızıl hərflərlə yazılacaq. Qazaxıstan və Azərbaycan təbii strateji müttəfiq və əməkdaşlığın bütün sahələrində, əlbəttə ki, nəqliyyat-logistika üzrə tərəfdaşdırlar. Bu gün danışıqlar əsnasında məhz təkcə bizim ölkələri deyil, həm də yaxınlıqdakı bir çox dövlətləri birləşdirən bu sahədən çox bəhs etdik.

Fürsətdən istifadə edərək, xoş niyyətə və əməkdaşlığa görə Çin Xalq Respublikasının hökumətinə minnətdarlığımı ifadə etmək istərdim. Azərbaycanın hörmətli Prezidenti İlham Heydər oğlu Əliyevin sözlərinə qoşuluram.

Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın I iclası

Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın I iclası keçirilib.

İclasda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev dedi:

– Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli qonaqlar.

Əziz dostlar.

Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. Biz indi çox maraqlı söhbət etdik, gündəliyin ikitərəfli və regional problematikası üzrə bir çox məsələləri müzakirə etdik. İndi Dövlətlərarası Şuranın birinci iclasına başlayırıq. Şuranın yaradılması qərarı özlüyündə tarixidir. Bu, münasibətlərimizin yüksək səviyyəsini və hər iki tərəfin qarşılıqlı əməkdaşlıq potensialının möhkəmləndirilməsi istəyini bir daha sübut edir. Hesab edirik ki, səfərin nəticələri və Dövlətlərarası Şuranın iclası bir çox hallarda münasibətlərimizin gələcək gündəliyini müəyyən edəcək.

Qazaxıstan və Azərbaycan iki qardaş dövlətdir. Xalqlarımız ictimai-siyasi formasiyadan asılı olmayaraq, uzun əsrlər boyu sülh, qardaşlıq, əməkdaşlıq şəraitində yaşayır. İki müstəqil dövlət olaraq isə artıq 30 ildən çoxdur ki, həm beynəlxalq strukturlarda, həm də ikitərəfli formatda fəal qarşılıqlı fəaliyyət göstərir. Son vaxtlar qarşılıqlı səfərlərimizin dinamikası çox illüstrativdir və bu, münasibətlərə yeni dinamizm verildiyini göstərir.

Qazaxıstanın uğurları bizi sevindirir. Sizi və bütün qardaş Qazaxıstan xalqını sosial-iqtisadi inkişafda, innovativ tərəqqidə çox böyük nailiyyətlər münasibətilə təbrik etmək istərdim. Qazaxıstanın iqtisadi inkişafı və ümumi daxili məhsulun artması düzgün və düşünülmüş iqtisadi siyasətdən xəbər verir. Həmçinin Sizin ölkənin modernləşdirilməsinə, iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş və artıq bir çox nailiyyətlərin əldə edildiyi islahatlarınızı tam dəstəkləyirik.

Bu gün regional problematika məsələlərini ətraflı müzakirə etdik. Mən Kasım-Jomart Kemeleviçə Azərbaycan ilə Ermənistan arasında sülh danışıqları prosesi haqqında məlumat verdim və ümidvar olduğumu bildirdim ki, bu proses sülh sazişinin imzalanması, tariximizin bu ağır və qara səhifəsinin çevrilməsi ilə başa çatacaq.

Həmçinin bizi birləşdirən layihələrdən də ətraflı danışdıq. Mən Qazaxıstan Prezidentinə Qarabağın bərpasında göstərilən qardaş köməyinə, məhz qazax xalqının Azərbaycan xalqına hədiyyəsi və Prezident Tokayevin təşəbbüsü olan Füzuli şəhərindəki Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinə görə təşəkkürümü bildirdim. Sabah biz dostluğumuzun da mərkəzi olacaq bu Mərkəzin açılışını edəcəyik.

Azərbaycanın suverenliyinin bərpası məsələsində həmrəylik sözlərinə görə minnətdarıq. Əlbəttə, zənnimcə, Azərbaycanda hamı bilir ki, Qazaxıstan bizim etibarlı dostumuz və müttəfiqimizdir.

Bugünkü gündəliyimizdə çoxlu mövzular var. Nəqliyyat-logistika, energetika, rəqəmsallaşma, humanitar əməkdaşlıq sahələrində məsələləri aydınlaşdırmaq üçün nümayəndə heyətinin üzvlərinə söz verəcəyik. Bütün istiqamətlər üzrə işlər uğurla aparılır. Bu yaxınlarda Astanada keçirilmiş Hökumətlərarası Komissiyanın iclası Sizin dövlət səfərinizə hazırlıq xarakteri daşıyırdı. Bu səfəri məzmunca zənginləşdirmək və sonradan onların reallaşdırılmasına nəzarəti asanlaşdırmaq üçün ona çox ciddi hazırlaşırdıq. Zənnimcə, biz müvafiq tapşırıqlar verəcəyik və razılaşmalarımızın necə həyata keçirilməsi haqqında müntəzəm məlumat alacağıq.

Hörmətli Kasım-Jomart Kemeleviç, bir daha xoş gəlmisiniz. Sizi Azərbaycanda görməyimə çox şadam.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev dedi:

- İlham Heydər oğlu, Qazaxıstanın ünvanına xoş sözlər söylədiyinizə görə Sizə təşəkkür edirəm. Əvvəlcə, istərdim ki, bizə göstərilən qonaqpərvərliyə görə səmimi minnətdarlığımı bildirim və fürsətdən istifadə edərək, Sizi prezident seçkilərində çox böyük inamlı qələbə münasibətilə bir daha təbrik edim. Bu qələbə yüksək etimadın, Sizin strateji kursunuza ümumxalq dəstəyinin göstəricisidir. Siz Azərbaycan xalqının hər kəs tərəfindən qəbul olunan liderisiniz və Sizi beynəlxalq arenada məhz bu cür qəbul edirlər.

Eyni zamanda, Sizin də doğru qeyd etdiyiniz kimi, Azərbaycanın tarixi Qələbəsinə, öz ərazilər ilə bağlı suverenliyinin bərpa olunmasına səmimi-qəlbdən sevinirik. Bu Qələbə mahiyyət etibarilə tarixidir və şübhəsiz ki, həm Azərbaycanın, həm də ümumdünya tarixinin salnaməsinin səhifələrinə daxil olacaq.

Qazaxıstan-Azərbaycan münasibətlərinə gəldikdə, biz ilk dəfədir ki, Ali Dövlətlərarası Şuranın iclasını keçiririk. Ümumilikdə, bu da tarixi hadisədir. Elə indicə biz iqtisadi-ticari və investisiya əməkdaşlığımızla, beynəlxalq arenada qarşılıqlı fəaliyyətimizlə bağlı demək olar ki, bütün məsələlərin müfəssəl müzakirəsini apardıq və ümumi nəticələrə gəldik. Bu, onu göstərir ki, Qazaxıstan və Azərbaycan həqiqətən strateji tərəfdaşlardır, müttəfiq dövlətlərdir. Əməkdaşlığımızda baş verənlərin mühüm sirri də məhz buradadır. Perspektivlər çox yaxşıdır və təbii ki, hökumətlər bu gün imzalanmış sənədlər, sazişlər formasında əldə olunan razılaşmaların həyata keçirilməsi ilə məşğul olacaqlar.

Əməkdaşlığın və qarşılıqlı fəaliyyətin, təmasların səviyyəsi kifayət qədər yüksəkdir. Bu gün Sizin Şanxay Əməkdaşlıq Təşkilatının sammitində, Mərkəzi Asiya Dövlətləri liderlərinin Məşvərət görüşündə iştirakınızın nəzərdə tutulduğu və ya planlaşdırıldığı barədə danışdıq.

Türk Dövlətləri Təşkilatı liderlərinin qeyri-rəsmi sammitində iştirak etməyimlə bağlı dəvəti böyük ümidlə və minnətdarlıqla qəbul edirəm. Əlbəttə, COP29 sammiti – bu da ümumilikdə Azərbaycan dövlətinin və onun diplomatiyasının tarixi nailiyyətidir. Sammit mövcud iqlim problemlərinin nizamlanması nöqteyi-nəzərindən, həm də məhz bu sahədə qlobal əməkdaşlıq baxımından birinci dərəcəli əhəmiyyətə malikdir. Şübhəsiz ki, Bakı bu vəzifənin öhdəsindən gələcəkdir. Biz Dubayda keçirilən COP28 sammitində iştirak etdik və gördük ki, bu, həqiqətən çox mühüm forumdur. Sevinirik ki, belə mühüm qlobal forumun keçirilməsi məkanı qismində məhz Bakı seçilib.

Biz Qazaxıstanın və Azərbaycanın Xəzər dənizi üzrə qonşu dövlətlər olması və bunun, təbii ki, qarşılıqlı münasibətlərimizə xüsusi xarakter verməsi barədə danışdıq. 2020-ci ildən Qazaxıstan və Azərbaycan arasında əmtəə dövriyyəsi beş dəfə artıb. Əlbəttə, mütləq rəqəmlər o qədər də böyük təəssürat yaratmaya bilər. Bu sahədə işlər davam etdirilməlidir. Ölkələrimiz böyük iqtisadi potensiala malikdir və düşünürəm ki, növbəti uğurlar çox da uzaqda deyil. Biz bu gün nəqliyyat və logistikadan tutmuş rəqəmsallaşma məsələlərinə qədər, hələ neft və qaz və digərlərini demirəm, müxtəlif məsələlərdən danışdıq.

Məmnunam ki, biz beynəlxalq arenada da uğurla əməkdaşlıq edirik. İstər Birləşmiş Millətlər Təşkilatında, yaxud başqa beynəlxalq təşkilatlarda nümayəndə heyətlərimiz uğurlu qarşılıqlı fəaliyyət göstərirlər. Zənnimcə, bu xətt davam edəcəkdir.

Müqəddəs şəhərlər olan Türküstan və Şuşa, həmçinin Uralsk və Mingəçevir, Şımkent və Gəncə arasında qardaşlıq münasibətlərini müsbət nöqteyi-nəzərdən qeyd etmək istəyirəm.

Ümumilikdə, mən ölkələrimiz arasında mədəni əlaqələrə də böyük diqqət yetirirəm. Bu, xalqlarımızın yaxınlaşması nöqteyi-nəzərindən olduqca vacibdir. Sumqayıt şəhərində Axmet Baytursınovun xatirəsinin əbədiləşdirilməsi və onun adına küçənin açılışı, Astanada Heydər Əliyevin adının əbədiləşdirilməsi də ölkələrimiz üçün əlamətdar oldu, təşəkkür edirik.

Ötən il Azərbaycanda Mədəniyyət Günləri böyük uğurla keçirildi və Sizin də dediyiniz kimi sabah Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışını edəcəyik. Bu da qarşılıqlı fəaliyyətimizin və əməkdaşlığımızın rəmzi olacaq.

Daha, necə deyərlər, əlavə ediləcək heç nə yoxdur, çünki artıq həqiqətən də əməkdaşlığımızın gündəliyində mövcud olan bütün məsələlərdən danışdıq. Təklif edirəm ki, Şuranın iclasına başlayaq.

Prezident İlham Əliyev:

- Kasım-Jomart Kemeleviç, çox sağ olun. Gündəlikdə artıq bir neçə məsələmiz var. İqtisadi-ticari və investisiya əməkdaşlığının inkişafı, neft-qaz sahəsində əməkdaşlıq, bərpaolunan enerji mənbələri, nəqliyyat-logistika sahələrində, rəqəmsal kommunikasiyalar üzrə əməkdaşlıq, həmçinin mədəni-humanitar sahələrdə.

Sənədlərin imzalanması mərasimi

Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının 1-ci iclasının Qərarı"nı imzaladılar.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və Qazaxıstan Respublikasının "Damu" Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin sədri Qauxar Buribayeva "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə "Damu" Sahibkarlığın İnkişafı Fondu" Səhmdar Cəmiyyəti arasında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov və Qazaxıstan Respublikasının Prezidenti yanında "Mərkəzi Kommunikasiyalar Xidməti"nin direktoru Askar Umarov "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Qazaxıstan Respublikasının Prezidenti yanında "Mərkəzi Kommunikasiyalar Xidməti" Respublika Dövlət Müəssisəsi arasında Əməkdaşlığa dair Memorandum"u imzaladılar.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və Qazaxıstan Respublikasının "KazMunayQaz" Milli Şirkəti"nin İdarə Heyətinin sədri Maqzum Mirzaqaliyev "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyəti arasında Qazaxıstan neftinin alqı-satqısı sahəsində strateji əməkdaşlıq haqqında Memorandum"u və "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyəti arasında Qazaxıstan neftinin Azərbaycan Respublikası ərazisindən tranzit edilən həcmlərinin mərhələli artırılması haqqında Saziş"i imzaladılar.

Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov və "Samruk Kazyna" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Nurlan Jakupov "Azərbaycan İnvestisiya Holdinqi və "Samruk Kazyna" Səhmdar Cəmiyyəti arasında strateji tərəfdaşlıq Sazişi"ni imzaladılar.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli və Qazaxıstan Respublikasının mədəniyyət və informasiya naziri Aida Balayeva "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Qazaxıstan Respublikasının Mədəniyyət və İnformasiya Nazirliyi arasında 2024-2025-ci illər üçün Tədbirlər Planı"nı imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qazaxıstan Respublikasının rəqəmsal inkişaf, innovasiya və aerokosmik sənaye naziri Baqdat Musin "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Qazaxıstan Respublikasının Rəqəmsal İnkişaf, İnnovasiyalar və Aerokosmik Sənaye Nazirliyi arasında kosmosun dinc məqsədlərlə tədqiq edilməsi və istifadəsi sahəsində Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev və Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek "3 aprel 2017-ci il tarixli Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Sazişə dəyişikliklər edilməsi haqqında Protokol"u imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qazaxıstan Respublikasının nəqliyyat naziri Marat Karabayev "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Nəqliyyat Nazirliyi arasında dəniz gəmilərinin heyətinin ixtisas diplomlarının qarşılıqlı tanınması haqqında Saziş"i imzaladılar.

Liderlər mətbuata bəyanatlarla çıxış ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə dövlətimizin başçısı mətbuata bəyanatla çıxış etdi.

Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Əziz qonağımız Qazaxıstan Prezidentini dövlət səfəri ilə qəbul etmək bizim üçün böyük şərəfdir. Kasım-Jomart Kemeleviç, xoş gəlmisiniz.

Bu gün qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi sahəsində artıq görülmüş işlərlə bağlı ətraflı diskussiyalar apardıq, həmçinin gələcək planlarımızı geniş müzakirə etdik. Bizim üçün qardaş ölkə, strateji tərəfdaş və müttəfiq olan Qazaxıstanın Prezidentinin dövlət səfərinə böyük əhəmiyyət veririk. Münasibətlərimizin dinamikası qarşılıqlı səfərlərimizin xronologiyasından aydın görünür. Son ilyarım ərzində mən Qazaxıstana dörd dəfə səfər etmişəm, həmçinin bu dövrdə Qazaxıstan Prezidenti üçüncü dəfədir ki, ölkəmizə gəlir. Bu gün, eyni zamanda, fikir mübadiləsi çərçivəsində cari ilin sonunadək qarşıdakı səfərlərlə bağlı razılıq əldə etdik. Yəni, belə dinamik qarşılıqlı fəaliyyət faktı özlüyündə mənzərəni aydın göstərir. Biz təkcə mühüm ikitərəfli qarşılıqlı fəaliyyət məsələlərini müzakirə etmirik, həmçinin regional problematika, regionumuzda təhlükəsizlik sistemi ilə bağlı olan məsələlərə də toxunuruq.

İlk növbədə, istərdim ki, işğaldan azad olunmuş Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin inşasına dair təşəbbüsünə görə Kasım-Jomart Kemeleviçə bir daha təşəkkürümü bildirim. Bu, Prezidentin şəxsi qərarıdır və bu qərardan həmin layihənin reallaşdırılmasına qədər çox az vaxt keçib. Sabah biz birlikdə bizim keçmiş məcburi köçkün uşaqların təhsil alacağı, həmçinin dostluğumuzun və qardaşlığımızın mərkəzi olacaq bu mərkəzi açacağıq. Bu, Qazaxıstanın Azərbaycana qardaş köməyidir, bu, Qazaxıstanın Azərbaycana hədiyyəsidir və azad edilmiş ərazilərin bərpasına dəstəyidir.

Həmçinin ərazi bütövlüyünü və suverenliyini bərpa etməkdə Azərbaycana göstərdiyi daimi dəstəyə görə Qazaxıstana minnətdarıq. Bu gün Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması məsələsini də ətraflı müzakirə etdik. Mən həmkarıma danışıqlar prosesinin hazırkı mərhələsi, sülh sazişinin imzalanması perspektivləri haqqında məlumat verdim. Azərbaycan bu məsələdə maraqlıdır və əslində, məhz Azərbaycan sülh sazişinə dair danışıqlar prosesinin əvvəlindən təşəbbüskar olub.

Bununla yanaşı, biz, həmçinin qarşılıqlı fəaliyyətin digər məsələlərini, o cümlədən beynəlxalq strukturlarda, ilk növbədə BMT və Türk Dövlətləri Təşkilatında birgə fəaliyyətimizi müzakirə etdik. Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyəti gələcəkdə də möhkəmləndirməyin zəruri olmasına dair vahid fikrə gəldik. Çünki bu təşkilat yaxın, dost, doğma ölkələri birləşdirir, həmçinin böyük potensiala, ən başlıcası inkişaf potensialına malikdir.

İkitərəfli gündəliyə gəldikdə, bu gün Ali Dövlətlərarası Şuranın birinci iclası çərçivəsində qarşılıqlı fəaliyyətimizin müxtəlif aspektləri ətraflı müzakirə olunub. Qarşılıqlı iqtisadi-ticari fəaliyyət sahəsi böyük inkişaf potensialına malikdir. Nəqliyyat-tranzit məsələsi geniş müzakirə olunub, biz Qazaxıstandan keçməklə Çin Xalq Respublikasından Azərbaycana qədər yol qət edən konteyner qatarının rəmzi qarşılanması mərasimində iştirak etmişik. Bu, TransXəzər nəqliyyat dəhlizinin artıq reallığa çevrilməsi, onun özlüyündə böyük dərəcədə regional əməkdaşlığın səviyyəsini müəyyən etməsinin rəmzlərindən biridir, çünki qonşularla yaxşı münasibət olmadan tranzit ölkə olmaq mümkün deyil. Belə olan halda həm Qazaxıstan, həm də Azərbaycan bu istiqamətdə regional əməkdaşlığa, qonşularla münasibətlərin möhkəmləndirilməsinə sadiqliyini nümayiş etdirir.

Kasım-Jomart Kemeleviçlə bu gün apardığımız fikir mübadiləsi də göstərdi ki, biz də qonşularıq. Bizi təkcə Xəzər dənizi ayırır. Amma bu gün o da əngəl deyil, əksinə, Xəzər təkcə ölkələrimiz arasında yox, həm də bir çox ölkələr arasında körpüdür, çünki TransXəzər nəqliyyat dəhlizi bu gün öz potensialını tam şəkildə açır. Hökumət üzvlərinin bir çox istiqamətlər üzrə geniş məruzələri dinlənildi.

Qarşılıqlı fəaliyyətimizin və birgə işimizin nəticələri, ən başlıcası, gələcək planlarımız həqiqətən də böyükdür.

Həmçinin neft-qaz sahəsində əməkdaşlıqla bağlı vəziyyət geniş təhlil edildi, yeni konkret layihələr müəyyənləşdirildi. Biz COP29 iqlim konfransına hazırlıq məsələlərini müzakirə etdik və qazaxıstanlı qardaşlarımıza bu çox mühüm beynəlxalq konfransa hazırlıq və onun keçirilməsi çərçivəsində əməkdaşlıq təklif etdik. Həmçinin humanitar əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu. Hər bir istiqamət geniş sahədir. Hökumət üzvlərinin məruzələrini dinləyəndə əyani şəkildə əmin olduq ki, artıq çoxlu iş görülüb, həm mədəniyyət günləri, həm müxtəlif tədbirlər, həm də xalqlarımızın görkəmli nümayəndələrinin xatirəsinin anılması, nəqliyyat, energetika əməkdaşlığı layihələrinin praktiki həlli, "yaşıl" enerji sahəsində əməkdaşlığın perspektivləri.

Biz paralel istiqamətlər üzrə irəliləyirik. Bu gün diskussiyalar çərçivəsində qeyd edildi ki, TransXəzər nəqliyyat marşrutunu meydana, deyərdim ki, dünya nəqliyyat-logistika spektrinə çıxaran indiki geosiyasi şərait möhkəm bazaya malikdir. Çünki həm Qazaxıstanda, həm də Azərbaycanda əvvəlki illərdə bu sahəyə böyük investisiyalar yatırılıb. Zəngin təbii ehtiyatlara malik olmağımıza baxmayaraq, biz nəqliyyat infrastrukturumuzun bu gün beynəlxalq standartlara tam uyğun gəlməsinə çalışdıq və buna nail olduq. Həm Qazaxıstanda, həm də Azərbaycanda dəmir yolları, aeroportlar, avtomobil yolları, dəniz limanları daxil olmaqla, irimiqyaslı nəqliyyat layihələri həyata keçirildi. Bu gün bunlara həmişəkindən daha çox ehtiyac var. Bu, bizi bir daha əmin edir ki, bütün işləri vaxtında görmək və yaxın perspektivdən bir az uzağa baxmaq lazımdır. Yalnız belə olan təqdirdə uğur qazanmaq mümkündür. Ona görə də əgər bu gün nəqliyyat infrastrukturuna investisiya qoymağa başlasaydıq, yəqin ki, indi həmin potensiala malik olmaq üçün onilliklər lazım gələrdi. İndi bu bünövrə üzərində biz nəqliyyat-tranzit imkanlarımızın, həm limanların, dəmir yollarının, həm də sinergiya yaradılmasının, vahid nəqliyyat kompleksinin qurulmasının genişləndirilməsini planlaşdırırıq. Bu kompleksdə rəqəmsallaşma ilə bağlı layihələr də dəstəklənəcək. Bu məsələlərdə biz paralel istiqamətlər üzrə hərəkət edirik. Həm Qazaxıstanda, həm də Azərbaycanda bu sahəyə çox böyük diqqət yetirilir.

Mən həmkarımı Qazaxıstanın sosial-iqtisadi inkişafda, iqtisadiyyatın davamlı artmasında, beynəlxalq məsələlərdə nüfuzunun daim yüksəlməsində əldə olunan nailiyyətlərə görə təbrik etdim. Bu, bizim üçün çox mühümdür, qardaş xalqla qürur duyuruq. Çünki bu gün Qazaxıstan beynəlxalq arenada müdrik siyasət, düzgün seçilmiş strategiya və dövlətin inkişafına yönəlmiş dəqiq, ölçülüb-biçilmiş addımlar, həmçinin beynəlxalq arenada qarşılıqlı fəaliyyət sayəsində çox böyük nüfuza malikdir. Biz buna ürəkdən sevinirik. Qazaxıstana hər səfərdə dəyişikliklərin şahidi olursan. Mən Kasım-Jomart Kemeleviçə dedim ki, müasir, gözəl meqapolis olan Astananın salınması dünya tarixində nadir nümunələrdən biridir. Mənim hər səfərimdə, - artıq dediyim kimi, son ilyarımda dörd dəfə orada olmuşam, - inkişafın şahidi oluram. Bütün bunlar Prezident Tokayevin öz xalqının, dövlətinin rifahı naminə və dostlarının sevincinə səbəb olan islahatlarını əks etdirir. Biz münasibətlərimizi daha böyük məzmunla zənginləşdirmək üçün səmimi səylər göstəririk. Dövlət səfəri münasibətlərin ən yüksək səviyyədə nümayişidir. Səfərə hazırlıq çərçivəsində onu ciddi məzmunla zənginləşdirməyə çalışırdıq.

Bu yaxınlarda Astanada hökumətlərarası komissiyanın iclası keçirildi, sənədlər hazırlandı, nümayəndə heyətlərinin iştirakı ilə ancaq sənədlərin bir hissəsi imzalandı, digərləri işgüzar qaydada imzalanır. Gündəlik həqiqətən də genişdir, ən başlıcası konkret nəticələrə istiqamətlənib.

Dəvətimi qəbul etdiyi və Azərbaycana gəldiyi üçün Qazaxıstan Prezidentinə bir daha təşəkkürümü bildirmək istəyirəm. Artıq dediyim kimi, bu dialoqu daim saxlamaq və qərara gəldiyimiz, imzaladıqlarımızı həyata keçirmək üçün komandaların bütün üzvlərinə daimi impuls vermək məqsədilə biz yaxın vaxtlarda yeni görüşlər keçirməyi razılaşdırdıq.

Bir daha xoş gəlmisiniz.

Sonra Qazaxıstan Prezidenti mətbuata bəyanatla çıxış etdi.

Prezident Kasım-Jomart Tokayevin bəyanatı

– Hörmətli İlham Heydər oğlu, göstərilən qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirirəm.

Müqəddəs Azərbaycan torpağında olduğumuz ilk dəqiqədən ev sahibinin səmimi münasibətini hiss etdik. Bu dövlət səfəri dövlətlərimiz arasında əməkdaşlığın inkişaf perspektivləri nöqteyi-nəzərindən çox mühümdür. Gördüyünüz kimi, məni çox böyük nümayəndə heyəti müşayiət edir. Bu, onu göstərir ki, biz belə mühüm tədbirin – qardaş Azərbaycana dövlət səfərinin bütün aspektlərinə geniş hazırlıq görmüşük.

Əvvəlcə, öz səfərimə qiymət vermək istərdim. Həqiqətən səfər tam uğurlu oldu. Bu gün müvafiq sənədlərin, sazişlərin imzalanmasında iştirak etdik. Amma ən başlıcası odur ki, razılaşdığımız kimi, hökumətlərin və digər müvafiq idarələrin səyləri yüksək səviyyədə görüşlər zamanı əldə olunmuş bütün razılaşmaların tam şəkildə reallaşmasına yönəldiləcək.

Fürsətdən istifadə edərək, - mən artıq bunu Ali Dövlətlərarası Şuranın birinci iclasında da söyləmişəm, - hörmətli İlham Heydər oğlu, Sizi bir daha prezident seçkilərində çox inamlı qələbə münasibətilə təbrik etmək istərdim. Bu, Azərbaycan xalqının Sizin strateji kursunuza tam dəstəyinin göstəricisidir. Heç şübhə etmirəm ki, belə mühüm ölkəyə bu prezidentlik fəaliyyətində də bütün sahələrdə - həm siyasətdə, həm də iqtisadiyyatda böyük uğurlar qazanılacaq.

Azərbaycan Sizin rəhbərliyinizlə böyük tarixi Qələbə əldə edib. Bu, dövlət suverenliyinin bərpa olunmasıdır. Qazaxıstan xalqı bununla bağlı böyük sevinc hissi keçirib. Biz bu mövzuda danışmışıq. Mən Sizə təbrik məktubu ünvanlamışam. Zənnimcə, bu, uzun illər ərzində Sizin dövlət suverenliyinin bərpasına yönəlmiş və son nəticədə tarixi həqiqətin bərpası ilə nəticələnən səylərinizin qanunauyğun yekunudur.

Daha bir uğuru – qlobal iqlim konfransının keçirilməsini qeyd etmək istərdim. Bu mühüm tədbirin məhz Bakıda keçirilməsi faktı bir çox məqamlardan xəbər verir. Hər şeydən əvvəl, Sizin ölkənizin sosial-iqtisadi inkişaf sahəsində, həmçinin beynəlxalq arenada nailiyyətlərinin qəbul edilməsi amilidir. Həqiqətən Azərbaycanın nüfuzu durmadan artır, bu, həm iqtisadiyyatda, həm də beynəlxalq siyasətdə baş verir. Əlbəttə, Qazaxıstan COP29-un müvafiq səviyyədə keçirilməsini dəstəkləyir və bu son məqsədə nail olmaq üçün lazımi səylər göstərəcəkdir. Hər halda mən Sizin dəvətinizlə həmin tədbirdə şəxsən iştirak etməyi planlaşdırıram.

Həqiqətən son vaxtlar yüksək səviyyədə təmaslar artıb və bu, çox müsbət məqamdır. Cari il də istisna olmayacaq. Biz yüksək səviyyəli beynəlxalq tədbirlərdə iştirak etmək üçün Sizi azı iki dəfə Qazaxıstanda gözləyirik. Mən özüm də Türk dövlətləri liderlərinin qeyri-rəsmi sammitində iştirak etmək üçün Azərbaycana yenidən səfər etməyi planlaşdırıram. Düşünürəm ki, bu təmaslar strateji tərəfdaşlığı və hətta Qazaxıstanla Azərbaycan arasında müttəfiqliyi möhkəmləndirmək üçün çox faydalıdır. Strateji tərəfdaşlıqdan danışdıqda, biz bunu sadəcə gözəl ifadə və ya diplomatik nəzakət kimi qəbul etmirik. Əslində, əməkdaşlığımızın mahiyyəti qarşılıqlı fəaliyyətimizin strateji xarakterini ehtiva edir.

Bu gün Ali Dövlətlərarası Şuranın birinci iclası əsnasında elə mühüm məsələlər müzakirə olundu ki, onların reallaşdırılması, nəzərdə tutulan planların yerinə yetirilməsi üzrə bu məsələlərin strateji istiqamətindən danışmaq həqiqətən yerinə düşür.

Nəqliyyat-logistika sahəsinə gəldikdə, bu gün qeyd etdik ki, hazırda dünyada məhz nəqliyyat-logistika imkanlarına çıxış uğrunda mübarizə kəskinləşir. Bu, strateji sahədir. Sevindirici haldır ki, həm Qazaxıstan, həm də Azərbaycan təbii tərəfdaşlar kimi bu sahədə sıx qarşılıqlı fəaliyyət göstərirlər. Sian limanından Qazaxıstan ərazisindən Azərbaycana dəmir yolu marşrutu üzrə bugünkü mərasim də çox mətləblərdən xəbər verir. Bu, həqiqətən çox mühüm tədbirdir və mənim dövlət səfərim zamanı keçirildi. Buna çox şadam.

Biz rəqəmsallaşma, süni intellektin yaradılması, Xəzərin dibi ilə optik-lif rabitə xəttinin qurulması sahələrində birgə səylər göstərilməsindən də danışdıq. Bu layihələr unikaldır. Zənnimcə, uğurlar çox da uzaqda deyil.

Strateji tərəfdaşlığımızın mədəni-humanitar tərkibi üzrə əməkdaşlığımızı da xüsusi qeyd etmək istəyirəm. Bu, xalqlarımızın yaxınlaşması baxımından çox mühümdür. Biz Azərbaycan tərəfinə Qazaxıstan mədəniyyəti günlərinin yüksək səviyyədə keçirilməsinə yaradılan lazımi şəraitə və səmimi qəbula görə minnətdarıq. Biz də Azərbaycan mədəniyyət xadimlərini ölkəmizdə səbirsizliklə gözləyirik və bu tədbirin uğurla keçəcəyi heç bir şübhə doğurmur, çünki Azərbaycan mədəniyyətinə maraq hər zaman vardır. Düzünü söyləmək lazımdır ki, Qazaxıstan xalqı sizin mədəniyyətinizdən ötrü darıxıb və Azərbaycan mədəniyyət xadimlərini böyük məmnunluqla qarşılayacaq.

Həmçinin çox mötəbər təşkilatlarda qarşılıqlı fəaliyyətimizi xüsusi qeyd etmək istəyirəm. Bu, Birləşmiş Millətlər Təşkilatı, Türk Dövlətləri Təşkilatı, ATƏT, AQEM, SPECA, MDB kimi təşkilatlardır. Zənnimcə, bu, beynəlxalq qarşılıqlı fəaliyyətin çox böyük spektridir və sözügedən beynəlxalq əməkdaşlıq davam edəcək. Strateji tərəfdaşlıqdan danışırıqsa, bu da çox əhəmiyyətlidir.

Hörmətli Prezident İlham Heydər oğlu Əliyevə göstərilən qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm. Sizin torpağınızda özümüzü çox rahat hiss edirik. Gözəl Bakı şəhərinə Sizin dəvətinizlə böyük maraq və ümidlərlə gəldik. İndi isə təbii ki, Qazaxıstana qayıtdıqda dərhal müvafiq qərarların qəbul edilməsinə başlayacağıq və əldə olunmuş bütün razılaşmaların həyata keçirilməsi üçün lazımi səylər göstərəcəyik.

Təşəkkür edirəm.

AZƏRTAC

Ali qonağın şərəfinə dövlət ziyafəti

Martın 11-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin şərəfinə dövlət ziyafəti verilib.

Ziyafətdə Azərbaycanın və Qazaxıstanın musiqi əsərlərindən ibarət konsert proqramı təqdim olunub.

Qazaxıstan Prezidenti ilə Milli Məclisdə görüş

Azərbaycanda dövlət səfərində olan Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə Milli Məclisdə görüş olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, ali qonağı parlamentin sədri Sahibə Qafarova qarşılayıb.

Qazaxıstan Prezidenti Milli Məclisin iclas zalı ilə tanış olub.

Görüşdə Prezident Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfərinin, Prezident İlham Əliyev ilə keçirilən görüşlərin və aparılan danışıqların ölkəmizdə böyük diqqətlə izlənildiyini deyən spiker Sahibə Qafarova vurğulayıb ki, xalqlarımızın dostluğunun, qardaşlığının növbəti təzahürü olan bu səfər ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcək.

Qeyd olunub ki, Azərbaycan və qazax xalqları ümumi mədəni, mənəvi köklərlə bir-birinə bağlıdır. Ölkələrimiz müstəqilliklərini bərpa etdikdən sonra hər gün genişlənən, artıq strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksələn əlaqələrimiz də məhz bu möhkəm təməl üzərində qurulub.

Parlamentlərimizin əlaqələri haqqında məlumat verən Milli Məclisin sədri vurğulayıb ki, Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri də ali qanunverici orqanlarımızın qarşılıqlı fəaliyyətidir.

Beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyətin əhəmiyyətinin də vurğulandığı söhbət zamanı hazırda dünyada bir sıra mənfi proseslərin də müşahidə olunduğunu deyən Sahibə Qafarova qeyd edib ki, ikili standartlar, islamofobiya kimi meyillər narahatlıq doğurur. Belə bir şəraitdə ikitərəfli əməkdaşlıq əlaqələrimiz daha böyük əhəmiyyət kəsb edir.

Xüsusilə TÜRKPA çərçivəsində əməkdaşlığın əhəmiyyətindən danışan Milli Məclisin sədri xatırladıb ki, Prezident İlham Əliyev parlamentdəki andiçmə mərasimindəki çıxışında Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığı prioritet kimi müəyyənləşdirib. Azərbaycan dövlətinin başçısı xüsusilə qeyd edib ki, bizim ailəmiz Türk dünyasıdır və biz Türk Dövlətləri Təşkilatının qlobal arenada mühüm aktora və güc mərkəzinə çevrilməsi üçün birlikdə çalışmalıyıq. Sahibə Qafarova vurğulayıb ki, parlamentarilər də TÜRKPA-nı daha da gücləndirmək üçün birgə səyləri davam etdirməlidirlər. TÜRKPA çərçivəsində fəaliyyət xalqlarımızı daha da yaxınlaşdırır, ölkələrimiz arasında əlaqələrin dərinləşməsi və möhkəmlənməsi üçün böyük imkanlar yaradır.

Azərbaycana səfərindən və Milli Məclisdə olmaqdan məmnunluğunu bildirən Prezident Kasım-Jomart Tokayev Qazaxıstan Senatının sədri vəzifəsində Azərbaycanın Milli Məclisində üç dəfə olduğunu xatırladıb. Prezident Kasım-Jomart Tokayev bunun da Azərbaycan parlamentinə və xalqına hörmətinin bir nümunəsi olduğunu qeyd edib.

Qazaxıstanın və Azərbaycanın strateji tərəfdaş və müttəfiq ölkələr olduğunu deyən Prezident Kasım-Jomart Tokayev vurğulayıb ki, bu da üzərimizə xüsusi öhdəliklər qoyur.

Azərbaycanın regionda artan rolunu vurğulayan Qazaxıstan Prezidenti ölkəsinin bütün sahələrdə Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu diqqətə çatdırıb. O xatırladıb ki, Prezident İlham Əliyev ilə danışıqlarının əsas mövzuları da neft-qaz, logistika, rəqəmsal texnologiyalar, sənaye və digər sahələrdə əməkdaşlıq məsələləri olub.

Söhbət zamanı Prezident Kasım-Jomart Tokayev Qazaxıstanın iqtisadiyyat, sənaye, rəqəmsallaşma, kənd təsərrüfatı və digər sahələrdə qazandığı uğurları və perspektiv planları barədə məlumat verib. Ölkələrimizin nəqliyyat-logistika, Orta Dəhliz və digər layihələr çərçivəsində əməkdaşlığından məmnunluqla danışan Qazaxıstan dövlətinin başçısı humanitar sahədə də münasibətlərin inkişafının əhəmiyyətini qeyd edib. Bu baxımdan dövlət başçısı Azərbaycanda keçirilmiş Qazaxıstan mədəniyyəti günlərinin xalqlarımızı daha da yaxınlaşdırdığına əminliyini ifadə edib. O, Bakıda Qazaxıstan mədəniyyət günlərinin keçirilməsinə göstərilən dəstəyə görə Azərbaycan hökumətinə təşəkkürünü ifadə edib və Qazaxıstanda da Azərbaycan mədəniyyət günlərinin keçirilməsi məsələsinin gündəmdə olduğunu bildirib.

Dövlətlərarası münasibətlərin inkişafında parlament diplomatiyasının rolunu yüksək qiymətləndirən Qazaxıstan Prezidenti beynəlxalq təşkilatlar, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində konstruktiv əməkdaşlığın əhəmiyyətindən danışıb. Ali qonaq ölkələrimiz arasında bu sahədə mövcud əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O deyib ki, parlamentlərarası əlaqələr ölkələrimiz arasında münasibətlərin mühüm istiqamətini təşkil edir. Kasım-Jomart Tokayev bir sıra parlament təşkilatlarında əməkdaşlığın önəmini vurğulayıb.

Sahibə Qafarova deyib ki, bu gün qanunverici orqanlarımız arasında çox səmərəli əməkdaşlıq qurulub. Azərbaycan Milli Məclisi ilə həm Qazaxıstan Parlament Məclisi, həm də Senatı arasında yaxşı əlaqələr və sıx təmaslar mövcuddur. Hər iki ölkənin qanunverici orqanlarında dostluq qrupları var və deputatlarımızın qarşılıqlı səfərləri, nüfuzlu beynəlxalq parlament təşkilatlarında mütəmadi görüşlərin keçirilməsi ikitərəfli əlaqələrin inkişafına töhfə verir.

Vurğulanıb ki, parlamentlərimiz arasında əlaqələri daha da dərinləşdirmək üçün geniş imkanlar var. Parlament komitələri arasında səmərəli qarşılıqlı fəaliyyət mühüm istiqamətlərdən biri hesab olunur.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev martın 11-də Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Ali qonaq görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini anıb, məzarı üzərinə tər çiçəklər düzüb.

Şəhidlərin xatirəsinə ehtiram



Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev martın 11-də Şəhidlər xiyabanını ziyarət edib.

Prezident Kasım-Jomart Tokayev Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonda Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev martın 11-də Azərbaycan Respublikasına dövlət səfərinə gəlib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

AZƏRTAC

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 131 **Bakı şəhəri, 11 mart 2024-cü il**

Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması haqqında

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il 1 iyul saat 06:00-dək uzadılsın.

2. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1209 (Cild I) 1.1-ci bəndində "2 aprel" sözləri "1 iyul" sözləri ilə əvəz edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının aşağıdakı hərbi qulluqçuları "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilsinlər:

Ələkbərov Nicat Vaqif oğlu – polkovnik
Abdulkərimov Tural Akif oğlu – polkovnik-leytenant
Əliyev Telman Elyaz oğlu – polkovnik-leytenant
Həsənov Əli Vaqif oğlu – polkovnik-leytenant
Qurbanov Anar İsa oğlu – polkovnik-leytenant
Məmmədov Xəyyam Loğman oğlu – polkovnik-leytenant
Ağayev Nemət Mir Tahir oğlu – mayor
Əliyev Rasim Nurməmməd oğlu – mayor
Quliyev Malik Əlipənah oğlu – mayor
Məhərrəmov Sətdar Razim oğlu – mayor
Niftəliyev Ayaz Tofiq oğlu – mayor
Məmmədov Bilal Şahin oğlu – kapitan.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2024-cü il

E.Ə.Məmmədova "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Polkovnik Elçin Əli oğlu Məmmədova "general-mayor" ali hərbi rütbəsi verilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2024-cü il

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Zambiya Respublikasının Hökuməti və xalqı adından Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Sizin yenidən dövlət başçısı seçilməyiniz Azərbaycan xalqının müdrik rəhbərliyinizə və ölkəni daha böyük tərəqqiyə doğru aparmaq üçün uzaqgörənliyinizə bəslədiyi inamın və etibarın əyani təsdiqidir. Yeni səlahiyyət müddətinizə başlayarkən mən Zambiya Hökumətinin ölkələrimiz arasında əməkdaşlığı möhkəmləndirmək üçün Azərbaycan Hökuməti ilə sıx əməkdaşlıq etmək istəyini bir daha təsdiq edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin. Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə firavanlıq arzulayıram.

Hörmətlə,

Hakainde HİÇİLEMA,
Zambiya Respublikasının Prezidenti

*

Zati-aliləri!

Partiyamız, hökumətimiz və Laos xalqı adından, eləcə də öz adımdan Azərbaycan xalqının Sizə, həmçinin hakim Yeni Azərbaycan Partiyasına inam və etimadının nəticəsi olaraq yenidən Prezident seçilməyiniz münasibətilə Zati-alinizə səmimi təbriklərimi çatdırıram.

Əminəm ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan Respublikası bütün sahələrdə inkişaf etmiş dövlətlər sırasına daxil olaraq daha da qüdrətli ölkəyə çevriləcəkdir.

Ümidvaram ki, Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası, eləcə də Laos Xalq İnqilab Partiyası və Yeni Azərbaycan Partiyası arasında dostluq və yaxşı əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı naminə daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Bu fürsətdən istifadə edərək Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, şərəfli işlərinizdə daha böyük uğurlar arzulayıram. Qoy iki partiyamız və Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası hökumətləri arasında dostluq əlaqələri daha da güclənsin və tərəqqiyə xidmət etsin!

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Hörmətlə,

Thonqlun SİSULİT,
Laos Xalq Demokratik Respublikasının Prezidenti, Laos Xalq İnqilab Partiyası Mərkəzi Komitəsinin Baş katibi

*

Hörmətli cənab Prezident!

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi təbrik edirəm. Uzaqgörən rəhbərliyinizlə son iyirmi ildə bir çox sahələrdə böyük irəliləyişlərin əldə olunmasını təqdir edirəm və Sizə xüsusi ehtiramımı bildirirəm. Siz Azərbaycanın beynəlxalq statusunu böyük dərəcədə yüksəldərək, həmçinin ölkənizdə genişmiqyaslı iqtisadi tərəqqiyə nail olaraq xalqınızın həyat səviyyəsini xeyli yaxşılaşdırmısınız.

2000-ci ilin aprelində cənab Prezident Heydər Əliyevin dəvəti ilə Azərbaycana səfərim çərçivəsində Sizinlə ilk görüşümü xatırlayıram. Sizin səmimi söhbətiniz həqiqətən məni heyran etdi. Bu səbəbdən də 2003-cü ildə prezident seçkilərində qalib gəldiyinizi eşidəndə çox sevindim.

Sizi bir daha təbrik edirəm. İnanıram ki, Siz Azərbaycanın beynəlxalq statusunun daha da yüksəldilməsi və ölkənin daha sürətli iqtisadi tərəqqiyə nail olması üçün praqmatik liderliyinizi davam etdirəcəksiniz.

Hörmətlə,

Koişiro MATSUURA,
UNESCO-nun sabiq baş direktoru

*

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Asiya İnkişaf Bankı adından Sizə ən səmimi təbriklərimi çatdırıram.

Sizin Azərbaycanın inkişafı ilə bağlı baxışlarınız gələcəyə hesablanmışdır. Bu il Asiya İnkişaf Bankı ölkənizlə tərəfdaşlığın 25-ci ildönümünü qeyd edir və biz Sizin rəhbərliyinizlə bu strateji tərəfdaşlığı davam etdirməyi səbirsizliklə gözləyirik.

Ötən ilin dekabrında Sizə ünvanladığım məktubumda mən Azərbaycanı COP29-un ev sahibi və sədri seçilməsi münasibətilə təbrik etmişdim. O vaxtdan bəri COP29-un uğurlu və yaddaqalan şəkildə keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Hökumətinin gördüyü təqdirəlayiq tədbirlər, o cümlədən bu yaxınlarda ölkənin "Qlobal Metan Vədi" təşəbbüsünə qoşulması barədə məlumat almışam. Noyabr ayında Sizinlə görüşməyi səbirsizliklə gözləyirəm.

Sizə yeni prezidentlik dönəminizdə uğurlar arzulayıram. Asiya İnkişaf Bankının Azərbaycanın tərəqqisini və ölkədə "yaşıl inkişaf"ı dəstəkləməsinə sadiqliyini bir daha təsdiq edirəm.

Sizə ən yüksək ehtiramımı bildirirəm.

Hörmətlə,

Masatsuqu ASAKAVA
Asiya İnkişaf Bankının prezidenti

*

Cənab Prezident!

Prezident seçkilərində yenidən qələbə qazanmağınız münasibətilə "ACWA Power" şirkəti adından Sizə ən səmimi təbriklərimi çatdırıram.

Parlaq qələbəniz Azərbaycan xalqının Sizin rəhbərliyinizə və uzaqgörənliyinizə inamının, etimadının təsdiqidir.

Sizin Azərbaycan Respublikasına və xalqına xidmətlə bağlı göstərdiyiniz fədakarlıq çox həsəd aparılan rifahı və təhlükəsizliyi bərqərar etdi. Mən əminəm ki, davamlı rəhbərliyiniz Azərbaycanın qlobal arenada mühüm və etibarlı tərəfdaş kimi yerini daha da möhkəmləndirəcəkdir.

"ACWA Power" şirkəti olaraq, xidmət etdiyimiz icmalara sosial rifah və iqtisadi artım gətirən yaşıl, davamlı enerji və su layihələrini inkişaf etdirməyə sadiqliyimizi bir daha təsdiqləyirik. Sizin rəhbərliyiniz və "yaşıl transformasiya"ya baxışınızla Azərbaycan ilə əlaqələrimizi inkişaf etdirəcəyimizə inanırıq.

Hörmətlə,

Məhəmməd ƏBUNƏYYAN,
Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin İdarə Heyətinin sədri

*

Hörmətli İlham Heydər oğlu!

Sizi fevralın 7-də keçirilmiş seçkilərdə qələbəniz münasibətilə təbrik edirəm.

Seçkilərdən əvvəlki dövrdə Sizin və bütün xalqınızın xidmətləri bu qələbəni şərtləndirib. Bu, Qara Bağdan indi inamla Böyük Bağa çevrilən Qarabağda qazanılan Qələbənin əks-sədasıdır.

Qoy Sizin bütün təşəbbüsləriniz həmişə "böyük" kəlməsi ilə müşayiət olunsun!

Sizə cansağlığı və uzun ömür arzulayıram.

Həmişə Sizin,

Oljas SÜLEYMENOV,
Qazaxıstanın Xalq yazıçısı, görkəmli şair və ictimai xadim

Birinci vitse-prezident Ramazan ayının başlanması münasibətilə paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ramazan ayının başlanması münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edib.

Birinci vitse-prezidentin paylaşımında qeyd olunub: "Qoy mübarək Ramazan ayı ürəklərdə saf duyğular və xoş niyyətlər oyatsın, hər bir ocağa ruzi-bərəkət, hər kəsin ailəsinə sağlıq, sevinc, səadət və əmin-amanlıq gətirsin! Uca Allah etdiyiniz duaları, tutduğunuz orucu qəbul etsin!".

Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraçı direktoru Azərbaycanda

Baş prokuror Kamran Əliyevin dəvəti ilə dünya prokurorlarının Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) İcraçı direktoru Yanne Holst Hübner ölkəmizə işgüzar səfərə gəlib.

Baş prokuror, IAP-ın vitse-prezidenti Kamran Əliyev qonağı prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatların tərkib hissəsi kimi rəqəmsallaşma sahəsində görülən işlər barədə məlumatlandırıb.

Bu ilin sentyabr ayında ölkəmizin ev sahibliyi ilə keçiriləcək IAP-ın 29-cu İllik Konfrans və Ümumi Yığıncağına hazırlıq işlərinin gedişatı və bir sıra təşkilati məsələlər müzakirə edilib.

Yanne Holst Hübner səmimi qəbula görə minnətdarlığını ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları yüksək qiymətləndirib.

Erməni PUA-sı zərərsizləşdirildi

Azərbaycan Ordusunun bölmələri Ermənistanın kvadrokopterini zərərsizləşdirib. Bu barədə Azərbaycan Müdafiə Nazirliyi məlumat yayıb.

Qeyd olunub ki, martın 11-i saat 12:10-da Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Tovuz rayonunun Əsrik yaşayış məntəqəsi istiqamətindəki mövqeləri üzərində kvadrokopter vasitəsi ilə kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib.

"Bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunan pilotsuz uçuş aparatı xüsusi texniki vasitələrlə zərərsizləşdirilib", – məlumatda vurğulanıb.

XQ

Rezonans

İslamofobiyaya qarşı Bakı çağırışının əks-sədası

Yaxud Co Baydenin Ramazan təbrikindən etiraf məqamları

Təsadüflərin zərurətdən doğması barədə fəlsəfi nəzəriyyəni qəbul edənlərlə tam razıyıq. Bəzən ilk baxışda təsüdüf sayıla biləcək hadisələrin altında gizlənmiş elə həqiqətlər üzə çıxır ki...

Martın 8-9-da Bakıda "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfrans keçirildi. Dünyanın dörd tərəfindən tədbirə gəlmiş 140-a yaxın nümayəndə dünyada İslama və müsəlmanlara qarşı artan təzyiqlərdən, dini ayrı-seçkilikdən, Avropada və ABŞ-da aşkar görünən zərərli təmayüllərdən narahatlıqlarını dilə gətirdilər, təcili şəkildə bu bəlanın qarşısının alınmasının vacibliyi ilə bağlı dünya dövlətlərinə müraciət ünvanladılar.

Məlum konfransın üstündən bir gün keçməmiş ABŞ Prezidenti Co Baydenin müqəddəs Ramazan ayının gəlişi münasibətilə müsəlman həmvətənlərinə müraciəti yayıldı. Yazılı müraciətində Amerika liderinin toxunduğu birinci incə məqam məhz İslamofobiya bəlası bəradə oldu.

"Biz öz evimizdə müsəlman amerikalılara qarşı dəhşətli dərəcədə nifrət və zorakılıq dalğasını müşahidə edirik. Söz və vicdan azadlığı üzərində formalaşan, müsəlman mühacirlər də daxil olmaqla, immiqrantların arzu və istəkləri əsasında qurulan ABŞ-da islamofobiyaya yer yoxdur. Mənim administrasiyam islamofobiya və onunla əlaqəli zorakılığın, dini ayrı-seçkiliyin bütün formaları ilə mübarizə üçün ilk Milli Strategiya hazırlayır. Əsas məqsədimiz müsəlmanlara, asiyalılara və ərəb mənşəli amerikalılara qarşı harada nifrət təzahürləri baş qaldırırsa, ona qarşı durmaqdır".

Bu açıqlaması ilə Bayden ölkəsində anti-İslam təmayüllü hərəkətlərin mövcudluğunu etiraf edən ilk ABŞ Prezidenti oldu. O, bu məsələdə bir az da irəli gedərək, cəmiyyətdə belə zərərli tamayüllərə qarşı mübarizə aparılacağını, bunun üçün hətta strateji planın hazırlanmasına başlandığını bəyan etdi. İndi biz Baydenin bayram tezislərinə Bakı konfransında dünyaya edilən çağırışların hansı dərəcədə səbəb olduğunu təxmin edə bilərik. Digər bir təxmin isə bu müraciətin prezident seçkiləri ilində çoxmilyonlu müsəlman elektoratına ünvanllanan siyasi texnologiya olması ilə bağlıdır. İkinci versiyanı reallığa daha yaxın bilsək belə, supergüc liderinin dilindən bu xarakterli etirafın səslənməsi heç də adi hadisə sayıla bilməz.

* * *

Co Baydenin bayram müraciətində diqqəti çəkən ikinci incə məqam Qəzzadakı müharibə barədə oldu. Müharibənin fələstin xalqına dəhşətli iztirablar gətirdiyini, əksəriyyəti mülki şəxslər, o cümlədən minlərlə uşaq olmaqla, 30 mindən çox insanın həlak olduğunu söyləyən ABŞ Prezidenti 2 milyona yaxın fələstinlinin müharibə nəticəsində evlərini tərk etmək məcburiyyətində qaldığını da ürək ağrısı ilə dilə gətirdi: "Bu insanların qida, su, dərman və sığınacağa ciddi ehtiyacları var. ABŞ Qəzza sahilində müvəqqəti liman yaratmaq üçün tədbirlər görüb və Fələstin anklavına hava, quru və dəniz yolu ilə yardım çatdırmağa çalışır".

Və Bayden İsrail-Fələstin münaqişəsinin daimi həlli variantı kimi iki xalq üçün iki dövlətin yaradılmasını gördüyünü deməklə növbəti ilkə imzasını atdı. Beləliklə, Ağ ev administrasiyası Fələstin dövlətinin yaradılması planını rəsmən təsdiqləmiş oldu. Bu faktın özü Co Baydenin müqəddəs Ramazan ayının başlanması münasibətilə təbrikini fürsət bilərək fələstinlilərə və bütövlükdə, müsəlman dünyasına ismarıcı kimi qəbul edilə bilər.

"Biz sabitlik, təhlükəsizlik və sülhdən ibarət uzunmüddətli gələcək qurmaq naminə fəaliyyətimizi davam etdirəcəyik. Bura fələstinlilərə və israillilərə azadlıq, ləyaqət, təhlükəsizlik və firavanlıq üçün bərabər imkanlar və münaqişənin iki dövlət variantı kimi həlli daxildir. Bu, möhkəm sülhə aparan yeganə yoldur", – deyən Baydenin xoş müjdəli bayram müraciəti hazırda dünyanın aparıcı media orqanlarının müzakirə mövzusuna çevrilib.

İ.HƏSƏNQALA
XQ

Milli iqtisadi doktrinanın hədəfi ümumi tərəqqi və yüksək rifahdır

Prezident İlham Əliyevin rəhbərliyi ilə son 2 onillikdə Azərbaycanda aparılan siyasi, iqtisadi və sosial islahatlar dönməz xarakter almaqla cəmiyyətin bütün fəaliyyət sahələrini əhatə etmiş, ölkəni yeni inkişaf mərhələsinə çıxarmışdır.

Azərbaycan hərtərəfli yeniləşmə və tərəqqinin bu yüksək mərhələsinə Ümummilli lider Heydər Əliyevin yaratdığı məqsədyönlü və fundamental əsaslar üzərində gəlib çatmışdır. Ulu öndərin ölkəyə rəhbərliyinin hər iki dövründə gerçəkləşdirilmiş strateji proqramlar respublikamıza əsrə bərabər inkişaf və tarixi nailiyyətlər qazandırmışdır. Prezident İlham Əliyevin dediyi kimi: "Heydər Əliyev bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın azadlığının əbədi, dönməz olmasında, iqtisadi potensialının güclənməsində, bölgədə və yer üzündə nüfuzunun artmasında onun müstəsna xidmətləri var. İndi bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu azad Azərbaycan yaşayacaqdır".

Dövlət başçısı son 20 ildə Ulu öndərin qurduğu təməl üzərində Azərbaycanın dövlət kimi dayaqlarını daha da möhkəmləndirmiş, inkişaf perspektivlərini yeni keyfiyyət və kəmiyyət platformasına yüksəltmişdir. Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri Prezident İlham Əliyevin 2003-cü ildən bəri imzaladığı çoxsaylı fərman və sərəncamlarda, dövlət proqramlarında öz əksini tapmışdır. Bu dövrdə respublikamızda iqtisadi quruculuq yeni strateji proses kimi gerçəkləşdirildi. Nəticədə, ölkəmiz regionun ən güclü dövlətinə çevrildi. Bunun nəticəsi olaraq insanların maddi rifahı və həyat səviyyəsi xeyli yaxşılaşdı.

Prezident İlham Əliyev ulu öndərin müəyyən etdiyi dövlətçilik kursuna uyğun olaraq ölkənin sosial-iqtisadi cəhətdən inkişafını təmin etdi. Azərbaycanın regionda lider dövləti kimi bölgədəki yeni reallıqların əsas müəllifi, iqtisadi-siyasi proseslərin başlıca iştirakçısı oldu. Ölkəyə rəhbərlik estafetini Ulu öndərdən qədul etmiş İlham Əliyev 2003-cü ildə bildirmişdi: "İnsanların həyat səviyyəsini yaxşılaşdırmaq qarşıda duran ən böyük vəzifədir. Bunu etmək üçün bizim hər cür imkanımız və yetərincə möhkəm iradəmiz var. Əminəm ki, Azərbaycan iqtisadi cəhətdən güclü ölkəyə çevriləcək və digər ölkələrə nümunə olacaqdır. Mən Azərbaycanı belə görmək istəyirəm". 20 il öncə həyata keçirilməyə başlayan bu uzaqgörən daxili və xarici siyasət Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarmışdır.

Prezident İlham Əliyev hakimiyyətə gəldiyi ilk dövrdə ölkənin inkişaf prioritetlərini müəyyən edən "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman imzaladı, daha sonra davamlı və tarazlı inkişafın təmin edilməsinə yönəldilmiş Azərbaycan respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nı (2004–2008-ci illər) təsdiq etdi.

2003–2005-ci illər üçün "Azərbaycan respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın başa çatması ilə əlaqədar olaraq 15 sentyabr 2008-ci il tarixində Prezident İlham Əliyevin rəhbərliyi ilə 2008–2015-ci illərdə Azərbaycan respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı" hazırlanıb qəbul edildi. Uğurla icra olunan bu dövlət proqramları, eləcə də digər vacib sənədlər, aparılan məqsədyönlü dövlət siyasəti respublikada uzunmüddətli sosial-iqtisadi inkişafı təmin etdi.

Prezident İlham Əliyev ölkədə neft gəlirlərinin artdığı və inflyasiya potensialının yarana biləcəyini nəzərə alaraq imzaladığı "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında " 31 may 2005-ci il tarixində fərmanda neft bumundan milli iqtisadiyyatın qorunması, dövlət büdcəsi xərclərinə nəzarətin gücləndirilməsi, neft ixracından əldə ediləcək vəsaitlərin səmərəli idarə olunması və istifadəsi məsələlərinə geniş yer verilmişdi.

Azərbaycanda neft və qaz gəlirlərinin kəskin artması şəraitində makroiqtisadi sabitliyin təmin edilməsi, gəlirlərin bir hissəsinin gələcək nəsillər üçün saxlanması, qeyri-neft sektorunun stimullaşdırılması, əhalinin rifahının yüksəldilməsi üçün istifadə edilməsi, neft-qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiyanın qəbulu zərurətə çevrilmişdi. Bu məqsədlə Prezident İlham Əliyev "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya" (2005–2025) təsdiq etdi. Burada neft və qaz gəlirlərindən istifadənin əsas prinsipləri və ortamüddətli xərclər siyasətini müəyyənləşdirdi.

2003–2023-cü illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı üçün olduqca üğurlu olmuşdur. Belə ki, bu uğurlar ilk növbədə dövlət başçısının siyasi iradəsi və qətiyyətli addımları, ictimai-siyasi sabitliyin qorunub saxlanması, dövlət idarəçiliyinin səmərəli təşkili, iqtisadi inkişafda əsas hədəflərin düzgün müəyyən edilməsi, islahatların davamlı olması, cəmiyyətin real ehtiyaclarının ödənilməsinə yönəlmiş dövlət proqramlarının reallaşdırılması təmin edilmişdir. Bu isə sonda ölkə vətəndaşlarının maddi rifahının yaxşılaşmasında və həyat səviyyəsinin yüksəlməsində özünü daha qabarıq göstərmişdir.

Hazırda ölkəmizdə islahatların texnologiyası davamlı olaraq təkmilləşdirilir. Prezident İlham Əliyev göstərir ki: "İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir və ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə də müsbət təsir göstərir". Respublikamız göstərilən istiqamətlərdə son 20 ildə həyata keçirilən islahatlar nəticəsində Dünya Bankının qiymətləndirmələrinə görə, yuxarı orta gəlirli ölkələr qrupuna daxil oldu. Bu müddət ərzində ümumi daxili məhsul 6,2 milyard dollardan 78,7 milyard dollara çatdı, ÜDM-un həcmi 4 dəfə artdı.

Adambaşına düşən ÜDM 769 dollardan 7 min 798 dollara çatdı. Qeyri-neft-qaz ÜDM-u 4,1 milyard dollardan 41,1 milyard dollara çatdı. Respublikamızın xarici ticarət dövriyyəsi 3,8 milyard dollardan 52,7 milyard dollara yüksəldi. İxracın həcmi 2,2 milyard dollardan 38,1 milyard dollara, qeyri-neft ixracı isə 0,26 milyard dollardan 3,05 milyard dollara qalxdı. 20 il ərzində kənd təsərrüfatı istehsalı 2,2 dəfə, nəqliyyat sektoru 4,9 dəfə, turizm və ictimai iaşə 18,9 dəfə, informasiya və rabitə sahəsi isə 23 dəfə artdı. Respublikamızın valyuta ehtiyatı isə satronimik səviyyəyə – 1,4 milyard dollardan 58,5 milyard dollara çatdı. Ölkəmizdə yoxsulluğun səviyyəsi son 20 ildə 46,7 faizdən 5,5 faizə endi.

Ötən dövrdə iqtisadiyyatın şaxələndirilməsi, rəqabətqabiliyyətli qeyri-neft məhsulları istehsalının və ixracının stimullaşdırılması, daxili tələbatın yerli istehsal hesabına təmin edilməsi istiqamətində kompleks və ardıcıl işlər görülüb. Bu baxımdan, iqtisadiyyatın neftdən asılılığının azaldılması, qeyri-neft sektorunun davamlı inkişafı iqtisadi siyasətin mərkəzində duran əsas hədəflərdəndir.

Qeyri-neft sektorunda müşahidə edilən davamlı artım meylləri, ölkənin valyuta ehtiyatlarının həcmi və onunla müqayisədə xarici dövlət borcunun minimal səviyyəsi, nəqliyyat enerji layihələrinin həyata keçirilməsi ölkənin milli və iqtisadi təhlükəsizliyi üçün möhkəm zəmin yaradır. Sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi məsələsi Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi siyasətin mühüm tərkib hissəsidir.

Son 20 il ərzində sənayedə məhsul istehsalının həcmi 4 milyard manatdan 86,4 milyard manata çatıb. Sənaye məhsulunun ümumi həcmində özəl sektorun payı isə 2002-ci ildə 54,9 faiz olduğu halda, 2022-ci ildə 87,6 faiz təşkil edib. Bundan əlavə 2002-2022-ci illərdə ölkənin qeyri-neft qaz sənayesində istehsalçı həcmi 1,6 milyard manatdan 17,7 milyard manata yüksəlib.

Hazırda Azərbaycanda 7 sənaye parkı – Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam və Cəbrayıl sənaye parkları və 5 sənaye məhəlləsi – Neftçala, Masallı, Hacıqabul, Sabirabad və Şərur sənaye məhəllələri fəaliyyət göstərir. Sənaye zonalarında 10,23 milyard manatlıq məhsul istehsal edilib və onun 3,35 milyard manatlıq hissəsi xarici ölkələrə ixrac edilib. 2023-cü ilin birinci yarısında bu müəssisələrin satdığı 1,4 milyard manat dəyərində məhsulun 33,2 faizi, yəni 470,6 milyon manat ixrac edilib. Sənaye zonalarının qeyri-neft sektorunun xüsusi çəkisi 16,5 faiz, qeyri-neft sənaye məhsulunun ixracında isə 20,7 faiz olub.

Milli iqtisadiyyatın inkişaf strategiyası da prioritet istiqamətlərdən biri kimi ixtisaslaşmış turizmin müəyyənləşdirilməsi, inkişafı istiqamətində görülən işlərin davamlılığına xidmət etməklə yanaşı, Azərbaycan Respublikasının cəlbedici məkan kimi qabaqcıl mövqe tutmasına imkan yaradacaq. Bu, eyni zamanda, qarşılıqlı əlaqələrdən və mövcud turizm potensialından səmərəli istifadə etməklə turizm sektorunun iştirakçıları arasında əməkdaşlığın inkişafına və Azərbaycanda turizm xidmətləri üzrə keyfiyyətin yüksəlməsinə gətirib çıxaracaqdır.

Dünya ölkələri, xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişləni, Bakı–Tbilisi–Ceyhan (BTC) neft ixrac kəməri və Bakı–Tbilisi–Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna rol oynayır. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyəti olan "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TANAP və TAP layihələri, həmçinin "Şahdəniz 2" layihəsi üzrə qərarının imzalanması xüsusi qeyd edilməlidir.

Son 20 ildə ölkəmizdə biznes və investisiya mühiti, ölkəmizin beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, mühüm tranzit mərkəzi olması məsələləri investisiya cəlbediciliyi baxımından çox əlverişli olmuşdur. Bu baxımdan Azərbaycan beynəlxalq öhdəliklərə vaxtında əməl edir və transmilli layihələrin, o cümlədən Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində yaxından iştirak edir. Bütün bunlar isə ölkəmizə qoyulan investisiyaların həcminin artmasına səbəb olmuşdur.

Ötən dövrdə ölkə iqtisadiyyatına qoyulmuş 300 milyard ABŞ dolları investisiyaların 200 milyard dollardan çoxu ölkənin qeyri-neft-qaz sektoruna yönəldilmişdir. İnvestisiyaların həcminin belə sürətlə artmasının mühüm səbəblərindən biri ölkədəki sabitlik, əmin-amanlıq, xalq-iqtidar birliyi, milli həmrəyliyin olması, xalqımızın öz Prezidenti ətrafında sıx birləşməsidir. Ölkənin inkişafı ilə bağlı irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilib.

Avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Baki Beynəlxalq Dəniz ticarət limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirib.

Çoxsaylı infrastruktur layihələrinin həyata keçirilməsi Azərbaycanın iqtisadi mənzərəsini daha da zənginləşdirmişdir. Respublikamız Avropa ilə Asiyanı bir-birinə sıx bağlayan nəqliyyat-loqistika mərkəzinə çevrilmişdir. Azərbaycan son 5–8 ildə ən dinamik inkişaf edən 10 ölkə qrupuna daxildir.

2013-cü ildə ilk peykin buraxılmasından sonra Azərbaycan kosmik klubun üzvü olmuşdur və bu gün kosmik fəzanın istifadəsi sahəsində fəaliyyətini 3 peyklə davam etdirir. Bu isə dövlət siyasətimizin prioritet istiqamətlərindən birini təşkil edir.

Ölkə Prezident İlham Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf siyasətinin prioritet istiqamətlərindən biri iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, rəqabətqabiliyyətliyinin artırılması və həmin sahəyə investisiya qoyuluşunun sürətləndirilməsidir. Respublikamızda qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan aqroparkların yaradılması istiqamətində önəmli iş görülmüşdür. Bu isə regionlarda yeni iş yerlərinin açılması və məşğulluğun təmin olunması ilə yanaşı, ixracyönümlü məhsulların istehsalında əhəmiyyətli rola malikdir. Respublikada 51 aqroparkın yaradılması ilə bağlı addımlar atılır. Artıq 30-dan çox aqropark fəaliyyətdədir.

Bundan sonra bizim qarşımızda duran əsas məsələ qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatının səmərəliliyinin təmin edilməsidir - fikrini Prezident İlham Əliyev heç də təsadüfən qeyd etməmişdir. Bu baxımdan çox illərdə həyata keçirilən liberallaşma tədbirləri, xüsusilə də institusional islahatlar ölkə iqtisadiyyatında ciddi keyfiyyət dəyişiklikləri kimi qiymətləndirilmişdir.

Respublikamızın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurların davamlılığını təmin etmək məqsədilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər qəbul edilmişdir. Bu mühüm sənəddə qeyri-neft sektorunun inkişafı, nəqliyyat, tranzit və loqistika infrastrukturunun təkmilləşdirilməsi, informasiya cəmiyyətinə keçidin təmin edilməsi, insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması, ətraf mühitin mühafizəsi azad edilmiş ərazilərin bərpası və s. məsələləri əhatə edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə 2019-cu ildə ölkəmizdə sosial-iiqtisadi islahatların yeni mərhələsinə başlanılıb. Bu məqsədlə "2019–2023-cü illərdə sosial-iqtisadi inkişafın Dövlət Proqramı" qəbul edilib. Dövlət Proqramında dayanıqlı iqtisadi artımın təmin edilməsi, iqtisadiyyatın daha da şaxələndirilməsi, investisiyaların cəlbi, ölkə əhalisinin maddi rifahının yaxşılaşdırılması və s. məsələlər öz əksini tapmışdır. Artıq bu Dövlət Proqramı da uğurla icra edilmişdir.

Qeyd etmək lazımdır ki, tədqiqat aparan beynəlxalq təşkilatlar, nüfuzlu reytinq mərkəzləri Azərbaycan dövlətinin həyata keçirdiyi islahatları yüksək qiymətləndirirlər. Görülən tədbirlərin nəticəsidir ki, Dünya Bankının "DOİNG BUSİNESS" hesabatında ölkəmizin reytinqi daim yüksəlir. Artıq Azərbaycan bu reytinqdə 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Eyni zamanda ölkəmiz dünyanın 10 ən islahatçı ölkəsi sırasına daxil edilib.

Prezident İlham Əliyevin rəbərliyi ilə həyata keçirilən məqsədyönlü, düşünülmüş siyasət, dərin islahatlar nəticəsində uzun illər ərzində yaradılmış iqtisadi və hərbi potensial Şanlı Ordumuzun düşmən üzərində parlaq və qəti qələbəsini şərtləndirdi.

Artıq işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işləri həyata keçrilir. Tarixi qələbədən sonra Qarabağın bərpası və dirçəldilməsi sahəsində böyük işlərə Prezidentimiz özü rəhbərlik edir. Prezidentimiz İlham Əliyev, Birinci vitse prezidentimiz Mehriban xanım Əliyeva öz istirahət günlərini də Qarabağın tikinti meydançalarında keçirirlər. Bütün bunlar isə xalqın onlara olan sevgi və ehtiramını artırır. Prezident "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramını təsdiq etmişdir. Dövlət Proqramına uyğun olaraq, bütün ərazilərin və şəhərlərin bərpası, torpaq və su ehtiyaclarından səmərəli istifadə, yaşayış məntəqələrinin "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası əsasında qurulması, ətraf mühitin qorunması, yaşıl iqtisadiyyat, infrastrukturun və ekosistemin bərpası və s. istiqamətlərdə layihələr həyata keçrilir.

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişiklərinin fəsadlarına qarşı mübarizədə öz töhfəsini verir. Ölkəmizdə ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi sahəsində böyük işlər görülür. Prezidentin sərəncamı ilə Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan edilmişdir.

Ölkə Prezidenti 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etmişdir. Aparılımış tədqiqatlar göstərir ki, artıq dövlətlərin iqtisadi üstünlüyü də məhz texnologiyalara yiyələnməyə, onları mənimsəmə gücünə əsaslanır. Bir sözlə, iqtisadi gücü müəyyən edən meyarların, qazanılan makro və mikro iqtisadi göstərişlərin önündə bu gün məhz ölkədə informasiya-kommunikasiya texnologiyalarının tutduğu yer və onun inkişafı dayanır. Bu baxımdan Azərbaycan dünya üzrə ekoloji mübarizənin ön cəbhəsinə çevrilib. COP29-un ölkəmizdə keçirilməsi bu gerçəyin mötəbər təsdiqidir .

Azərbaycan son 20 ildə İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edib, bütün sahələr üzrə qarşıya qoyulan vəzifələr yüksək səviyyədə həyata keçirilib. Gerçəkləşdirilən iqtisadi doktrina belə deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə də bu siyasətin davamı sayəsində hərtərəfli inkişaf sürətini daha da artıracaq, həm regional, həm də qlobal səviyyədə öz mövqelərini durmadan möhkəmləndirəcək.

Arif ŞƏKƏRƏLİYEV,
Azərbaycan Dövlət İqtisad Universitetinin professoru,
Əməkdar elm xadimi

Azərbaycanın islamofobiya ilə mübarizəsi: mənəvi haqq və bəşəri sülhə töhfə

“Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə” mövzusundakı konfransla bağlı düşüncələr

(əvvəli 1-ci səhifədə)

Ancaq terrorizmi İslam dini ilə bağlamaq cəhdlərini görürük. Bunun nəticəsidir ki, terrorçu obrazı üçün sanki bir libas biçilib. Libas ayrı-ayrı müsəlman xalqlarının adət-ənənələrinin göstəricisi sayılan geyimlərdir. Hazırda dünyada və Avropada elə vəziyyət yaradılıb ki, bu geyimlərdə olan hər kəs potensial terrorçu kimi görünür. Amma təkcə xarici görünüş deyil, ümumən müsəlman obrazının terrorçuluqla əlaqələndirilməsi kimi motivlərdə ən müxtəlif “çalarlar” var. Halbuki, tarixə nəzər salsaq, bu və ya digər şəkildə terrorla, xurafatla əlaqəli müsəlman birliklərinin yaradılmasının məhz Qərbdən qaynaqlandığını görə bilərik.

Bir məqamı da təəssüf hissi ilə vurğulayaq ki, İslam dünyası bu mənfi meyilə qarşı tutarlı cəbhə açmayıb. Nəticədə dahi şairimiz Sabirin təbirincə desək, müsəlman görəndə qorxu hissi keçirənlər say üstünlüyünə yiyələniblər. Beləliklə, məqsədli siyasət predmetinə çevrilmiş islamofobiya güclənib. Azərbaycanın hazırda götürdüyü kurs məhz sözügedən tendensiyaya zərbə vurmağı hədəf seçir, mövcud istiqamətdə platforma yaradır. “Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə” mövzusundakı beynəlxalq konfrans da həmin platforma çərçivəsindəki növbəti böyük addım, yüksək səsli çağırış və uğurdur. Çağırışın birmənalı təşəbbüskarı, onun uğur formulu isə Prezident İlham Əliyevdir. Dövlətimizin başçısı konfrans iştirakçılarına məktubunda bildirir: “Dindən siyasi məqsədlər üçün istifadə yalnız cəmiyyətlər daxilində nifaq və qarşıdurma yaratmağa xidmət edir. Bu təzahürlər, eyni zamanda, insanlığı humanizm ideallarından və ümumbəşəri dəyərlərdən məhrum edir, nəticədə sivilizasiyalararası münaqişələrə gətirib çıxarır”.

Ölkəmizin lideri bu fikirləri heç də təsadüfən gündəmə gətirmir. Nəzərə alaq ki, otuz ildən artıq davam etmiş, hazırda tarixin arxivinə gömülmüş Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müxtəlif mərhələlərində müsəlman Azərbaycanının xristian Ermənistanına qarşı mübarizə apardığına dair baxışlar geniş yayılmışdı. Haqq davamız olan 44 günlük müharibə zamanı da bu deyimlər erməni təbliğat maşınının anti-Azərbaycan fəaliyyətinin başlıca alətinə çevrilmiş, mübarizəmiz işğalçılıq kimi qiymətləndirilmişdi. Beləliklə, Prezidentin vurğuladığı ümumbəşəri dəyərlər arxa plana atılmış, torpaqlarımızın işğalı, bir milyondan çox vətəndaşımızın öz doğma yurd-yuvasından didərgin salınması heçə sayılmış, humanizm ideallarına arxa çevrilmişdi. Təəssüf ki, indinin özündə də eyni durumun müxtəlif təzahürlərini, onun mənzərələrini görürük...

Bəli, o da təəssüf doğurmaqdadır ki, dünyada qlobal dəyişikliklərin getdiyi indiki şəraitdə İslamın potensial təhlükə mənbəyi kimi aşılanması siyasət meydanındakı başlıca vasitədir. Məsələyə mövcud prizmadan yanaşsaq, BMT-nin islamofobiya ilə Mübarizə Gününə dair Qətnaməsi nə

dərəcədə önəmlidirsə, Bakıda islamofobiya ilə bağlı geniş müzakirənin açılması, reallıqların dilə gətirilməsi ümumi işə praktik dəstək baxımından müstəsna məqamdır. Sevindirici haldır ki, dini inanclarla bağlı ayrı-seçkilik, dözümsüzlük və şiddət hallarının çoxalmasından olan narahatlığı ifadə edən vacib diskussiyalara evsahibliyini gerçəkləşdirən məhz Azərbaycandır.

Prezident İlham Əliyevin də məktubunda vurğuladığı kimi, hazırda islamofobiyanın özünü demokratik hesab edən bir sıra Qərb ölkələrinin dövlət siyasətinin tərkib hissəsini təşkil etməsi acınacaqlıdır. Təsəvvür edin ki, son bir ildə dünyada baş vermiş bütün anti-İslam təzahürlərinin 80 faizi bu ölkələrin payına düşür. Acınacaqlı durumun daha bir təzahürünü isə dövlətimizin başçısı açıqlayır: “İslamofobiyanın ən yüksək səviyyəyə çatdığı və rəsmi ideologiya kimi tətbiq olunduğu bəzi Avropa ölkələrində müqəddəs kitabımız “Qurani-Kərim”in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s.) karikaturalarının nəşr edilməsi və sair təhqiramiz hərəkətlər söz azadlığı kimi qələmə verilir”.

Əlbəttə, söz azadlığının İslam dininin ehkamlarına qarşı qoyulması, birincinin ikincinin təhqiri və təhdidi alətinə çevrilməsi aşkar siyasi manipulyasiyadır. Bu tendensiya konfrans çərçivəsindəki “İctimai rəyin formalaşdırılması: Rəqəmsal islamofobiya” mövzusunda keçirilmiş aralıq sessiyada da vurğulandı. Məsələn, Niderlandın Qroningen Universitetinin professoru Seyfəddin Kara bildirdi ki, media subyektləri müəyyən məsələləri kontekstindən çıxararaq, fərqli təqdim etməklə, sanki müsəlmanların cəmiyyətə mənfi təsir göstərdiklərini diqqətə çatdırmağa çalışırlar.

Belə görünür, inkişaf etmiş Qərb cəmiyyətlərində dini dəyərlərin bəşəri dəyərlər kimi qavramında da ciddi çatışmazlıqlar və problemlər mövcuddur. Bunun nəticəsidir ki, “məqsəd vasitəyə bərəət qazandırır” deyimi ilə hərəkət edilir. Nəticədə söz azadlığının dini dəyərlərlərə sayğısızlıq motivinə qarşı cəmiyyətlərin daxili müavimətinin olmadığını görürük. Bu hal həmin cəmiyyətləri zombiləşdirir, onu təfəkkürlü toplumdan kütləyə çevirir. ABŞ-ın Merilend Universitetinin kommunikasiya üzrə dosenti Sahar Mohamed Xamisin dediyi də elə budur. Sosial və rəqəmsal media vasitəsilə islamofobiyaya fərqli yanaşmanın ortaya qoyulduğunu vurğulayan alim maraqlı məqama toxunur: “Məsələn, Qərbdə heç də hər kəs bilmir ki, İsa Peyğəmbər barədə “Qurani-Kərim”də məlumatlar yer alıb. Bu baxımdan İslama qarşı qərəzli davranışın səbəblərindən biri də məlumatsızlıqdır”.

Həqiqətən, Merilend Universitetinin dosentinin dedikləri haqqında söz açdığımız zombiləşmənin, düşüncə kasadlığının necə böyük təhlükə olduğunun təzahürüdür. Amma məsələ ondadır ki, bu təhlükəni yaradan ayrı-ayrı dövlətlərin yeritdikləri siyasətdir. Bu mənada Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun konfransın “Qərbi Avropada müsəlmanlara münasibətdə oxşarlıqlar və fərqliliklər, müsəlman ümmətində əsas insan hüquqları" mövzusundakı plenar iclasda söylədikləri diqqət çəkməyə bilməz. “Bəzi Avropa ölkələrində islamofobiya cəmiyyətdən dövlətə deyil, dövlətdən cəmiyyətə yayılır. 2019-cu ildə Fransada islamofobiya halları dövlət müəssisələrində 369 təşkil edib, özəl sektorda isə 197 olub”, – deyən cənab İsmayılov əlavə edib ki, Fransada müsəlmanlar öz CV-lərində müsəlman olmadıqlarını qeyd edəndə işə qəbul şansları 50 faizdən çox artır. Həmçinin, bir çox Avropa ölkələrində müsəlmanlar öz əqidələrini CV-lərində göstərmirlər.

***

Bəli, Fransa özünün ənənəvi neokolonializm siyasəti ilə bərabər, müsəlmanlara qarşı açıq-aşkar təzyiq və diskriminasiya siyasəti yürüdür, müxtəlif islamofob kampaniyalar təşkil edir. Prezident İlham Əliyevin “Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə” mövzusunda beynəlxalq konfransın iştirakçılarına məktubunda bu məqamın üzərində də xüsusi dayanılır. Dövlətimizin başçısı vurğulayır ki, Fransa “dünyəvilik” adı altında sırf müsəlmanların hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönəlmiş qanunvericilik aktları və siyasi qərarlar qəbul edir. Ölkədə məscidlər, müsəlman mədəniyyət mərkəzləri və qəbiristanlıqlar müxtəlif formalarda təhqirlərə məruz qalır, müsəlman vətəndaşlar sıxışdırılır. Bu yerdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini G.İsmayılovun vurğuladığı bir faktın da üzərində dayanaq. O bildirib ki, əhalisinin təqribən 10 faizinin müsəlman olduğu Fransada 2500 məscid fəaliyyət göstərir. Həmin məscidlərin mütləq əksəriyyəti cəmi bir otaqdan ibarətdir.

Çox təəssüf ki, Fransa özünün islamofob siyasətini müxtəlif beynəlxalq tribunalara çıxarmağı bacarır. Əlbəttə, belə nanəcib yol tutan yalnız Fransa deyil. Nəticədə dövlətimizin başçısının da qeyd etdiyi kimi, özlərini demokratik adlandıran bəzi Qərb təsisatları anti-İslam fəaliyyətini həyata keçirirlər. Hazırda islamofobiyanı təşviq edən və bu ideologiya əsasında siyasət yürüdən iki qurum var ki, həmin qurumlardan biri Avropa Parlamenti, digəri Avropa Şurasının Parlament Assambleyasıdır. Hər iki təşkilat ermənipərəst kursunu bəşəri dəyərlərə qarşı qoymaqda, manipulyasiya yolu tutmaqdadır. AP Azərbaycanla bağlı qərəzli qətnamələri sıralamaqla məşğuldur, AŞPA isə ölkəmizin nümayəndə heyətinin qurumda iştirak hüququna qarşı çıxmaqla. Bu qurumlar Fransanın anti-Azərbaycan fəaliyyətinin mühüm alətləri qismində çıxış etməkdə, haqq və ədalət prinsiplərinə, beynəlxalq hüquqa saymazyana münasibət göstərməkdədirlər. Onların da başlıca tutacaq yeri məhz islamofobiyadır.

Azərbaycanın islamofobiya ilə üzləşməsindəki beynəlxalq təşkilatlar seqmenti özünü müstəqillik illərində göstərmiş tendensiyadır. Ancaq bu baxımdan Ermənistanın həyata keçirdiyi vandallıq əməlləri xüsusi vurğulanmalıdır. Prezident İlham Əliyev məktubunda Ermənistan tərəfindən torpaqlarımızın 30 illik işğalının ən ağır fəsadlarından biri olaraq, bəşəri əhəmiyyətə malik mədəni irsimizin, o cümlədən İslam dininə aid abidələrin qəsdən dağıdılmasını və məhvini göstərir. “İlkin araşdırmalara görə, işğal dövründə 65 məscidin yerlə-yeksan edildiyinə dair məlumatlar olsa da, təəssüf ki, bu rəqəmlər getdikcə daha da artır və İslam irsinə qarşı erməni vandalizminin çoxsaylı yeni nümunələri ortaya çıxır”, – deyən dövlətimizin başçısının diqqət yetirdiyi başqa vacib məqam da var. Məsələ burasındadır ki, Ermənistanın Azərbaycanın İslam dininə məxsus mədəni və tarixi mirasına vandallığı yalnız işğal amili ilə məhdudlaşmayıb. Ermənistan Respublikası ərazisində yerləşmiş abidələrimizin sistemli şəkildə məhvi həyata keçirilib. Eyni zamanda, UNESCO bununla bağlı ölkəmizin çağırışına cavab verməyib, mədəni və dini abidələrimizin vəziyyətinin qiymətləndirilməsinin aparılması məqsədilə Ermənistana texniki missiya göndərməyib. Cənab İlham Əliyev məktubunda bunu da təəssüfləndirici məqam kimi önə çəkib.

***

BMT Baş katibinin müavini, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosun “Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə” mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində bildirildiyi kimi, dünyada bütün dinlərin əsasında mərhəmət və qarşılıqlı hörmət dayanır. Bunun qorunması bəşəriyyətin borcudur. Cənab Moratinosun vurğuladığı xüsus toplantının qarşısına qoyduğu məqsəddən də görünür. Azərbaycan bu konfransla dünyanı yalnız islamofobiya ilə mübarizəyə səfərbər etmir, eyni zamanda, bunun üçün müqavimət, immunitet formalaşdırır. Ona görə də əvvəldə tədbirin hərəkat mahiyyəti daşıdığını vurğuladıq. Nəzərə alaq ki, bu hərəkat, həmçinin islamofobiyanın, kifayət qədər, sürətlə artan xroniki xəstəlik, şəxsi zəmində yaranan qərəz olduğunu üzə çıxarır. Azərbaycan isə həyata keçirdiyi təşəbbüslə, bəyan edir ki, islamofobiya dünyanı sülhdən uzaqlaşdıran məqsədə köklənməklə, bəşəri nizamı təhdid xarakterinə malikdir.

***

Sonda onu da vurğulayaq ki, dövlətimiz və cəmiyyətimiz islamofobiyaya qarşı qlobal strategiya ilə mübarizə aparır. Bu mübarizə dünyanın ən fundamental məsələlərindən biridir. Azərbaycan bəyan edir ki, multikulturalizmin sülh və əminamanlıq şəraitində yaşamağın yeganə yoludur. Ona görə də multikultural dəyərlər baxımından dünyada nümunəyik. Ölkəmizdə yaşayan insanlar dinindən, irqindən asılı olmayaraq, eyni hörməti görürlər ki, belə yanaşma Azərbaycana gələcəkdə də dinlərarası qardaşlıq mühitinin formalaşması istiqamətində çalışmaq üçün mənəvi haqq qazandırır. Heç şübhə yoxdur ki, ölkəmiz bu haqdan irəli gələn məsuliyyətini daha böyük təşəbbüskarlıq fəaliyyəti ilə zənginləşdirəcək və möhkəmləndirəcəkdir.

Əvəz CAHANGİROĞLU
XQ

İran səmasında turbulentlik, yoxsa avantürizm üçün aydın səma?

Tehrandan Fransa–Ermənistan–Hindistan üçlüyünə qarşı rasional davranış gözləntimiz

Mövzumuz Hindistandan Ermənistana hava yolunun açılması barədədir. Həmin yoldan nələrin, daha doğrusu, hansı silahların daşınacağının anonsu hələ təxminən beş-altı ay əvvəldən verilib. Hindistanın Ermənistana göndərdiyi silah-sursatların və raketlərin adları da məlumdur. Hazırda isə başlıca məsələ sözügedən yolun İran vasitəsilə reallaşmasıdır. Görünür ki, artıq məsələ daha böyük miqyaslı daşımaların həyata keçirilməsi ilə bağlıdır. Deməli, Qərb Cənubi Qafqazı qan çanağına döndərməkdə maraqlıdır. Ermənistan ona alət olmaqda israrlıdır. İrana gəldikdə, Tehranın “prosesin” reallaşmasına razılıq verdiyini ehtimal etmək olar.

*

Bəribaşdan bildirək ki, İranın belə bir razılığı, ilk növbədə, ölkənin özünün maraqlarına zidd təmayüldür. Fransanın Ermənistana verdiyi bilavasitə öz istehsalı olan qurğular da var. Ancaq Hindistandan gələn silah-sursat və hərbi texnika da Fransanındır. Yəni, ölkə ucuz işçi qüvvəsinə görə özünün hərbi infrastukturunun müəyyən hissəsini Hindistanda qurub. Məsələdən Tehranın xəbərdar olmaması isə sadəcə mümkünsüzdür.

İslam respublikasının rəsmiləri tez-tez bildirirlər ki, Cənubi Qafqaz regionunda kənar oyunçuların peyda olmasına imkan tanımayacaqlar. Aydındır ki, Fransa tam kənar oyunçudur. Özü də kollektiv Qərbi təmsil edir. O Qərbi ki, İrana qarşı nəinki zidd, hətta qatı düşmən münasibətindədir. O Qərb ki, indiki məqamda erməni avantürizminin davamında maraqlıdır. Pozuculuq niyyətinə hesablanmış bu marağın başlıca hədəflərindən birinin İran olduğunu görmək üçün hansısa fövqəladə düşüncəyə ehtiyac yoxdur. Hər şey gün kimi aydındır.

İranın Fransa-Ermənistan-Hindistan üçbucağından udacağı nə isə yoxdur. Hazırda, faktiki olaraq, ona təklif edilən “əməkdaşlıq” prioritetinin özünə qarşı çevrilməyəcəyinə dair təminat almaq üçün İslam respublikası heç bir real şanslara malik deyil. Tutaq ki, sözügedən üçlük Azərbaycanla mübarizədə üstünlük qazandı. Sabah kim deyə bilər bilər ki, həmin üçlüyün növbəti “dayanacaq yeri” İran olmayacaq. Bəlkə də Hindistan bilavasitə Tehrana qarşı çıxmaz. Ancaq dünyaya özünü göstərmək, itirdiyi nüfuzunu bərpa etmək üçün dəridən-qabıqdan çıxan Fransa İran kimi “alınmaz qalanı” ələ keçirmək naminə avantürizmə mütləq baş vuracaq.

Ermənistana isə ümumiyyətlə heç bir təminat yoxdur. Nikol Paşinyan administrasiyasının Qərbin bütün “sifarişlərini” yerinə yetirməyə çalışması, həmin xüsusda İrana qarşı da ərazi iddiası irəli sürməsi, cəbhə açması su içimi kimi bir şeydir. Başlıca məqamlardan biri də Avropa İttifaqının Cənubi Qafqazda nüfuz davasına girişməsidir. Fransa qurumun strateji maraq və mənafelərinə söykənir, onun ideyalarından qaynaqlanır. Aİ isə artıq Azərbaycan-Ermənistan, həm də İran-Ermənistan sərhədindədir. Rəsmi İrəvan təşkilatın mülki müşahidə missiyasını Qərbin regiondakı mövcudiyyət faktoru kimi reklam edir, ehkamlaşdırır. Ermənistan hakimiyyəti sözügedən missiyanın fəaliyyətini özünün Qərbə sadiqlik xətti kimi dəyərləndirib xaricdəki havadarlarının gözündə böyük dividend qazandığını düşünür. Bu düşüncə İranın “region region ölkələri üçündür” baxışına tamamilə zidd təmayüldür.

Bəli, İran belə şərtlər daxilində özünün hava məkanını Hindistan-Ermənistan daşımaları üçün açıq elan edirsə, ölkənin nəyə sərmayə yatırdığı anlaşılmazdır. Halbuki, onun qarşısında real əməkdaşlıq müstəvisi var. Söhbət “3+3” regional platformasından gedir. O platformadan ki, onun çərçivəsində bütün prioritetlər açıqdır, maraq və mənafelər aydındır.

Məsələyə başqa bir tərəfdən yanaşaq. Məlumdur ki, Qərbin Cənubi Qafqaz fəallığı Rusiyanı regiondan sıxışdırmaq məqsədinə hesablanıb. Ermənistan var gücü ilə çalışır ki, Moskvaya qarşı çıxsın. Belədə sual yaranır: Rusiyasız Cənubi Qafqaz formulu Tehrana nə dərəcədə sərfəlidir? Belə demək mümkünsə, Rusiyasızlıq mühitində İrana yer varmı? İllərdir sanksiyalarla üzləşən İslam respublikasının ayaqda qalma səbəb və vasitələrindən bir də Moskvadır. Yəni, hazırda elə şərait yaranıb ki, tarixən bir-birinə əks düşərgələrdə olmuş qüvvələrin - Rusiyanın və İranın eyni platformada təmsilçiliyi mütləqdir. Mövcud mütləqlik mühitində hansısa təminat varmı ki, Qərb dünyası Tehrana daha böyük üstünlüklər qazandıracaq? Əlbəttə ki, belə bir təminat yoxdur və ola da bilməz.

Ümumən, Ermənistan bölgədə pozuculuq niyyəti güdən tərəfdir. Pozuculuq niyyətində başlıca hədəf qonşulara qarşı ərazi iddiasıdır. Ölkənin ərazi iddiası trayektoriyasında Azərbaycanla yanaşı Türkiyə də yer alır, Gürcüstan da. Belə olan halda, İranın son zamanlar irəli sürdüyü sərhədlərin dəyişməzliyi konsepsiyası da zərər görür. Bu, bütövlükdə region düzəninin fərqli məcraya daşınmasıdır. Təbii ki, eyni zamanda, sülh, sabitlik və təhlükəsizlik baxımından qorxulu tendensiyadır. Tehran bu tendensiyanın şərtləri altında ayaqda qalmaq, özünü qorumaq barədəmi düşünür? Yenə də hansısa real təminat görünmür və görünə də bilməz.

44 günlük müharibə dönəminə diqqət yetirək. Həmin vaxt İranın say baxımından çoxluq xalqı sayılan türklər birmənalı şəkildə Azərbaycanın haqq davasını dəstəklədilər. Təsəvvür edək ki, Ermənistanın sayəsində Cənubi Qafqazda böyük hərbi-siyasi kataklizmalar yaşanır. O zaman rəsmi Tehran özünün daxili ictimai rəyi ilə bacara biləcəkmi? Əlbəttə ki, yox!

Hindistandan Ermənistana hava yolunun İran ərazisindən açılması və mövcud xüsusda üçüncünün zərər görəcəyi ilə bağlı digər məqamlardan da söz açmaq, müxtəlif əsaslandırmalar aparmaq mümkündür. Lakin onların hamısını indi vurğulamaq istəməzdik. Əslində, buna xüsusi ehtiyac da yoxdur. İndi yalnız ümid bəsləmək lazımdır. Ümid onadır ki, İslam respublikası reallıqları nəzərə alacaq, rasional davranacaq, Qərbin Cənubi Qafqazdakı imperialist niyyətlərinin gerçəkləşməsinə, mövcud xüsusda erməni avantürizminin ayaq açmasına meydan tanımayacaq, Hindistan–Ermənistan hava daşımalarına İran səmasında turbulentlik yaranacaq.

Ə.RÜSTƏMOV
XQ

İslamofobiyaya qarşı qlobal Bakı çağırışı

Bu etirazlar Qərbdəki "yeni səlibçilər"i düşündürməli və dayandırmalıdır

Bu gün dünyada, xüsusilə də Qərbdə geniş intişar tapmağa başlamış anti-İslami, anti-müsəlman təmayüllərin hansı neqativ nəticələrə aparıb çıxara biləcəyi ətrafında düşünməyə ehtiyac var. Çünki sirr deyil ki, bəzi ölkələrdə müsəlmanların dini hisslərini aşağılayan təzahürlərlə mübarizə aparmaq, Qurani-Kərimi təhqir edən sağçı-radikalları, təfriqətçiləri cinayət məsuliyyətinə cəlb etmək əvəzinə, anti-İslami radikal ab-havanı daha da gərginləşdirir, islamofobiyanı, az qala, siyasi təsir vasitəsinə çevirməyə çalışırlar.

Ayrı-ayrı dövlətlərlə yanaşı, "qoca qitə"nin bir çox təsisatları, mülki institutları da demokratiya və insan haqları ilə bir araya sığmayan dini ayrı-seçkilik fəaliyyəti ilə məşğuldurlar. Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası kimi qitənin nüfuzlu təşkilatları islamofobiyanın təşviq edildiyi, bu zərərli ideologiyadan qaynaqlanan siyasətin yürüdüldüyü özəl platformalara çevriliblər. Avropanı bürümüş bu cür zərəli və təhlükəli təmayüllərə özünün etiraz səsini qaldıranlardan birincisi Azərbaycan oldu. Martın 8–9-da Bakıda keçirilən "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq elmi konfransın məqsədi təhlükəli miqyas almağa başlamış bu zərərli təzahürün mümkün fəsadları barədə beynəlxalq ictimaiyyəti xəbərdar etmək, dünya müsəlmanlarının etiraz səsini aidiyyatı ölkələrin, təşkilatların diqqətinə çatdırmaq idi. Konfransın bölgədə və dünyada doğurduğu əks-səda onun öz məqsədinə çatmasından xəbər verir.

***

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, G20 Dinlərarası Dialoq Forumu və Bakı Təşəbbüs Qrupunun birgə təşkil etdiyi, dünyanın 30 ölkəsindən alimlərin, nüfuzlu beynəlxalq təşkilatların ekspertlərinin, din xadimlərinin, o cümlədən qeyri-hökumət təşkilatlarının nümayəndələrinin təşrif buyurduğu beynəlxalq elmi konfransda kifayət qədər sanballı və ciddi çıxışlar edildi, müzakirələr aparıldı. 130-dan çox xarici qonaq konfrans çərçivəsində keçirilən panel iclaslarda, aralıq sessiyalarda fəal şəkildə iştirak etdilər.

11 Sentyabr hadisəsi bəhanə oldu

Panel iclasdakı çıxışında Azərbaycanda qadınların, milli və dini azlıqların bərabərhüquqlu, təhlükəsizlik şəraitində yaşadığını bildirən Amerika Müsəlman və Digər Dinlərdən olan Qadınların İnkişafı Şurasının prezidenti Anila Ali, həmçinin Azərbaycanda islami

intellektuallığı gördüyünü dilə gətirdi:

"2001-ci il 11 Sentyabr hadisələrindən sonra müsəlmanlara qarşı ayrı-seçkilik daha kəskin xarakter alıb. Məhəmməd Peyğəmbər (s.ə.s.) öz ailəsindəki qadınların inklüziv olması üçün çalışırdı, onları səlahiyyətləndirirdi. İndi isə dünyanın bəzi ölkələrində müsəlman qadınların inkişafının qarşısı alınır".

***

"Beynəlxalq təşkilatlar və qurumlar islamofobiyanı pisləyən qərarlar qəbul etsə də, təəssüf ki, bu halın qarşısını almaq mümkün olmur". Bu sözləri konfrans çərçivəsində keçirilən "Qeyri-müsəlman ölkələrində İslam mədəni və dini irsinin qəsdən dağıdılması və təhqir edilməsi aktları" mövzusunda aralıq sessiyada çıxış edən **Rusiya Federasiyası Müsəlmanları Dini İdarəsi sədrinin birinci müavini, Moskva İslam İnstitutunun rektoru Damir Muxetdinov deyib.** O

qeyd edib ki, BMT-nin İnsan Hüquqları Şurası Qurani-Kərimin qəsdən təhqir olunmasını pisləyən qətnamə qəbul etsə də, Avropada müqəddəs kitabı yandıran şəxslər cəzalandırılmır: "Sözsüz ki, bu nümunələr ikili standartların ən bariz göstəricisidir. Çünki Qərb ölkələrinin liberal demokratiya prinsipləri üzərində qurulmuş qanunvericiliyi sözügedən aksiyalara mane olmağa imkan vermir".

Feminizm və müstəmləkəçilik Fransa siyasətinin özəyidir

Böyük Britaniyanın Montfort Universitetinin siyasət üzrə baş müəllimi Amina Easat Daas "Cinslərə görə isla-

mofobiyanın əsası: müsəlman qadınların təqib edilməsi və müqaviməti, cins və cəmiyyət" mövzusunda aralıq sessiyada çıxışında dedi ki, Fransa müstəmləkələrində müsəlman qadınlar çətinliklərlə qarşılaşır, zorakı təhdidlərə məruz qalırlar: "Məktəblərdə qadınların hicab örtməsi qadağan edilmişdi. Qadınlar niqab geyindiyi halda cəriməyə məruz qalırdılar. Sonradan müsəlman qadınların geyimi ilə bağlı qanunlar qəbul edildi. Bu, azadlıq deyildi, qadınlara başqaları tərəfindən nəyinsə diktə edilməsi idi. Ümumiyyətlə, feminizm və müstəmləkəçilik Fransanın dövlət siyasətinin əsasını təşkil edir".

***

"Avropa ölkələrində, xüsusilə Fransada islamofobiya təzahürləri getdikcə artmaqda davam edir. Bunun nəticələri isə uzunmüddətlidir". **Bu sözləri Misir baş müftisinin baş müşaviri və Dün-**

ya Fətva Orqanları üzrə Baş Katibliyin katibi İbrahim İbrahim Mahmud Neqm konfransın "Qeyri-müsəlman ölkələrində İslam mədəni və dini irsinin qəsdən dağıdılması və təhqir edilməsi aktları" mövzusunda aralıq sessiyasinda deyib. O bildirib ki, islamofobiya müsəlmanlar və İslam ilə bağlı konkret olaraq səhv və dezinformasiyanın nəticəsidir: "Saxta dindarlara İslamla bağlı fikirlər yaymasına imkan yaratmaq olmaz. İslamofobiya ilə mübarizədə monitorinq və müşahidə önəmlidir. İlk növbədə, bu cür hadisələrin monitorinqi aparılmalıdır. Güclü administrasiyamız, monitorinq mexanizmlərimiz olmalıdır ki, islamofobiya ilə bağlı bütün hadisələri izləyib təhlil edə bilək".

İslam bəşəri birliyi təşviq edən dindir

"İndoneziyada alimlər birliyi, elm adamları tərəfindən İslam dini ilə bağlı eyni fikirlər formalaşmaqdadır. Əlbəttə, burada alimlərin və cəmiyyətlərin üzərinə düşən vəzifələr var. Əvvəla, inkişaf etmək üçün tolerantlıq prinsinplərinə əsaslanmaq lazımdır. İslam vahidliyə çağırış edən bir dindir və bu da cəmiyyətləri, birlikləri dərindən başa düşməyə kömək edir". **Bu fikirləri İndoneziyanın "Nahdlatul Ulama" Cəmiyyəti İdarə Heyətinin üzvü Umniati İsmail** beynəlxalq konfrans

çərçivəsində keçirilən "Cinslərə görə islamofobiyanın əsası: müsəlman qadınların təqib edilməsi və müqaviməti, cins və cəmiyyət" mövzusuna həsr edilmiş aralıq sessiyada çıxışı zamanı deyib.

U.İsmail ölkəsində yaradılmış Qadın Dirçəliş Cəmiyyətinin həmcinslərinin səsinin eşidilməsinə xidmət etdiyini deyib. O bildirib ki, müsəlman qadınlar öz hüquqlarının qorunması üçün böyük səy göstərirlər. Qadınlar ədalətin bərpa olunmasına çalışırlar. Cəmiyyət tərəflər arasında fikir mübadiləsi aparır, ictimaiyyət də qadınların rolunun artırılmasına çalışır və bütün tərəflərin sülh şəraitində yaşamasını təmin edir".

***

Parisdəki Geostrateji Araşdırmalar üzrə Avropa Ərəb Akademiyasının direktoru Mohammed El Maazouz konfransın "Fransada müsəlmanlara qarşı siyasətlər: İslamofobiyanın normallaşdırılması" mövzusunda aralıq sessiyasında çıxışında son araşdırmalara görə, dünyada islamofob çıxışların əvvəlki illərlə

müqayisədə 31 faiz artdığını bildirib: "XIII əsrdən bəri islamofobiya dünyada kök salıb. İslamofobiya sanki dövlətin məqsədləri kimi əlaqələndirilir. Avropada İslamı sanki idarəolunan din kimi göstərirlər. Bu gün islamofobiya dövlət siyasətidir". Direktor haqlı olaraq "Tədqiqatçılar bu problemə niyə dərindən yanaşmırlar?", "İslamofobiya ilə bağlı fikirlər necə dinlənilir?" suallarına cavab tapılmadığını dedi.

Qərbin Şərqdən qorxu fobiyası

Beynəlxalq konfrans çərçivəsində keçirilən "Qeyri-müsəlman ölkələrində İslam mədəni və dini irsinin qəsdən dağıdılması və təhqir edilməsi aktları" mövzusunda aralıq sessiyada çıxış edən **Alikante Universitetinin fəxri professoru, Mənbələr Fondunun direktoru, professor Barbara Elena Bejarano** tarix boyu Qərb ölkələrində müsəlmanların xristianlarla eyni imtiyazlara sahib olmadığına diqqət çəkib: "İspaniyada XV əsrdə müsəlmanlara qarşı xüsusi bir nifrət formalaşdı. Həmin dövrdə İspaniya Kralı müsəlmanlara aid minarələrin yandırılması qərarını

verdi. Onlar müsəlmanları cəmiyyətdən çıxarmaq istəyirdilər. Hətta qohumları arasında müsəlman olanlar təhsil almaq, işləmək kimi imkandan məhrum edilirdilər. Bu halların əsas səbəbi isə Qərbin Şərqdə güclənən Osmanlı İmperiyasından qorxması idi. Onlar Qərbdə yaşayan müsəlmanların Osmanlıya bağlı olduğunu düşünürdülər. Nəticədə isə Avropada yaşayan müsəlmanlar sürgün olundu və ya qətl edildi".

***

Dekolonial Beynəlxalq Şəbəkə Fondunun katibi Sandev Hira beynəlxalq konfrans çərçivəsində keçirilən "Qeyri-müsəlman ölkələrində İslam mədəni və dini irsinin qəsdən dağıdılması və təhqir edilməsi aktları" mövzusunda aralıq sessiyadakı çıxışında irqçilik, islamofobiya siyasətindən istifadə edən ölkələrin gələcəyinin qaranlıq göründüyünü vurğulayıb: "Qərb ölkələrində dünyanı koloniya-müstəmləkə qismində idarəetmə sistemi formalaşıb. Onların müstəmləkəçilik tarixinə nəzər saldıqda islamofobiyanın yaranma tarixini görəcəyik. Məsələn,

İngiltərə Hindistanı işğal etdikdən sonra onlara xristianlığı məcburi şəkildə qəbul etdirməyə çalışdı. Onlar düşünürlər ki, insanlar dinlərinə, irqlərinə görə müəyyən siniflərə ayrılır. Avropa alimlərinin əsərlərində irqçilik açıq şəkildə görünür".

Paris islamofobiyanın bayraqdarıdır

Konfrans çərçivəsində baş tutan "Fransada anti-müsəlman siyasəti: İslamofobiyanın normallaşdırılması" adlı paneldə aparılan müzakirələr və edilən çıxışlar xüsusilə seçilib. Bu da təsadüfi deyildi. Axı Avropada müsəlmanlara qarşı aşkar ayrı-seçkilik, diskriminasiya siyasəti yürüdən birinci ölkə Fransadır. Bu mənada Yelisey sarayını dünyada islamofobiyanın "bayraqdarı" saymaq olar. Rəsmi Paris özünün tərgitməyə çətinlik çəkdiyi neokolonializm siyasəti ilə yanaşı, "Qoca qitə"nin digər ölkələrində də anti-İslami, anti-Azərbaycan kampaniyaları təşkil etməyə girişib. Son iki-üç ildə bu ölkənin parlamenti müsəlmanların hüquq və azadlıqlarını məhdudlaşdıran neçə-neçə qanun qəbul edib.

Bakıda keçirilən beynəlxalq elmi konfransda daha çox diqqət yetirilən mövzulardan biri bu gün dünyanın bir sıra ölkələrində İslamın potensial təhlükə mənbəyi kimi aşılanması, müsəlmanlara qarşı açıq nifrət ab-havasının geniş yayılması kimi zərərli tendensiya idi.

İslamofobiya ilə mübarizəyə həsr olunan beynəlxalq elmi konfransın Bakıda keçirilməsi ölkəmizin bu məsələyə ciddi yanaşmasının göstəricisi olmaqla bərabər, problemin qlobal səviyyəyə qaldırılmasında israrlı olmasının sübutudur.

Düşünürük ki, iki gün ərzində islamofobiyaya qarşı Bakıdan bütün dünyaya yayılan etiraz notları planetin aparıcı dövlətlərini, eləcə də beynəlxalq ictimaiyyəti ciddi narahat edəcək.

Hazırladı:
İ.HƏSƏNQALA
XQ

Sosial həyat

Qeyri-formal məşğulluqla mübarizə

Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclasında dövlət başçısının sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı" çərçivəsində 2023-cü il ərzində görülmüş işlər, əldə edilmiş nəticələr və qarşıda duran vəzifələr müzakirə edilib. Bu barədə XQ-yə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib.

Qeyd edilib ki, Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov 2023-cü il ərzində qeyri-formal məşğulluğun qarşısının alınması sahəsində görülmüş işlər və əldə edilmiş nailiyyətlər barədə ətraflı məlumat verib. Son illər dövlət tərəfindən həyata keçirilən sistemli və məqsədyönlü tədbirlərin vətəndaşların əmək hüquqlarının qorunması, işçilərin maddi, sosial tələbatlarının ödənilməsi və layiqli həyat səviyyələrinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olduğu bildirilib. Komissiyanın fəaliyyəti dövründə əmək müqaviləsi bildirişlərinin sayında 41,8 faiz, fiziki şəxs fərdi sahibkarların sayında 66,4 faiz, sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz əldə etmiş sabit vergi ödəyicilərinin sayında isə 7,5 dəfədən çox artımın qeydə alındığı vurğulanıb.

Mərasimdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, Qanunvericilik və idarəetmə üzrə işçi qrupunun rəhbəri Anar Əliyevin əmək münasibətlərinə və bu sahədə qeyri-formal məşğulluğun qarşısının alınması üçün hazırlanmış qanunvericilik layihələrinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini, Qeyri-formal məşğulluq nəticəsində yaranan gəlirlərin gizlədilməsinin səbəblərinin araşdırılması üzrə işçi qrupun rəhbəri İlkin Vəliyevin qeydiyyatsız əmək fəaliyyətinin qarşısının alınması sahəsində görülmüş tədbirlər və vergi nəzarəti tədbirlərinə dair məruzələri dinlənilib.

Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi aqrar sahədə qeyri-formal məşğulluğun əsas xüsusiyyətləri, qlobal statistik göstəricilər, mövsümi (müvəqqəti) məşğulluqla əlaqədar münasibətlərin tənzimlənməsi mexanizmləri ilə bağlı dünya təcrübəsi və aqrar sahədə çalışan mövsümi işçilər üzrə tənzimlənmənin təkmilləşdirilməsi üzrə təqdimat edib. "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın icrası ilə əlaqədar təqdim ediləcək hesabatın layihəsi müzakirə olunaraq qəbul edilib.

Sonda komissiyanın sədri tərəfindən qarşıda duran vəzifələrlə bağlı, o cümlədən ölkədə qeyri-formal məşğulluq sahəsində qanunvericilik aktlarının təkmilləşdirilməsinə, nəzarət tədbirlərinin gücləndirilməsinə, çevik mexanizmlər vasitəsilə işəgötürənlər və işçiləri əmək müqaviləsi bağlamağa stimullaşdıran tədbirlərin, həmçinin maarifləndirici tədbirlərin artırılmasına dair tapşırıqlar verilib.

Dünya Bankı ilə əməkdaşlıq

DOST Agentliyində Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Antonella Bassani ilə görüş keçirilib. Mərasimdə qurumun Cənubi Qafqaz üzrə regional direktoru Rolande Prays, ölkə meneceri Stefanie Stallmeister və başqa nümayəndələr iştirak edib.

A.Bassani və digər qonaqlar əvvəlcə DOST Agentliyinin 1 saylı DOST Mərkəzi ilə tanış olublar. Qonaqlara DOST Agentliyi və DOST Mərkəzləri barədə məlumat verilib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyasının əmək, məşğulluq, sosial müdafiə sahələrində 159 xidmətin vahid platformadan, "bir pəncərə"dən, şəffaf və operativ, vətəndaş məmnunluğuna uyğun təqdim olunmasına imkan yaratdığı vurğulanıb.

DOST mərkəzlərində ötən dövrdə 2,1 milyon nəfərə xidmət göstərildiyi, bu xidmət-

lərdən vətəndaş məmnunluğu səviyyəsinin 98,2 faiz olduğu qeyd edilib. DOST konsepsiyasının beynəlxalq səviyyədə də yüksək dəyərləndirildiyi, artıq 20-dən çox beynəlxalq mükafatla təltif edildiyi, bir sıra ölkələrin də bu təcrübənin tətbiqində maraqlı olduğu diqqətə çatdırılıb. Qonaqlar, həmçinin nazirlik və Dünya Bankının birgə icra etdiyi "Məşğulluğa Dəstək Layihəsi"nin bir qrup iştirakçısı ilə görüşüblər.

Görüşdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev ölkəmizdə əmək, məşğulluq və sosial müdafiə sahələrində aparılan islahatları və əldə olunan nailiyyətləri diqqətə çatdırıb. Həmin islahatlar prosesində Dünya Bankı ilə əməkdaşlığa xüsusi önəm verildiyi vurğulanıb. Birgə icra olunan "Məşğulluğa Dəstək Layihəsi"nin 22 min işsiz şəxsin kiçik biznesə çıxışına dəstək məqsədi daşıdığı, artıq 14 min işsiz şəxsin bu layihənin dəstəyi ilə kiçik biznesini qurduğu qeyd edilib. Habelə əmək qanunvericiliyinin, əlilliyin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi, övladlığagötürmə sahəsində potensialın gücləndirilməsi və s. istiqamətlərdə birgə layihələrin əhəmiyyətindən bəhs olunub. Həssas qrupların əmək bazarına çıxışının dəstəklənməsi üçün icra olunan aktiv məşğulluq proqramları barədə məlumat verilib.

A.Bassani nazirliyin Dünya Bankı ilə fəal əməkdaşlığından məmnun olduğunu, ölkəmizdə aparılan sosial islahatlarla bağlı müsbət fikirlərini diqqətə çatdırıb. Sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Dünya Bankının mövcud əməkdaşlıq gündəliyi və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

Z.HÜSEYN
XQ

Azərbaycan–Qazaxıstan iqtisadi əlaqələri yeni mərhələdə

Dünən Bakıda Qazaxıstan–Azərbaycan İşgüzar Şurasının ikinci iclası keçirilib. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin icraçı direktoru (AZPROMO) Yusif Abdullayev iclasda çıxışı zamanı rəhbərlik etdiyi qurumun işgüzar şuranın fəaliyyətinin daha da genişləndirilməsində maraqlı olduğunu bildirib. Son 14-15 il ərzində Azərbaycan–Qazaxıstan Ticari-İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 20-dən çox biznes forumunun keçirildiyini diqqətə çatdıran AZPROMO rəhbəri deyib ki, işgüzar şuranın platformasını təkmilləşdirmək üçün təşkilati işləri gücləndirmək lazımdır. "Üstəlik, şuranı qanuni qeydiyyatdan keçirmək də vacibdir. Bundan başqa, yeni şirkətlər şuraya qoşulmağa dəvət etməli, daha çox müəssisə cəlb etməliyik", – deyə o əlavə edib. Onun sözlərinə görə, Azərbaycan iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsi üçün platformanın istənilən imkanlarını müzakirə və istifadə etməyə hazırdır.

Azərbaycan–Qazaxıstan İşgüzar Şurasının üçüncü iclasının dövlət başçılarının iştirakı ilə keçiriləcəyini bildirən AZPROMO rəhbəri qeyd edib ki, ikitərəfli əməkdaşlığı artırmaq üçün böyük potensial mövcuddur və hər iki ölkənin kiçik, orta və böyük şirkətlərini qarşılıqlı fəaliyyətə dəvət etmək lazımdır.

Qazaxıstanın nəqliyyat nazirinin müavini Satcan Ablaliyev çıxış edərək qeyd edib ki, Orta Dəhlizlə yük daşımalarının həcminin artırılması planlaşdırılır. Qazaxıstan və Azərbaycan arasında yük daşımalarının 1,5 dəfə artaraq 4,3 milyon tona çatdığını diqqətə çatdıran nazir müavini son zamanlar Orta Dəhlizdə də bu sahədə canlanma müşahidə olunduğunu deyib. Ötən il sözügedən marşrutla yük daşımalarının 65 faiz çoxaldığını bildirən S.Ablaliyevin sözlərinə görə, 2024-cü ildə bu rəqəm 4,2 milyon tona çatdırılacaq. "Bir sıra şirkətlər dəmir yolu daşımalarına endirimlər edir ki, bunun sayəsində də yük daşımalarının həcmi artır. Həmçinin Çin konteynerləri ilə daşımalarda 3 dəfə artım müşahidə olunur", – deyə o bildirib.

Xəzər dənizinin dibi ilə fiber optik rabitə xəttinin çəkilməsindən bəhs edən nəqliyyat nazirinin müavini deyib ki, bu layihə ilə təkcə region ölkələri deyil, regiondan kənardakı ölkələr də maraqlandığından Qazaxıstan əlavə xətlərin çəkilməsini müzakirə etməyə hazırdır.

İşgüzar şuranın iclasında çıxış edən Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov martın 5-də Astanada baş tutan birgə hökumətlərarası komissiyanın növbəti iclasının səmərəli keçdiyini xatırladaraq tədbirdə Qazaxıstan–Azərbaycan İnvestisiya Fondunun yaradılmasını, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə yük axınlarının artırılması, yüngül kimya və maşınqayırma, eləcə də digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üzrə bir çox razılaşmaların əldə edildiyini diqqətə çatdırıb. Orta Dəhlizin potensialının təkcə regiondakı investorları deyil, həm də regiondan uzaqda digər investorları da cəlb etdiyini vurğulayan səfir işgüzar şuranın iclasının faydalı olacağına ümid etdiyini bildirib.

İkitərəfli münasibətlərin bütün sahələrdə inkişaf etdiyini vurğulayan səfirin sözlərinə görə, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana növbəti səfəri iki ölkə arasında münasibətləri möhkəmləndirəcək, əməkdaşlıq üçün yeni üfüqlər açacaq. Azərbaycan və Qazaxıstanın müttəfiq və strateji tərəfdaş olduğunu xatırladan diplomat, həmçinin qarşılıqlı səfərlərin münasibətlərə güclü təkan verdiyini bildirib.

Yeri gəlmişkən, Qazaxıstan–Azərbaycan İşgüzar Şurasının ikinci iclası çərçivəsində Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Qazaxıstanın "Atameken" Sahibkarlar Milli Palatası arasında Anlaşma Memorandumu imzalanıb.

Qeyd edək ki, 1999-cu ildə Azərbaycan və Qazaxıstan arasında yaradılmış Ticari-İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verir. Ötən müddətdə komissiyanın 20 iclası keçirilib. 2024-cü il martın 5-də Astanada baş tutan son iclasda qardaşlıq və dostluğa əsaslanan yüksək səviyyəli Azərbaycan–Qazaxıstan münasibətlərinin yeni tarixi mərhələdə inkişafını təmin edən çoxşaxəli əməkdaşlıq gündəliyi, hədəflər, ticari-iqtisadi, enerji, nəqliyyat, logistika, sənaye, tikinti, kənd təsərrüfatı, səhiyyə, qida təhlükəsizliyi, kosmik fəaliyyət, rəqəmsallaşma, informasiya texnologiyaları, elm və təhsil, mədəniyyət, gənclər siyasəti, turizm, idman, ekologiya və ətraf mühit sahələrində görülən işlər və perspektivlər nəzərdən keçirilib.

Qeyd olunub ki, 2023-cü ildə ölkələrimiz arasında yükdaşımaların həcmi 1,5 dəfə artaraq 4,3 milyon ton təşkil edib. Ötən il Orta Dəhliz üzrə daşımalar isə 65 faiz artaraq 2,8 milyon tona çatıb. Bununla yanaşı, 2023-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 598,47 milyon dollar təşkil edib. Müstəqilliyin ilk illərindən etibarən Azərbaycan Qazaxıstana 211,4 milyon dollar, Qazaxıstan isə ölkəmizin iqtisadiyyatına 114 milyon dollar investisiya yatırıb.

Bundan başqa, neft-qaz sektorunda əməkdaşlığın genişləndirilməsi, birgə layihələrdə iştirak imkanları, müxtəlif marşrutlarla Qazaxıstan neftinin tranzit həcmlərinin, Orta Dəhliz vasitəsilə yüklərin daşınmasının artırılması məsələlərinə baxılıb. Rəqəmsal İpək Yolu layihəsi çərçivəsində Azərbaycan və Qazaxıstanı birləşdirən Xəzər sualtı optik xəttin tikintisinin yekunlaşdırılması, "Mərkəzi–Asiya–Avropa" marşrutu üzrə elektrik enerjisinin ötürülməsi layihəsinin texniki-iqtisadi əsaslandırılması prosesinə başlamaq üçün texniki tapşırıq sənədinin tezliklə hazırlanması, sadalanan bütün istiqamətlər üzrə müvafiq addımların atılması razılaşdırılıb. Hər iki ölkənin yaşıl enerjiyə keçid sahəsində ciddi səylər göstərdiyi vurğulanaraq bərpaolunan enerji və enerji səmərəliliyi kimi sahələrdə Qazaxıstan şirkətləri ilə əməkdaşlıq niyyətləri ifadə olunub.

Son illər iki ölkə neft və neft məhsullarının ticarəti sahəsində də uğurla əməkdaşlıq edir. Qazaxıstan neftin Bakı–Tbilisi–Ceyhan boru kəməri ilə dünya bazarına çatdırılması, bu ölkəyə məxsus xam neftin Azərbaycanda emalı bu baxımdan diqqət çəkir. Məlum olduğu kimi, "SOCAR Midstream Operations" MMC 2023-cü ilin martından etibarən Qazaxıstanın Tengiz yatağından ayda 125 min ton həcmində neftin Bakı–Tbilisi–Ceyhan boru kəməri ilə nəqlinə başlayıb. Qazaxıstan neftinin Aktau limanından "Prezident Heydər Əliyev" tankerinə ilk yüklənməsi ötən il martın 21-də, "Şuşa" tankerinə ikinci yüklənməsi isə martın 28-də həyata keçirilib.

Mirbağır YAQUBZADƏ
XQ

Avropa İnvestisiya Bankı ölkəmizə 10 milyon avro kredit ayırıb

Bu barədə Avropa İnvestisiya Bankı (EİB) açıqlama yayıb. Bankın məlumatına görə, kredit xətti Qafqaz ölkələrində kiçik və orta sahibkarlıq subyektləri ilə əməkdaşlıq təşəbbüsü çərçivəsində ayrılıb.

Qeyd edilib ki, layihə kiçik maliyyə vasitəçilərinə hazırda maliyyəyə çıxışda çətinlik çəkən mikro, kiçik və orta müəssisələrə bu resursu təmin edəcək. EİB bundan əvvəl isə Gürcüstanda kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi 10 milyon avro həcmində kredit xətti ayırıb.

Yeri gəlmişkən, Avropa İnvestisiya Bankının Azərbaycan üzrə portfeli 2013-cü ildən sonra 5 layihə üzrə 110 milyon avroya çatıb.

XQ

Fermerlərə 74 milyon manat güzəştli dəstək

Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata əsasən, Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən ötən il 4 min müraciət üzrə 74 milyon manat güzəştli kredit və lizinq vəsaiti ayrılıb. Bu kreditlərin verilməsi nəticəsində isə 355 daimi və müvəqqəti iş yeri açılıb.

Hesabat ilində 61 rayon (şəhər) üzrə fermerlərə becərdikləri əkin sahələrinə və çoxillik əkmələrə görə dövlət büdcəsi vəsaiti hesabına, ümumilikdə, 262 milyon 492 min manat, o cümlədən 357 min fermerə 1 milyon 195 min hektar əsas əkinlərə görə 257 milyon manat və 12 min fermerə 55 min hektar təkrar əkinlərə görə 5 milyon 487 min manat subsidiya ödənilib.

"Aqroservis" ASC isə 2023-cü ildə 15 milyon manat dəyərində kənd təsərrüfatı texnikası satıb. Bundan başqa, ötən il "Aqroservis" 78 müraciət üzrə 3 min baş damazlıq heyvanın güzəştli şərtlərlə alışı üçün 7,4 milyon manat vəsait ayırıb.

Hesabat dövründə "Aqroservis" kənd təsərrüfatı məhsulları istehsalçılarına dəyəri 22 milyon manat olan 38 min ton müxtəlif təyinatlı mineral gübrə, o cümlədən 5 min ton ammonium nitrat, 430 ton ammofos, 4 min ton nitroammofoska, 29 min ton karbamid, 150 ton ammonium sulfat, 50 ton kalium sulfat gübrəsi və dəyəri 200 min manat olan 10 min litr pestisid satıb.

XQ

SOCAR–"KazMunayGaz" əməkdaşlığı

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Qazaxıstanın "KazMunayGaz" Milli Şirkəti qarşılıqlı əməkdaşlıq münasibətlərinin genişləndirilməsi imkanlarını nəzərdən keçiriblər.

SOCAR-ın verdiyi məlumata görə, şirkətin prezidenti Rövşən Nəcəf ilə "KazMunayGaz"ın İdarə Heyətinin sədri Maqzum Mirzaqaliyev arasında reallaşan görüşdə Azərbaycan–Qazaxıstan əlaqələrinin bütün sahələrində, eləcə də enerji sektorunda uğurlu inkişaf nəzərə çarpdığı bildirilib. Eyni zamanda SOCAR ilə "KazMunayGaz" arasında ötən il imzalanan yol xəritəsinin əlaqələrin genişləndirilməsi üçün geniş imkanlar yaratdığı diqqətə çatdırılıb.

Tərəflər neftin emalı, tranziti, ticarəti sahələrinə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıb.

XQ

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı 2015-ci ildə Bakı Limanının bazasında qurulub. Yük, neft və bərə terminallarından ibarət infrastrukturun nizamnamə kapitalı 16 min manat olub. 2018-ci il mayın 14-dən etibarən Prezident İlham Əliyevin iştirakı ilə açılışı reallaşan yeni Bakı Limanının 1-ci fazada yükaşırma potensialı 15 milyon tona, o cümlədən 100 min TEU konteynerə çatdırılıb. İkinci fazanın yekunlaşdırılmasından sonra isə limandan ildə 25 milyon tona qədər yükün aşırılacağı, 500 min TEU konteynerin keçə biləcəyi planlaşdırılıb.

Prezident İlham Əliyev müsahibələrinin birində Azərbaycanın son 10 il ərzində Xəzər dənizində ən böyük ticarət limanlarından birinin inşa etdiyini bildirib. Dövlətimizin başçısı daha sonra hazırda ölkəmizin regionun əsas nəqliyyat və logistika mərkəzlərindən birinə çevrildiyini, bütün yol infrastrukturu kimi, Bakı Limanının da imkanlarının genişləndirilməsi zərurətinin yarandığını diqqətə çatdırıb.

ən böyük dəniz qapısı, logistika mərkəzi olan Bakı Limanına yüklərin cəlbini çoxaldır.

Hesabat ilində "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC tərəfindən Bakı Limanının 2-ci fazasının genişləndirilməsi çərçivəsində müvafiq məlumatlar toplanıb, texniki-iqtisadi əsaslandırma, ümumi planlaşdırma, layihə və tender sənədləri hazırlanıb. Ətraf mühitə təsirin qiymətləndirilməsi işlərinə isə başlanılıb.

Bakı Limanı – Xəzərin dünyaya ən böyük qapısı

Bu logistik mərkəzin illik yükaşırma gücü 25 milyon tona çatdırılacaq

Yaxın illərdə infrastrukturun mövcud yükaşırma qabiliyyətinin iki dəfəyə yaxın artırılması nəzərdə tutulur. Hazırda limanın tikintisinin 2-ci mərhələsinin layihələndirilməsi həyata keçirilir. Bu işlərin isə tezliklə yekunlaşdırılacağı gözlənilir. Layihə hazırlandıqdan sonra modelin təqdim olunacağı və limanın inkişafının buna uyğun şəkildə gerçəkləşdiriləcəyi bildirilir.

Bakı Limanında son illər həyata keçirilən layihələr nəticəsində infrastrukturun yükaşırma imkanları getdikcə genişlənib. Məsələn, sözügedən limandan keçməklə Asiyadan İsveçrəyə daşınan yüklərin həcmi 4 dəfə artıb. Bu fikir konkret faktlarla ifadə edilsə, demək olar ki, 2023-cü ildə Bakı Limanından keçməklə Asiyadan İsveçrəyə 551 min 740 tondan çox yük daşınıb ki, bu da 2022-ci illə müqayisədə 3,8 dəfə çoxdur. Yaxud bu ilin yanvar ayında Aktau limanından Qazaxıstan neftinin ixracı illik müqayisədə 36 faiz artaraq 287 min tona, o cümlədən Bakı Limanına nəqli 2 dəfə artaraq 116 min tona çatıb.

Ümumiyyətlə, Bakı Limanında ötən il ərzində 7,4 milyon ton yük aşırılıb. Bu, 2022-ci illə müqayisədə, təxminən, 16 faiz çoxdur. Ümumi yükaşırmanın 5,3 milyon tonu və yaxud 72 faizi tranzit yüklərin payına düşüb.

Hesabat ilində vaqon aşırılması 3,5 faiz azalaraq 37,3 min ədəd olub. Vaqonların 18,6 mini və yaxud 49,7 faizi Bakı–Türkmənbaşı–Bakı, 18,7 mini və yaxud 50,3 faizi isə Bakı–Kurık–Aktau–Bakı istiqamətində hərəkət edib.

Bununla yanaşı, 2023-cü ildə iri həcmli nəqliyyat vasitələrinin (TIR) sayı əvvəlki ilə nisbətən 5,3 faiz artaraq 54,2 min ədəd olub. Bu nəqliyyat vasitələrinin 25,8 mini (47,6 faizi) Bakı–Türkmənbaşı–Bakı, 28,4 mini (52,4 faizi) isə Bakı Kurık–Bakı istiqamətində daşınıb. Hesabat dövründə konteynerlərin aşırılması TEU ekvivalentində 16 faiz azalaraq 43,9 min olub.

2023-cü ildə QSC-nin gəlirləri 2022-ci ilə nisbətən 5 faiz artaraq 50,3 milyon manat (ƏDV- xaric), xərcləri isə 40,2 milyon manat təşkil edib. Hesabat ilində dövlət büdcəsinə 8,4 milyon manat vergi və 5,4 milyon manat sosial təyinatlı ödənişlər olmaqla, ümumilikdə, 13,8 milyon manat vəsait köçürülüb.

Dübəndi Neft Terminalında da bu istiqamətdə yüksək göstəricilər əldə edilib. Terminalda ötən il ərzində xam neft və neft məhsullarının aşırılması 2022-ci illə müqayisədə 2,1 dəfə artaraq 2,1 milyon ton olub.

Xatırladaq ki, 2018-ci il mayın 14-də Prezident İlham Əliyevin iştirakı ilə açılışı olmuş Bakı Limanının 1-ci fazada yükaşırma potensialı 15 milyon ton, o cümlədən 100 min TEU konteynerdir. "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat qovşaqlarının kəsişməsində yerləşən, yüksək texniki imkanlara malik, əməliyyatlar sahəsində nümunəvi rəqəmsal və "yaşıl həllər" tətbiq olunduğu limanın yükaşırma həcmi hər il artır. Eyni zamanda dünyada formalaşan yeni reallıqlar fonunda tranzit dövlət kimi Azərbaycana getdikcə böyük tələb formalaşır və bu amil də ölkəmizin

Son illər Bakı Limanına daxil olan Azərbaycan Respublikasının Dövlət bayrağı və xarici bayraq altında üzən gəmilərin sayının və onların giriş-çıxış intensivliyinin artması nəzərə alınaraq, sözügedən infrastrukturun, həmçinin Dübəndi Neft Terminalına maneəsiz giriş-çıxışının təmin edilməsi və dibdərinləşdirmə işlərinin həyata keçirilməsi məqsədilə 2023-cü il iyunun 1-də "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Bakı Gəmiqayırma Zavodu" MMC və Niderlandın "Damen Shipyards Gorinchem B.V." şirkəti arasında üçtərəfli əməkdaşlığa dair saziş imzalanıb.

Sənədə əsasən, Bakı Gəmiqayırma Zavodunda adı çəkilən şirkətlə birgə Azərbaycanda ilk dəfə dibdərinləşdirən gəmi istehsal olunacaq və bu qurğu Bakı Limanının akvatoriyasında dərinliyin qorunub saxlanması üçün həm giriş kanalı, həm də limanın körpüləri də daxil olmaqla digər hissələrində mütəmadi dibdərinləşdirmə işlərinin aparılmasına xidmət edəcək.

Prezident İlham Əliyevin 2023-cü il noyabrın 23-də təsdiq etdiyi "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün Fəaliyyət Planı"na əsasən, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində bir sıra yenidənqurma işləri aparılacaq. Belə ki, qarşıdakı 3 il ərzində liman ərazisindəki çeşidləmə məntəqəsində əlavə 4 dəmiryolu xətti və konteyner terminalı tikiləcək ki, bu da yüklərin çeşidlənməsində operativliyin təmin edilməsinə imkan yaradacaq.

Bundan əlavə, həmin sənədə əsasən, Bakı və Hövsan limanlarında dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarəti, eləcə də digər rəsmiləşdirmənin səmərəli qaydada aparılmasını təmin edən infrastruktur yaradılacaq, Bakı Limanında yük terminalının konteyner üzrə yükaşırma qabiliyyətinin artırılması üçün infrastruktur genişləndiriləcək və zəruri avadanlıqlar alınacaq.

Eyni zamanda idxal və ixrac rejimli yüklər üzrə geniş funksiyalı əməliyyat imkanlarının yaranması nəticəsində isə Şərq−Qərb istiqamətində yükdaşımalarda konteyner yüklərinin payı artırılacaq. Bütün bunlarla bərabər, Bakı Beynəlxalq Dəniz Ticarət Limanında idxal və ixrac gömrük rejimi prosedurları tətbiq ediləcək.

Regional qovşaq konsepsiyasına uyğun olaraq yük avtomobil nəqliyyatı vasitələrinin də bir mərkəzdə cəmləşməsi gerçəkləşdiriləcək. Sənədə əsasən, Bakı Limanında və Dübəndi Terminalında dibdərinləşdirmə işləri həyata keçiriləcək. Bu da limanın və terminalın akvatoriyasına yükgötürmə qabiliyyəti və suya oturumu daha yüksək olan gəmilərin girişinə imkan yaradacaq. Fəaliyyət planında nəzərdə tutulan işlərin əsas iştirakçısı kimi Bakı Limanı çıxış edəcək.

Vaqif BAYRAMOV
XQ

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 126 **Bakı şəhəri, 7 mart 2024-cü il**

"Azərbaycan Respublikası Prezidentinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 aprel tarixli 48 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli, "Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 622-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2013-cü il 16 may tarixli 898 nömrəli, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2013-cü il 8 iyul tarixli 938 nömrəli, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1143-IVQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2014-cü il 29 dekabr tarixli 435 nömrəli və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 144-VIQD nömrəli Qanununun tətbiqi və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2020-ci il 10 avqust tarixli 1122 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2384 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 aprel tarixli 48 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli, "Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 622-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2013-cü il 16 may tarixli 898 nömrəli, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2013-cü il 8 iyul tarixli 938 nömrəli, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1143-IVQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2014-cü il 29 dekabr tarixli 435 nömrəli və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 144-VIQD nömrəli Qanununun tətbiqi və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2020-ci il 10 avqust tarixli 1122 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2384 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"nın, habelə hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestrinin aparılması ilə bağlı sənədlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 384 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 yanvar tarixli 44 nömrəli Qərarı) 1-1-ci hissəsi ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 avqust tarixli 317 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1454 (Cild I) ilə təsdiq edilmiş "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

3. "Cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 aprel tarixli 120 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 423 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 127 **Bakı şəhəri, 7 mart 2024-cü il**

"Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2017-ci il 19 aprel tarixli 1340 nömrəli, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 866-VQD nömrəli Qanununun tətbiqi və "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli 299 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2017-ci il 11 dekabr tarixli 1719 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1172-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 151 nömrəli və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 269-VIQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2021-ci il 12 aprel tarixli 1311 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2382 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər. Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2017-ci il 19 aprel tarixli 1340 nömrəli, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 866-VQD nömrəli Qanununun tətbiqi və "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli 299 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2017-ci il 11 dekabr tarixli 1719 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1172-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 151 nömrəli və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 269-VIQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2021-ci il 12 aprel tarixli 1311 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2382 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasında avtomagistraldan ödənişli yol kimi istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 mart tarixli 76 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2019, № 3, maddə 510 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

2. "Azərbaycan Respublikasında avtomagistraldan ödənişli əsaslarla istifadənin dayandırılması və belə istifadəyə xitam verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 mart tarixli 77 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2019, № 3, maddə 511 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 129 **Bakı şəhəri, 7 mart 2024-cü il**

"Azərbaycan Respublikası Prezidentinin "Yerin təkindən istifadə olunmasının, onun mühafizəsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi tədbirləri haqqında" 2018-ci il 16 iyul tarixli 205 nömrəli, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 1 noyabr tarixli 323 nömrəli, "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 16 yanvar tarixli 476 nömrəli, "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1426-VQD nömrəli Qanununun tətbiqi və "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 16 yanvar tarixli 477 nömrəli, "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının 2020-ci il 20 oktyabr tarixli 189-VIQ nömrəli Qanununun tətbiqi barədə" 2020-ci il 8 dekabr tarixli 1208 nömrəli və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 536-VIQD nömrəli Qanununun tətbiqi və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 8 iyun tarixli 1711 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2383 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər..Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Yerin təkindən istifadə olunmasının, onun mühafizəsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi tədbirləri haqqında" 2018-ci il 16 iyul tarixli 205 nömrəli, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 1 noyabr tarixli 323 nömrəli, "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 16 yanvar tarixli 476 nömrəli, "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1426-VQD nömrəli Qanununun tətbiqi və "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 16 yanvar tarixli 477 nömrəli, "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının 2020-ci il 20 oktyabr tarixli 189-VIQ nömrəli Qanununun tətbiqi barədə" 2020-ci il 8 dekabr tarixli 1208 nömrəli və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 536-VIQD nömrəli Qanununun tətbiqi və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 8 iyun tarixli 1711 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2383 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin strukturunun, işçilərinin say həddinin, onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi və əməyin ödənişi fondunun müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 aprel tarixli 175 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 768 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 yanvar tarixli 40 nömrəli Qərarı) 4-cü hissəsi ləğv edilsin.

2. "Yerin təkinin (qiymətli və əlvan (o cümlədən nəcib) metallar, qiymətli daş yataqları və təzahürləri istisna olmaqla) istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi hallarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 may tarixli 216 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 950 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

3. "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 iyul tarixli 335 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1357 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 yanvar tarixli 41 nömrəli və 8 fevral tarixli 77 nömrəli qərarları) 5-ci hissəsi ləğv edilsin.

4. "Azərbaycan Respublikasında yayılmış faydalı qazıntı yataqlarının qanunsuz işlənməsi nəticəsində dəymiş ziyana görə normativlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 mart tarixli 119 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 380 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

5. "Əlvan və qara metal tullantılarının qəbulu, uçotu, radiasiya və partlayış təhlükəsizliyi baxımından müayinədən keçirilməsi Qaydaları"nın və "Əlvan və qara metal tullantılarının əldə edilmə mənbəyinə dair Tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 fevral tarixli 39 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 204 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 fevral tarixli 86 nömrəli Qərarı) 3-cü hissəsi ləğv edilsin.

6. "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində "Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 288 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 977 (Cild I) 7-ci hissəsi ləğv edilsin.

7. "Donor orqanların transplantasiyası metodu ilə müalicə zərurətinin təcililik statusuna dair Meyarlar"ın və "Resipiyentin sağlamlığı üçün təhlükə törədən xəstəliklərin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 342 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2022, № 9, maddə 1076 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

8. "Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması və transplantasiyası Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 343 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2022, № 9, maddə 1077 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

9. "Donorlar, resipiyentlər və donor orqanların vahid dövlət informasiya bazasının Əsasnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 344 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2022, № 9, maddə 1078 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

10. "Transplantasiya məqsədilə donor orqanların idxalı və ixracı Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 345 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1079 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

11. "Dövlət ekoloji ekspertizasının maliyyələşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 yanvar tarixli 3 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 124 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

12. "İnklüziv təhsilin təşkili Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 fevral tarixli 43 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 306 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 128 **Bakı şəhəri, 7 mart 2024-cü il**

"Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 8 aprel tarixli 1658 nömrəli, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 546-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 13 iyun tarixli 723 nömrəli və "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 16 iyul tarixli 204 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 25 iyul tarixli 1761 nömrəli və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 756-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli, "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" 2018-ci il 25 dekabr tarixli 434 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2023-cü il 3 fevral tarixli 2020 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2391 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 8 aprel tarixli 1658 nömrəli, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 546-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 13 iyun tarixli 723 nömrəli və "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 16 iyul tarixli 204 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 25 iyul tarixli 1761 nömrəli və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 756-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli, "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" 2018-ci il 25 dekabr tarixli 434 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2023-cü il 3 fevral tarixli 2020 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2391 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinqin keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 214 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 874 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

2. "Qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 215 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 875 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

3. "Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 216 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 876 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

4. "İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 217 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 877 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

5. "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 297 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1280 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 18 yanvar tarixli 28 nömrəli Qərarı) 3-cü hissəsi ləğv edilsin.

6. "İstilik enerjisindən istifadə qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 sentyabr tarixli 303 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1324 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Ölkəmizin bir qarış torpağı da ermənilərdə qalmayacaq

Xalqımız Qarabağda olduğu kimi, 8 kəndin azad edilməsində də israrlıdır

Ermənistan parlamentinin sədri Alen Simonyan son vaxtlar qanunvericilik işləri ilə məşğul olmaqdansa, siyasi açıqlamalar səsləndirməyi daha üstün tutur. Simonyan gah Rusiya sərhədçilərinin İrəvandakı "Zvartnots" hava limanından çıxarılmasının vacibliyindən, gah da Azərbaycanla delimitasiya prosesindən dəm vurur. Halbuki, bunlar qeyd etdiyimiz kimi, onun bilavasitə məşğul olacağı işlər deyil.

Parlament sədrinin, guya, Ermənistanın 31 kəndini (?) Azərbaycanın "işğal etdiyini" bildirməsi də növbəti cəfəngiyyat nümunəsidir. Simonyanın açıqlaması Ermənistanda bu istiqamətdə müzakirələrin qızışmasına yol açıb. O, açıqlaması ilə sanki, hakim komandanın digər üzvlərinə dəstəvuz verib. Hazırda Ermənistan hakimiyyətinin rəsmi mövqeyi belədir ki, Azərbaycan 1990-cı illərdə və 2021–2022-ci illərdə aparılan "hərbi əməliyyatlar nəticəsində" Ermənistanın 225 kvadratkilometr ərazisinə nəzarət edir.

Ermənistandan bu istiqamətdə son vaxtlar verilən açıqlamaların sayının artması ölkəmizi onları cavablandırmağa məcbur edib. Baş nazirin müavini Şahin Mustafayevin xidmətindən "XQ"yə daxil olan məlumata görə, dövlət sərhədinin delimitasiyası üzrə Azərbaycanda və Ermənistanda yaradılmış komissiyaların artıq 7 görüşü keçirilib. Qeyd olunub ki, hazırkı mərhələdə komissiyaların fəaliyyəti çərçivəsində delimitasiya işlərinin aparılması üçün zəruri normativ-hüquqi bazanın yaradılması üzrə işlər aparılır: "Son vaxtlar Ermənistan mediasında, guya, Ermənistanın 31 kəndinə məxsus torpaqların Azərbaycanın "işğalı altında" olması barədə hökumət mənbələrindən qaynaqlanan yanlış informasiya fəal şəkildə yayılır. Həmçinin qeyd olunur ki, bunu etiraf etməyən Azərbaycan Respublikası özünün işğal altındakı 4 kəndinin azad olunmasını tələb edir. Azərbaycan tərəfi bununla bağlı qeyd etməyi vacib bilir ki, dövlət sərhədinin delimitasiyasının aparılmasına qədər Ermənistanın 31 kəndinə məxsus torpaqların "işğal edildiyini" bəyan etməsi tamamilə əsassızdır".

Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş eksklav olmayan 4 kəndinə (Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı) gəldikdə isə bildirilib ki, onlar mübahisəsiz Azərbaycana məxsusdur və dərhal azad edilməlidir. Qeyd olunub ki, delimitasiya prosesi çərçivəsində Azərbaycanın Ermənistanın işğalı altında olan 4 eksklav kəndinin (Yuxarı Əskipara, Sofulu, Barxudarlı və Kərki) azad edilməsi məsələsi də həll olunacaq.

Qeyd edək ki, Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə lokal xarakterli antiterror tədbirləri nəticəsində işğal altındakı torpaqlarını azad etsə də, dövlət suverenliyimiz bərqərar olunsa da, 8 kəndlə bağlı məsələ hələ də həllini gözləyir. Həmin kəndlər faktiki olaraq, işğal altındadır. Bunlar hələ SSRİ dövründə Azərbaycanın Ermənistan ərazisində yerləşən (eksklav) kəndləridir. Qeyd edək ki, eksklav ölkənin əsas ərazisindən aralıda yerləşən və digər dövlətlər (bir və ya bir neçə) tərəfindən əhatə olunan qeyri-suveren regionlara deyilir. Belə ərazilər məxsus olduqları ölkənin eksklavı hesab edilir, məxsus olmadığı, lakin onun ərazisi ilə əhatə olunmuş ölkə üçün isə anklav sayılır. Qazax rayonunun Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndləri eksklav deyil. Onlar Qazax rayonuna bitişik kəndlərdir. Bu gün onların Ermənistanın nəzarəti altında olması işğaldan başqa cür izah oluna bilməz. Digər 4 kənd (Qazaxın Yuxarı Əskipara, Sofulu, Barxudarlı kəndləri və Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Kərki kəndi) Ermənistanın işğalı altında olan eksklav kəndlərdir.

Rəsmi Bakı işğal altındakı kəndlərin qaytarılması məsələsini bütün platformalarda, keçirilən görüşlərdə qaldırır. Ölkəmiz kəndlərin qaytarılmamasını işğalın davamı adlandırır və həmin yaşayış məntəqələri üzərində də suverenliyimizin təmin edilməsi məsələsində israrlı olduğumuz özünü aydın göstərir. Prezident İlham Əliyev 2023-cü il oktyabrın 7-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə telefon danışığı zamanı Azərbaycanın 8 kəndinin hələ də Ermənistanın işğalı altında olduğunu deyərək, həmin kəndlərin işğaldan azad olunmasının vacibliyini vurğulayıb.

Dövlətimizin başçısı yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bu məsələyə bir daha toxundu. Prezident bir daha həmin kəndləri işğal olunmuş kəndlər adlandırdı: "Bizim mövqeyimiz çox ədalətli və məntiqlidir. Ya siyasi metodologiya əsas götürülməlidir, ya xronologiya götürülməlidir, ya da biz, bütövlükdə, heç bir xəritə əsasında işimizi qurmamalıyıq. Komissiya yaradılıb. Komissiyanın işini fəallaşdırmaq üçün ekspert qrupları yaradılmalıdır. Getsinlər qarış-qarış o yerləri gəzib o sərhədi müəyyən etsinlər. Çünki bu gün bizim sərhədimiz şərti xarakter daşıyır.

O ki qaldı, işğal altında olan kəndlərə, hesab edirəm ki, bizim təklifimiz də çox məntiqlidir. Bildiyiniz kimi, orada anklav və qeyri-anklav kəndlər var. O kəndlər ki, anklav kəndlər deyil, həmin dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır. O kəndlər ki, anklav kəndlərdir, – çünki Ermənistanın bir anklav kəndi Azərbaycan ərazisindədir, – həmin kəndlərlə əlaqədar ayrıca ekspert qrupu yaradılmalıdır və o, müzakirə edilməlidir. Biz hesab edirik ki, bütün anklavlar qaytarılmalıdır. Bu anklavlara gedən yollarda şərait olmalıdır və bu anklavlara orada yaşayan insanlar yerləşdirilməlidir. Yəni, bizim mövqeyimiz bundan ibarətdir. Ermənistanın mövqeyi nədən ibarətdir, biz bunu başa düşə bilmirik..."

Onu da bildirək ki, Milli Məclisin martın 5-də keçirilən iclasında deputat Fəzail Ağamalı 8 kəndlə bağlı məsələyə münasibət bildirib. Deyib ki, İrəvan Fransa və Yunanıstanla alyans yaradaraq, onlardan silahlanmaq üçün istifadə etməyə çalışır: "Ermənistanda rəhbər şəxslərdən tutmuş sadə vətəndaşlara qədər hamı revanşist düşüncələrlə Azərbaycana qarşı müharibəyə hazırlaşır. Azərbaycan isə müstəqilliyi, suverenliyi uğrunda mübarizə aparır. Biz sona qədər gedəcəyik. Heç bir qüvvənin qarşısında təslim olmayacağıq. Nə qədər ki, Ermənistan güclü şəkildə silahlanmayıb, biz hərbi əməliyyat keçirib işğal altında olan 8 kəndimizi də torpaqlarımıza birləşdirməliyik. Hadisələrin inkişafı heç də xoşagələn deyil. Güneyli soydaşlarımıza müraciət edərək deyirəm ki, Vətən müharibəsində olduğu kimi müxtəlif ölkələrdən İran vasitəsilə Ermənistana aparılan silahların qarşısını almaq üçün iradələrini ortaya qoysunlar. Azərbaycanın apardığı siyasət sülhpərvər, bəşəri dəyərlərə söykənən siyasətdir".

Göründüyü kimi, artıq 8 kəndin qaytarılmasının zərurət olduğu Azərbaycanda daha çox şəxsin dilindən səslənir. Azərbaycan xalqı vaxtilə işğal altındakı 20 faiz ərazisinin azad olunması məsələsində həmrəy olduğu kimi, 8 kəndinin əsarətdən qurtulması məsələsində də yekdil mövqedədir.

Mövzu üzrə fikirlərini öyrəndiyimiz politoloq Yeganə Hacıyeva "XQ"yə açıqlamasında bildirdi ki, Azərbaycanın Ermənistanın, guya, 31 kəndini "işğal altında" saxlaması fikri A.Simonyan və digər erməni rəsmilər tərəfindən ortalığa atılıb. Onun sözlərinə görə, rəsmi İrəvan hazırda bu məsələni tirajlamağa çalışır. Eyni zamanda, Nikol Paşinyan hökuməti beynəlxalq təşkilatların ortalığa atılmış bu fikrə istinad etməsi üçün səy göstərir: "Qarşıdakı günlərdə Avropa Parlamentinin Azərbaycanla bağlı dinləmələr keçirməsi gözlənilir. Bu, həmin dinləmələrdə anti-Azərbaycan dairələr üçün istinad mənbələri formalaşdırmaq məqsədilə ortalığa atılmış fikirlərdən biridir və heç bir əsası yoxdur. Digər tərəfdən, Simonyanın və digərlərinin bu açıqlamaları o qədər qeyri-ciddidir ki, Azərbaycan Xarici İşlər Nazirliyi reaksiya verməyə də ehtiyac duymadı. Çünki buna reaksiya vermək də lazım deyil. Ermənistan tərəfinin hər uydurma, qeyri-ciddi fikirlərinə reaksiya verib onları müzakirə predmetinə çevirməyin mənası yoxdur. Rəsmi Bakı məhz belə yanaşma ortaya qoydu. Zənnimcə, bu, ən doğru yanaşmadır".



Y.Hacıyeva əlavə etdi ki, Ermənistan tərəfi özü Azərbaycan kəndlərinin qaytarılması prosesindən yayınır: "Ermənistan 8 kəndlə bağlı öhdəlik və məsuliyyətindən yayınmağa çalışır. Bunu isə hansısa formada mübahisələndirmək istəyir. İrəvanın digər məqsədi anti-Azərbaycan dairələrə ölkəmizə qarşı istifadə oluna biləcək əsaslar verməkdir. Digər tərəfdən, növbəti dəfə beynəlxalq ictimaiyyətin diqqətini bu qədər qeyri-ciddi fikirlərlə yayındırmaq, həmçinin aldatmaq məqsədi daşıyır".

Politoloq Zaur İbrahimlinin sözlərinə görə isə Azərbaycan və Ermənistan liderləri arasında fevralın 17-də Münxendə aparılmış danışıqların, eləcə də iki ölkənin xarici işlər nazirlərinin fevralın 28-29-da Berlində keçirilən görüşlərinin

yekunlarına dair yayılan məlumatda bəyan edilmişdi ki, artıq təkcə sülh müqaviləsinin maddələri deyil, ümumilikdə açıq qalan məsələlər müzakirə olunub: "Biz bilirik ki, Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunması üçün 8 kəndin də ölkəmizin yurisdiksiyasına qayıtması vacibdir. Həmin kəndlər Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış sərhədləri daxilindədir. Kəndlərin ən azı dördü eksklav statusunda deyil və İrəvanın onları qaytarması üçün heç bir çətinlik və ya maneə yoxdur".

Z.İbrahimli onu da qeyd etdi ki, əgər ermənilər 4 kəndi qeyd-şərtsiz və tez bir zamanda Azərbaycana qaytarsalar, bu, sülh prosesinə əhəmiyyətli töhfə olacaq: "Eyni zamanda, bu addım tərəflər arasında etimadın yaranmasına xidmət edəcək. Əgər ermənilər prosesi uzatmağa çalışsalar, bu, yenidən mənasız danışıqlar prosesinə qayıtmaq cəhdi olacaq. Güman edirəm ki, Azərbaycan bu cür danışıqlarda iştirak etməyəcək. Digər tərəfdən artıq Milli Məclisdə də belə fikirlər səslənib ki, kəndlər hərbi yolla qaytarılmalıdır. Azərbaycanın buna tam haqqı var. Beynəlxalq hüquq Azərbaycanın öz kəndlərini dövlətin yurisdiksiyası altına qaytarması üçün güc tətbiqinə icazə verir".

Səxavət HƏMİD
XQ

Tarixin arxivinə göndərilmiş qondarma rejimin Ermənistanda sığınacaq tapmış revanşist-xuntaçıları indi də Qərbdə özlərinə dəstək axtarışına çıxıblar. 30 ildən artıq separatizm problemindən əziyyət çəkən Azərbaycan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın şərtinə uyğun olaraq, torpağımızı tərk etməyə tələsməyən Xankəndidəki xunta rejimini özü təmizləməyə məcbur oldu. Onların Qarabağdan çıxmaq istəməməklərinin səbəbini rəsmi Bakı çox yaxşı bilirdi.

Axı, Azərbaycanın Qarabağ bölgəsində məskunlaşan və orada qondarma rejim yaradan erməni separatçıları xarici havadarlarından – Fransa, Rusiya və Ermənistandan dəstək alırdılar. Hətta, o zaman bəzi siyasi ekspertlər Azərbaycana qarşı təhdidlərin arxasında separatçılarla birlikdə Qarabağ iqtisadi rayonumuzda müvəqqəti yerləşdirilmiş Rusiya sülh-

Erməni mediasının yaydığı məlumatlara görə, Ermənistan hakimiyyəti separatçılardan ibarət "xüsusi komitə" yaradaraq, onun beynəlxalq müstəvidə fəaliyyətini genişləndirməyə, Qərb təmsilçiləri ilə təmaslar qurmağa çalışır. "Hraparak" nəşrinin məlumatına görə, Vardan Oskanyan və komitənin bəzi başbilənləri Avropada səfərdədirlər.

Separatçıların çarəsiz çapalamaları

Deyəsən, qaçıb gizlənmiş canilər Bakıda "çay içməli" olacaqlar

Ekspert rəyi

Asif NƏRİMANLI,
siyasi şərhçi

– Qarabağda yaşayan ermənilər Hayastana köçəndə belə görünürdü ki, rəsmi İrəvan separatçıların Ermənistanda baş qaldırmasına qarşıdır. Bunu müəyyən qədər nümayiş etdirdi. Amma sonradan məlum oldu ki, bu addımlar separatizmin Ermənistanda davam etdirilməsinin qarşısının alınmasına yox, konkret məqsədlərə hesablanıb. Bu, separatçıların "Qarabağ kartı"ndan hakimiyyətə qarşı istifadə etməsinin qarşısını almaq, onları daxildən parçalamaq, "artsax" ideyasını tamamilə nəzarətə götürmək, hakimiyyətə təhdidi aradan qaldırmaq, eyni zamanda, separatizm kartından Azərbaycana qarşı təzyiq aləti kimi istifadə etmək idi. Yəni, Ermənistan hakimiyyəti separatizm üzərində oyun oynayır. Bir tərəfdən Şahramanyanın dəstəsinə qarşı çıxır, digər tərəfdən Babayan üzərindən separatizm kartını nəzarətə götürür. Burada iki məqama xüsusi diqqət yetirək: Birincisi, Şahramanyan-Babayan amilidir. Paşinyan iqtidarı separatçı rejimin ləğvi ilə bağlı qərardan imtina edən Şahramanyana qarşı çıxır, bu qərarın qüvvədə olmadığını dilə gətirən Samvel Babayana isə toxunmur. Əksinə, ona "qucaq" açır. Görünən budur ki, Ermənistan hakimiyyətinin Qarabağ məsələsi üzərindən daxili təhdidləri aradan qaldırmağa, əvəzində nəzarətə götürdüyü qondarma "artsax" ideyasını Bakıya qarşı mümkün kart kimi də əlində saxlamağa çalışır. İkincisi, qondarma "artsax"la bağlı beynəlxalq komitənin yaradılmasıdır.

Bu ilin yanvar ayında yaradılan "komitə"nin ideya müəllifi keçmiş xarici işlər naziri Vardan Oskanyandır. O, hazırda "komitə"nin koordinatoru kimi fəaliyyət göstərir. Komitə İrəvana qaçan separatçıların qondarma "parlamenti" tərəfindən yaradılıb, əsas "missiyası" Qarabağda ləğv edilmiş separatizmi yenidən körükləmək üçün kənardan dəstək əldə etməkdir. "Komitə"nin hazırki hədəfi beynəlxalq mandat almaqdır. Bu prosesi hüquqşünaslar həyata keçirirlər. Ən sürətli variant QHT kimi qeydiyyatdan keçməkdir. Amma komitə üzvləri hesab edirlər ki, QHT aşağı statusdur, onlar beynəlxalq mandat əldə etməyə çalışırlar", – "Hraparak" nəşri yazır. Faktlar "Qarabağda separatizm" kartının rəsmi İrəvan tərəfindən işə salındığını deməyə əsas verir. İstisna deyil ki, bu prosesi körükləyən əsas qüvvələrdən biri də hazırda Ermənistanı vassalına çevirməyə çalışan Fransadır. Görünür, Parisin separatizm kartından Azərbaycana qarşı istifadə etmək niyyəti var. Fəqət, bu, İrəvana ağır perspektiv vəd edir. Çünki Azərbaycan əz ərazisində məhv etdiyi separatizmin nə Ermənistanda, nə də digər bir ölkədə yenidən "cücərməsi" ilə barışmayacaq.

məramlılarının da dayandığını güman edirdilər. Məhz onlara arxalanan, "bəlkə də qaytardılar" xəyalı ilə yaşayan xunta rejimi nə silahı yerə qoyub təslim olurdu, nə də könüllü şəkildə bölgəni tərk edirdi.

Qarabağdakı erməni icmasını təzyiq altında saxlayan, saxta aclıq böhranı yaradan, hər cür humanitar yardımdan imtina edən, "türk çörəyini yeməyi özünə sığışdırmayan" separatçılar bu gün avropalı təəssübkeşlərinin qapılarını döyməyə cəhdlər edirlər. Fəqət, altı ay bundan əvvələ kimi vəziyyət yazdığımız kimi idi. İndi reallıq tamam başqadır.

Özünü buraxmış, "de-fakto" və "de-yure" mövcud olmayan Qarabağdakı qondarma rejimin tör-töküntüləri ara-sıra Ermənistanda baş qaldırmağa cəhd edirlər. Kənardan görünən odur ki, Paşinyan hakimiyyəti özünün də başağrısına çevrilmiş bu daşnak-revanşist dəstənin fəaliyyətinə gizli dəstək verir, ona hətta xaricdə də "tribunalar" təşkil etməyə girişir. Yəni, keçmiş "dqr"ın həmişəlik ehtiyata göndərilmiş separatçıları onlara "züytutanların" fitvası ilə fəaliyyət dairələrini genişləndirmək, Qərbin rəsmi, qeyri-rəsmi qurumları ilə görüşlər keçirmək barədə düşünürlər. Başlanğıcda "gorbagor olmuş" statusu ilə birlikdə ləğv edilmiş rejimin Ermənistanda fəaliyyətinin davam etdirilməsinə imkan verməyən, aksiya keçirmələrini qadağan edən Paşinyan iqtidarı doğrudanmı yenidən "Qarabağ kartı"nı işə salmaqla sülh danışıqlarında Bakıdan hansısa güzəşti qoparmağa nail olacağını düşünür?

"Onlar Avropanın müxtəlif siyasi xadimləri, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlər keçirir. İndi "artsax deputatları" Oskanyanın Ermənistana qayıtmasını və onlarla keçirilən görüşlərlə bağlı məlumat verməsini gözləyir. İntəhası, onlar artıq bilirlər ki, Oskanyan xarici işlər naziri olduğu dövrdə Avropada qazandığı əlaqələri bərpa edə bilib, əsas fiqurlarla görüşüb. Onlardan biri Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Tovio Klaardır", – "Hraparak" yazıb.

Əgər rəsmi İrəvanın dəstək verdiyi separatçılıq prosesi belə davam edərsə onun ağır nəticələrini Paşinyan iqtidarı özü yaşamalı olacaq. Buna nə avantürist hayların, nə də onların irəvanlı və qərbli dəstəkçilərinin heç şübhələri olmasın.

İndi seçim Ermənistanın öz əlindədir. Paşinyan ya Qarabağda məzara gömülmüş separatizm kartından yararlanmaqla Ermənistanın dövlət kimi mövcudluğuna son qoyacaq, ya da revanşist-daşnak separatçıları özü sıradan çıxaracaq. Əks–təqdirdə, Bakı Qərbi Azərbaycan məsələsini rəsmi şəkildə bəyan edə, azərbaycanlıların öz tarixi yurdlarına qayıtmasını icmanın istəyindən dövlətin rəsmi mövqeyinə çevirə bilər. Bu isə yüz altı il bundan əvvəl tarixi torpaqlarımızda qurulan Ermənistan dövlətinin ərazi baxımdan xəritədən silinməsi demək olacaq.

İmran BƏDİRXANLI
XQ

Cənubi Qafqazda geosiyasi avantüra və konstruktivizm: həlledici tarixi savaş

I MƏQALƏ

Motsart... Bundan yaxşısını tapmaq mümkün deyildir! Özümüzü elə aparaq ki, guya, kim olduğumuzu və hara getdiyimizi bilmirik.

Jak KLEMAN

"Paris gözləyər" filmindən "Reform-Klub": "Şeytan piri"

Yazıçı Miranda Karter (o, "MC.Karter" psevdonimi ilə də tanınır) "Reform-Klub" haqqında yazdığı romanı belə adlandırmışdır. "Reform-Klub" XIX əsrdə Böyük Britaniyada yaranmışdır. Ətrafında radikal düşüncəli insanları birləşdirirdi. Əsas tələbləri ingilis siyasi mühitində ciddi dəyişikliklər edilməsi ilə bağlı olmuşdur. Lakin bunun üçün onlar radikal üsullardan istifadə etmişlər. Sonradan bu təşkilatın üzvləri Leyboristlər Partiyasının yaranmasında iştirak etmiş və onların içində ərimişlər. Radikal reformistlərin tələbi ilə Böyük Britaniyada XIX əsrdə islahatlar aparılmışdır.

Bunlar "Reform-Klub"un görünən tərəflərinin yalnız məhdud dairəsidir. Maraqlısı odur ki, ingilislərin özləri bu təşkilat ətrafında mistik təsir bağışlayan mənzərə yaratmışlar. Qrem Qrinin "İnsan faktoru" (1978-ci il) romanında ingilis kəşfiyyatının məhz "Reform-Kluba" yığışdığını ifadə edən hissələr vardır.

Conatan Sims isə əsərlərinin birində "Reform-Klub"un yeraltı tunellərinin mövcudluğundan bəhs edir. Klub haqqında veriliş hazırlayan yazıçı Maykl Peyni ora buraxmamışlar (1989-cu il). M.Peynin dediyinə görə, qalstuku olmadığından kluba daxil olmağa icazə ona verməmişlər.

Əlbəttə, diqqətli oxucu sual edə bilər: Bunların siyasi avantürizmə nə aidiyyatı var? Məsələ ondan ibarətdir ki, bu klubun hansı siyasətə üstünlük verdiyi maraqlıdır. Onun üzvlərindən biri Ernest Bennin (siyasətlə məşğul olan ailədəndir) belə bir fikri vardır: "Siyasət problemləri axtarmaq, onları tapmaq və qeyri-düzgün qiymətləndirmək məharətidir. Və bu əsasda problemləri qeyri-ənənəvi üsullarla həll etməkdir."

İndi müasir politologiyada "siyasi avantüra" termininin izahına baxaq. Məsələn, professor V.A.Dyorqaçovun geosiyasətlə bağlı ensiklopediyasında siyasi avantüraya belə tərif verilir: "Siyasi avantürizm siyasi institutların, partiyaların, hərəkatların və onların liderlərinin risklə əlaqəli olan məsuliyyətsiz siyasi fəaliyyətidir ki, orada real situasiya və fəaliyyətin mümkün nəticələri nəzərə alınmır".

Politologiya lüğətində buna oxşar tərif vardır. "Avantura" sözü fransızca "avanture"dən qaynaqlanır və "macəra", "risk" anlamını verir. Bu lüğətdə avantüranın siyasilərin real vəziyyəti bilməmələri və həmin əsasda onu düzgün qiymətləndirməmələri avantüranın səbəbləri kimi göstərilir. Nəticədə siyasi subyektlər öz imkanlarını olduğundan çox görürlər, ona görə düşünülməmiş, əsaslandırılmamış addımlar atırlar. Lakin avantüristlər tam siyasi fəaliyyət göstərmək üçün bütün lazımi təsirə, vəsaitə və mexanizmlərə malik olmadıqlarından zamanın tələbinə uyğun olmayan istiqamətdə konkret siyasi məkanda uzun müddət fəaliyyət göstərə bilirlər. Bu zaman onları nəticənin səmərəli olması elə də maraqlandırmır – əsas olanı siyasi fəaliyyətdə öz avantürist iradəsini təsdiq etməkdir. Buna görə də avantürist siyasi fəaliyyət, bir qayda olaraq, məğlubiyyətlə bitir. Avantürizm xüsusilə keçid mərhələsində olan dövlətlər üçün çox təhlükəlidir. O, cəmiyyəti və dövləti fraqmentlərə bölə bilər. Populist "libasa" bürünər və tərəfdarlarının doğru hərəkət etdikləri görüntüsü yarada bilər.

Politoloji lüğətlərdəki bu izahlar işığında Ernest Bennin siyasətlə bağlı yuxarıdakı fikirlərinə baxanda nəyi görmək olar? Hər şeydən öncə, belə təəssürat yaranır ki, E.Benn klassik siyasi avantüra təbliğ edirmiş. O, "Reform-Klub"un üzvü idi. Bu faktdan növbəti nəticə çıxarmaq olar. "Reform-Klub" siyasi avantüraya üstünlük vermişdir – problemləri axtarmış, tapmış və onların həlli yollarını reallığa görə deyil, öz istəyinə uyğun göstərmişdir.

Nəhayət, bütün bunların ümumi nəticəsi kimi, demək olar ki, Avropada siyasi avantürizmin bir ənənəsi vardır. Yeni dövrdə bunu həyata keçirən xüsusi təşkilatlar olmuşdur. Bu tezisin işığında Cənubi Qafqazda geosiyasi proseslərə baxsaq, mənzərə necə görünər?

Cənubi Qafqazda geosiyasi oyun qaydaları

Onları iki qismə bölmək olar. Birinci, siyasi və geosiyasi avantüraya əsaslanan qaydalar; ikinci, siyasi və geosiyasi konstruktivizmə əsaslanan qaydalar. Bu tendensiyaların hər birinin aparıcıları vardır. Siyasi avantüranı fəal surətdə Fransa aparır, ondan bir qədər zəif formada Hindistan, passiv formada İran və nəhayət, bu oyunçuların hər birinin maşası olan Ermənistan.

Siyasi konstruktivizmi isə fəal formada Azərbaycan və Türkiyə həyata keçirirlər. Rusiya bir qədər arxa planda və daha çox neytral mövqedə dayanmışdır. Sonrası bəlli olmaz. Lakin avantüristlər Rusiya–Ermənistan münasibətlərində kifayət qədər problemlər yaratmışlar.

Fransanın avantürist oyunu

Fransa ilə vəziyyət aydındır. Bu ölkənin prezidenti E.Makron milyonlarla insanı aldadaraq "Qarabağ Ermənistanın ortasındadır" avantürasını irəli sürə bilirsə, geridə qalanlar təfərrüatlardır. Bu uydurmanı siyasi həqiqət kimi deyən bir siyasətçinin ədalətli və reallığa uyğun hərəkət etməsi mümkün deyildir. Çünki elə bir ağ yalan deyir ki, onu ibtidai sinif şagirdi belə, xəritədən başı çıxırsa, təkzib edə bilər. Lakin siyasi avantüranın anatomiyası da məhz reallığa uyğun olmayan şeyləri reallıq kimi təqdim etmək cəhdi ilə bağlıdır.

Əslində, E.Makron hökumətinin Cənubi Qafqazda avantüra xarakterli fəaliyyətlərinin sayı-hesabı yoxdur. Xüsusilə, erməniləri müdafiə fonunda absurd ittihamlar irəli sürür. Regionun real geosiyasi dinamikasının mahiyyətinin əksinə olaraq, tamamilə dağıdıcı addımlar atır. Hətta, E.Makron Almaniya Kansleri O.Şoltsu "kifayət qədər cəsarətli olmamaqda" suçlayır. Əcəba, bu uydurmanı haradan almışdır, Makron? Görünür, onun "arqumentləri" içərisində Azərbaycanla bağlı məqamlar da vardır. Məsələn, O.Şolts Azərbaycan Prezidentinin tələbi ilə E.Makronun siyasi avantürasına uyub, onu danışıqlara buraxmadı. Təsəvvür edək: O.Şolts E.Makrona görə o səbəbdən "siyasi cəsarəti" olmayandır ki, Makronun avantürasına getməmişdir!

Ümumiyyətlə, fransızlar təzadlıdırlar. "Avantüra" terminini mənfi mənada macəra və risk adlandırırlar, lakin özləri bundan uzaq durmurlar – dünyanın müxtəlif regionlarında özlərinə məcara axtarır və yerli xalqları riskə atırlar. Məsələn, Afrikada, Latın Amerikasında, Hind və Atlantik okeanlarındakı bir sıra adalarda və o cümlədən, Qafqazda.

Fransanın avantüralarından birinin üstünü bu yaxınlarda Ermənistan rəsmilərindən biri bilərəkdən və ya bilməyərəkdən açmışdır. O demişdir ki, biz Fransadan keyfiyyəti birinci dərəcəli olan silahlar alırıq, lakin onların növünü bilərəkdən demirik. Bu etiraf klassik avantüra nümunəsi deyilmi?

Doğrudan da, Fransa Ermənistanı sülhə yox, müharibəyə hazırlayır. Çünki erməni revanşistlərin əsas məqsədi onların itirilmiş hesab etdikləri özgə torpaqlarını yenidən zəbt etməklə bağlıdır. Bunun üçün müxtəlif təntənəli, lakin içi boş adlar altında sözdə təşkilatlar da yaradırlar. Yəni, sözün həqiqi mənasında, ermənilərin bir qrupu öz xalqını növbəti siyasi avantüraya sürükləyir. Daha təəccüblüsü və təəssüffedicisi odur ki, rəsmi Paris məhz bu cür radikal düşüncəli ermənilərin dəyirmanına su tökən siyasət yeridir. Bunun üçün iki istiqamətdə fəaliyyət göstərir.

Birincisi, Cənubi Qafqazda sabitliyi təmin edən geosiyasi mühiti parçalamağa çalışır. Konkret olaraq, Rusiyanı tamamilə uzaqlaşdırmaq, Türkiyəni xeyli zəiflətmək və İrana gizli dəstək verməklə bunu edir.

Rusiya məsələsi aydındır: Fransa Kremli Cənubi Qafqazdan uzaqlaşdıra bilməz! Bu, mövcud geosiyasi reallığa uyğun olmayan və absurd olan bir istəkdir.

Türkiyənin mövqeyini zəiflətmək də Fransanın gücü çata biləcək bir iş deyildir. Türkiyə Fransanı Afrikada dayandırdı və cəzasını hələ də verir. Qafqaz tarixən türklərin oylağı olmuşdur və indi də elədir.

Azərbaycan kifayət qədər güclü dövlətdir. Yanında Türkiyə və Pakistan vardır. Böyük Britaniyanın və İsrailin loyal münasibəti mövcuddur. Rusiyaya artıq Azərbaycanın güclü olması sərf edir. Azərbaycana yaxın olan türk dövlətləri vardır. Qonşu Gürcüstan Türkiyə və Azərbaycana qarşı ciddi mənada gedə biləcək dövlət deyildir. Bəs hansı ağılla rəsmi Paris belə sadəlövh və avantürist işlərə gedir?

Məsələ ondan ibarətdir ki, Fransa Avropa siyasi avantüra ənənəsini yaşatmağa çalışan dövlətdir. Bu, təkcə "Reform-Klub"la bağlı deyildir – E.Makronun Bilderberq Klubunun avantürist oyunlarında da təcrübəsi vardır. Bu səbəblərdən, Fransanın Cənubi Qafqazın geosiyasi reallıqlarına uyğun olmayan formada öz maraqlarını burada təmin etməsi siyasi avantüra ilə geosiyasi avantüranın sintezidir.

Geosiyasi avantüra real olmayan, uydurma xarakterli faktorlar əsasında, bütövlükdə, bir regionun geosiyasi mənzərəsini dəyişmək cəhdidir. Fransa bu avantüranı Şərqi Avropada (Ukrayna) və Cənubi Qafqazda həyata keçirməyə çalışır. Hər iki istiqamətdə əsas rəqibi Rusiyadır.

Maraqlıdır, Fransa Napoleonun acı məğlubiyyətindən də dərs almamışdır? XIX əsrdə Napoleonun məğlubiyyəti Böyük Britaniyada ciddi siyasi islahatlara təkan verdisə və İngiltərə daha da gücləndisə, XXI əsrdə E.Makronun Ukrayna və Qafqazda məğlubiyyəti hansı geosiyasi sıçrayışı motivə edəcəkdir? Bunun nəticələrini Paris hesablayıbmı?

Buradan ikinci istiqamət yaranır: Paris həm Ermənistanı silahlandırır, həm də yanına bir neçə dövləti çəkməklə məşğuldur. İranla gizli mövqe uyğunluğu bu baxımdan təəccüblü deyildir. "Ermənistanın ərazi toxunulmazlığı qırmızı xəttimizdir" (30 il Azərbacanın ərazisini işğalda saxlayan işğalçı Ermənistanın ərazisi Tehran rejimi üçün indi "qırmızı xətt" (?) olmuşdur) və "regionda gosiyasi mənzərənin dəyişməsinə qətiyyən yol verməyik" (?) deyən bir dövlətin Fransa kimilərin yanında durması adi haldır.

Bəs Hindistana görəsən nə düşüb ki, Fransanın siyasi və geosiyasi avantürasına qoşulmuşdur? Bununla Dehli müdrik Mahatma Qandinin müəyyən etdiyi yoldan çıxmırmı?

(ardı var)

Füzuli QURBANOV,
XQ-nin analitiki,
fəlsəfə elmləri doktoru

Gümrüdə ermənilər türkləri "Xilaskar türk ordusuna alqışlar!" şüarı ilə qarşılamışdılar

Tarixi unutqanlıq isə bu toplumu indiki məğlubiyyətə sürüklədi

2020-ci ildə 44 günlük müharibə nəticəsində kapitulyasiya aktına – 10 noyabr üçtərəfli Bəyannaməsinə imza atan Ermənistan üzərinə götürdüyü öhdəliyi yerinə yetirmir. Azərbaycanın Qərb ərazilərindən Naxçıvana uzanacaq kommunikasiya xətlərinin, maneəsiz keçidin əldə edilməsini manipulyasiya edir, dördüncü ildir ki, bu işi ayrı ayrı ölkələrin spekulyasiya predmetinə çevirmişdir.

Sənədə imza atan Ermənistanın baş naziri N. Paşinyan ölkəsində haqlı olaraq "kapitulyant" adlandırılır, çünki müharibədə məğlub olmuş Ermənistan qalib ölkə Azərbaycanın şərtlərini qəbul etmiş və bir gülllə atılmadan işğal altında olan Ağdam, Laçın və Kəlbəcər erməni silahlı birləşmələrindən boşaldılmışdır. Bu, məğlub ölkənin kapitulyasiyası deməkdir və Ermənistan Azərbaycanın tələblərini yerinə yetirməlidir.

Ermənistanın indiki durumu 1920-ci illərə çox bənzəyir. O zaman da Ermənistanın daşnak hakimiyyəti işğalçılıq niyyəti ilə Türkiyənin bir sıra ərazilərinə iddia ortaya qoymaqla, bəzi əraziləri işğal etmiş və 1918-ci il 4 iyun Batum Anlaşması ilə tanınan Ermənistan Respublikasının 9 min kvadrat kilometrlik ərazisini genişləndirmək planlarını işə salmışdı. Hətta Şərqi Anadolunun bəzi torpaqları Ermənistanın nəzarətinə keçmişdi.

Təbii ki, Türkiyə bu işğalla barışmayacaqdı. O zaman TBMM hökumətinin orduları hərəkətə keçib ermənilərin dərsini vermişdir. 1920-ci il noyabrın 6-da Kazım Karabəkir paşanın komandanlığı ilə Türk Ordusu Gümrüyə daxil olarkən erməni əhalisi "Xilaskar Türk Ordusuna alqışlar!" şüarı ilə qalibləri qarşılamışdılar. Belə bir şüarın gerçək olduğu erməni dilində olan sənədlərdə və bəzi müəlliflərə məxsus kitablarda təsdiqlənir.

Türk ordusu Aleksandropola yaxınlaşanda Gümrüdə keçirilən mitinqdə çıxış edənlərdən biri demişdi: "Bizi müttəfiqlərin cəhənnəmindən azad etməyə gələn türk azadlıq ordusuna salamlar olsun". Erməni tarixçi Tatul Hakopyan "Ermənilər və türklər. Araratdan baxış" adlı kitabında tarixi qaynaqlara istinadən bunların həqiqət olduğunu yazmışdır. Erməni qadınların türk ordusu qarşısına duz-çörəklə çıxdığı faktları da ermənicə qaynaqlarda yer almışdır.

Qarsın ermənilərdən təmizlənməsindən bir həftə əvvəl, 1920-ci il oktyabrın 23-də Ankara TBMM hökuməti Cənubi Qafqazda milli qüvvələrlə daşnak quldurları arasında baş verən qarşıdurmalarla bağlı bəyanat vermişdi: "Ermənistan bu torpaqlarda yaşayan türkləri məhv etmək və ya zorla köçürmək niyyətindədir, türklərin əhalinin yarısını təşkil edən ölkədə xaos yaşanır, müsəlman əhali çətin durumdadır. 1919-cu ilə qədər İrəvan Müsəlman Liqasının tərtib etdiyi rəsmi statistikaya görə, XIX əsrin sonlarında təkcə Ermənistanın dövlət olaraq elan edildiyi quberniyalarında 199 türk kəndi yandırılmışdır. Bunlar azmış kimi daşnak hakimiyyəti tərəfindən 1920-ci il sentyabrın 24-də sərhəd mövqelərimizə hücum edilmişdir. Məqsəd Ərzurumu almaq idi. Düşməni darmadağın etdikdən sonra Sarıqamış bölgəsində qoşunlarımız ermənilər təqib etdi. Erməni quldur dəstələrinin təqibi, torpaqlarımızdan çıxarılması, sərhədlərimizin müdafiəsi millətimizin həyati hüququdur".

1920-ci il noyabrın 5-də Türkiyə Ordusu şəhərə (Gümrüyə) girməzdən bir gün əvvəl müdafiə naziri Ruben Ter-Minasyan şifrəli teleqrafla baş nazir Ohanca nyanı belə məlumatlandırmışdı: "Əsgərlərimiz döyüşmək istəmir, sülh istəyir. Danışıqlara başlamağı, barışmağı təklif edirəm. Müharibəni davam etdirsək, hər şeyi itirəcəyik".

6 noyabr 1920-ci ildə Türk Ordusu Aleksandropola (Gümrüyə) daxil oldu. Həmin gün Qarabəkir paşa atəşkəs şərtlərini və Aleksandropol qalasını və stansiyasını təslim etməyi tələb etdi. Noyabrın 11-də Rusiyanın xarici işlər naziri Çiçerin Atatürkə məktub yazaraq Türkiyənin Ermənistana hücumunun dayandırılmasını istədi. Lakin həmin gün bir neçə yerdə döyüşlər yenidən başladı. Türklər Cacurdakı erməni qoşunlarını geri oturtdu, ermənilər Hamamlıya (Spitak) çəkildilər. Son hərbi əməliyyat olan Ağın cəbhəsində qızğın döyüşlər gedirdi. Nalbənd stansiyasından Qarakilisəyə qədər erməni-türk neytral zonası elan olundu. Eyni vaxtda Ermənistan rəhbərliyi türklərlə barışmaq üçün Moskvaya vasitəçilik üçün müraciət etdi. Xarici işlər naziri Çiçerin B.Mdivanini Ermənistan-Türkiyə danışıqlarında nümayəndə təyin etdi. O, 1919-cu ilin oktyabrından Mustafa Kamal hökuməti dövründə Rusiyanın Ankaradakı səfiri vəzifəsində çalışırdı.

Noyabrın 18-də Ermənistanın xarici işlər naziri Sarkis Araratyan və Kazım Qarabəkir paşa Gümrüdə atəşkəs sazişi imzaladılar. Atəşkəsin son günü noyabrın 25-i idi və ondan bir gün əvvəl sülh danışıqları başlamalı idi. Noyabrın 23-də Ermənistan yeni hökumətinin Hatisyanın başçılıq etdiyi nümayəndə heyəti türklərlə danışıqlara başlamaq üçün Gümrüyə gəldi. Bu hadisə ilə bağlı dövrün erməni qəzetlərində məqalələr dərc olunub.

"Arac" (İrəli) qəzetinin 23 noyabr 1920-ci il "Güzəştə doğru" adlı məqaləsində yazılırdı: "Əcnəbilərin gücünə arxalanaraq hər zaman "Böyük Ermənistan"ı bir anda yaratmağa çalışan bizlər bu sarsıdıcı məğlubiyyətdən sonra əmin olduq ki, böyük ümidlər nə qədər illüziyalı və zərərlidir. Biz əsl siyasətçi olsaydıq, özümüzdən çox xarici güclərə əsaslanan millətçiliyimizlə siyasi məqsədlərə öncülük edə bilməyəcəyimizi qəbul etsəydik, öz gücümüzün həqiqi çəkisini dəqiq ölçə bilsəydik, heç vaxt bunun arxasınca getməzdik. Bu gün Ermənistan–Türkiyə dostluğunu hələ də qeyri-mümkün edən bütün maneələri qətiyyətlə aradan qaldırmağa səmimi şəkildə çalışmalıyıq".

Eyni qəzet bir gün sonrakı nömrəsində "Güzəşt problemi, bizim yönümüz" adlı məqalədə yazırdı: "Biz türklərlə dil tapmalıyıq. Bizim siyasətimiz "Erməni xalqının "fiziki varlığını" təmin edəcək dövlətin mövcudluğunu qorumağı və təsdiqləməyi tələb edirsə, o, rusyönümlü deyil, türk yönümlü olmalıdır. Əgər erməni xalqı son Avropa müharibəsində rusyönümlü olmasaydı, türklərin yanında olsaydı, yəqin ki, bir çox qırğınlardan xilas ola bilərdilər. Etiraf etməliyik ki, yadellilərə arxalanaraq sülhə nail ola bilmərik. Güclü qonşumuz olan türklərlə öz taleyimizi özümüz inamla müəyyən etməyə çalışmalıyıq".

Ermənistan Türkiyə ilə müharibədə məqlubiyyətini qəbul etdi və 1920-ci il dekabrın 2-də TBMM hökuməti ilə Ermənistan Respublikası arasında Aleksandropol (Gümrü) anlaşması imzalandı. Bu anlaşmanın 4-cü bəndinə görə, Ermənistanın 1500 nəfərdən çox olmayan hərbi kazarma və müvafiq sayda zabit, habelə lazımi sayda jandarm saxlamaq hüququ var idi. Müdafiə məqsədi ilə yalnız ağır müdafiə topları ilə silahlandırılan qalalar ola bilərdi. Hərbi xidmət ləğv edilirdi.

Bu, Ermənistanın kapitulyasiyası demək idi. 15 maddəlik həmin sənədə Ermənistanın baş naziri Xatisyan və Kazım Qarabəkir paşanın imzası atılmışdı.

Ermənistanın indiki durmuna çox bənzəyir. 44 günlük savaşdan sonra 10 noyabr 2020-ci ildə Ermənistan kapitulyasiya aktına imza atmamışdırmı?

Qafar ÇAXMAQLI,
XQ-nin Türkiyə müxbiri

Qarabağın yaz qayğıları

Cəbrayıl: Bağrıma basıram doğma torpağı...

Qarabağın güneydən giriş qapısı sayılan Cəbrayıl rayonu Şərqi Zəngəzur iqtisadi zonasına daxildir. Məlum olduğu kimi, rayon 1993-cü ildə erməni hərbi birləşmələri tərəfindən işğal olunmuş, 2020-ci ildə şanlı ordumuzun qəhrəmanlığı sayəsində düşməndən azad edilib. O dönəmdən Qarabağın digər bölgələrində olduğu kimi, burada geniş tikinti-quruculuq işləri başlayıb. Rayonda paralel olaraq kənd təsərrüfatı sahəsində də mühüm layihələr icra olunur. Cəbrayıl Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) sədri Şahin Şirinov ilə söhbətimiz məhz aqrar sektorda görülən işlər barədədir. Beləcə, müsahibimə ilk sualımı verirəm:



– Şahin müəllim, əvvəlcə ötən ilin göstəriciləri barədə qısa məlumat verməyinizi xahiş edirəm.

– İlk növbədə qeyd etmək istəyirəm ki, son illər dövlətin hərtərəfli dəstəyi nəticəsində rayonda məhsul istehsalında nəzərəçarpacaq artıma nail olunub. Belə ki, ötən il rayon üzrə aqrar sektorda 31469,7 min manatlıq məhsul istehsal edilib ki, bunun da 22,4 faizi bitkiçiliyin, qalan 77,6 faizi isə heyvandarlığın payına düşür.

Rayonda ənənəvi təsərrüfat sahələrində intensiv texnologiyaların tətbiqinə diqqət artırılıb. Bu da həm məhsuldarlığın yüksəlməsinə, həm də məhsulun maya dəyərinin azalmasına səbəb olub. Məhsul bol və nisbətən ucuz başa gələndə, təbii ki, torpağı əkib-becərən ailələrin gəlirləri də artır.

– Cəbrayıl erməni işğalından əvvəl respublikamızın ən böyük taxılçılıq rayonlarından sayılırdı. Hazırda bu sahədə vəziyyət necədir?

– Bu istiqamətdə yüksək hədəflərimiz var. Cari vəzifələr də diqqət mərkəzindədir. Məsələn, 2023-cü ilin məhsulu üçün rayon üzrə 19 min 505 hektar sahədə payızlıq taxıl səpini aparılmışdır ki, ondan 16 min 908.5 hektarı buğda, 2 min 596,5 hektarı arpa olmuşdur. Əkinlərin 17 min 188 hektarı və ya 88,1 faizi rayonun işğaldan azad edilmiş ərazilərində, 2 min 317 hektarı isə əhalimizin müvəqqəti məskunlaşdığı Biləsuvar rayonu ərazisində aparılmışdır.

Təəssüf hissi ilə qeyd edirəm ki, ötən təsərrüfat ilində havaların kəskin quraq keçməsi nəticəsində mövcud taxıl əkinlərinin 17 min 400 hektarı və ya 71,8 faizi tamamilə məhv olmuşdur. Bu səbəbdən ötən mövsümdə yalnız 2 min 105 hektarda biçin aparılmış, ümumilikdə 7 min 309 ton məhsul istehsal edilmiş, hər hektardan məhsuldarlıq 34,7 sentner təşkil etmişdir.

Ümid edirəm ki, bu il hava şəraiti bizi ötən il olduğu kimi, çətin vəziyyətdə qoymayacaq. Bu istiqamətdə çalışan fermer və mütəxəssislər sahələrdən bol məhsul əldə etmək üçün əllərindən gələni edirlər. Taxıl sahələrində bütün aqrotexniki tədbirlər vaxtında həyata keçirilir. Sahələrə kifayət qədər gübrə verilib, zərərvericilərə qarşı müvafiq tədbirlər görülüb.

– 2023-cü ildə tərəvəzçilik və bostançılıq sahələrində vəziyyət necə olmuşdur?

– Ötən mövsüm ərzində 62,1 hektar sahədə tərəvəz, 1,5 hektarda bostan bitkiləri və 33 hektarda kartof əkini həyata keçirilmişdir. 1043 ton tərəvəz, 32,1 ton bostan məhsulu, 570 ton kartof istehsal edilmişdir. Tərəvəz sahələrində məhsuldarlıq 167,9 sentner, bostan sahələrində 214 sentner, kartofda isə 172,7 sentner olmuşdur.

Son illər rayonda çuğundur istehsalına da diqqət artırılıb. 2023-cü ildə 17 hektar şəkər çuğunduru sahəsindən 391 ton məhsul istehsal edilmiş, hər hektardan 230 sentner məhsul götürülmüşdür. Adlarını qeyd etdiyim bütün sahələrdə artım olmuşdur. Bu istiqamətdə uğurlarımızın daha da artacağını gözləyirik.

– Bir qədər əvvəl qeyd etdiniz ki, ötən il ən çox gəlir heyvandarlıqdan əldə edilmişdir. Bu sahədə hansı perspektivlər mövcuddur?

– 2023-cü ildə rayon üzrə aqrar sektorda əldə olunan gəlirin üçdə ikisindən çoxu heyvandarlığın inkişafı sahəsində qazanılıb. Bu sahənin perspektivləri də yüksəkdir. Rayon əhalisi doğma yurd yerlərinə kütləvi surətdə qayıdandan sonra fərdi təsərrüfatlarda mal-qaranın sayının kəskin artacağı gözlənilir.

Hazırda rayonda iribuynuzlu heyvanların sayı 10 min 942, xırdabuynuzlunun sayı 86 min 114, quşların sayı 121,1 min başa çatdırılmışdır. 2023-cü ildə ət istehsalı diri çəkidə 2431 ton, süd istehsalı 9 min 22 ton, yun istehsalı 175 ton, yumurta istehsalı isə 6,14 milyon ədəd olmuşdur.

Məlumdur ki, heyvanların cins tərkibinin yaxşılaşdırılmasına nail olmadan bu sahədə məhsuldarlığı yüksəltmək qeyri-mümkündür. Ona görə də ötən il 762 baş iribuynuzlu heyvanda süni mayalanma aparılmışdır. Bu il heyvandarlıq sahəsində daha yüksək göstəricilər əldə etməyə çalışırıq. Bunun üçün kompleks tədbirlər görülür.

– Yemçiliyə necə, kifayət qədər diqqət ayıra bilirsinizmi?

– Yemçilik bazasının güclənməsi üçün də müvafiq tədbirlər görülüb. Belə ki, ərazidə məskunlaşmış əhalinin şəxsi təsərrüfatlarında olan mal-qaranın yemə olan ehtiyacı əsasən ərazidə əkilmiş 1 min 458 hektar yonca sahələrindən toplanmış quru ot, təkrar qarğıdalı və dənli əkinlər hesabına ödənilir.

Ötən mövsüm sahələrdən 10,5 min ton quru yonca otu, 70 hektar təkrar əkin sahəsindən 440 ton yaşıl kütlə tədarük edilmişdir. Mal-qaranın qüvvəli yemə olan tələbatlarının əksər hissəsi də ərazidə əkilmiş taxıl sahələri hesabına ödənilmişdir.

– İşğaldan əvvəl Cəbrayıl rayonu baramaçılıq sahəsində ən qabaqcıllardan biri idi...

– Haqlısınız. Cəbrayıl rayonu bu sahədə həmişə fərqlənib. Baramaçılığın yem bazasının yaradılması məqsədi ilə 2016-2019-cu illərdə Çin Xalq Respublikasından gətirilmiş 67,5 min ədəd, 2017-2022-ci illərdə isə yerli istehsaldan verilmiş 81.4 min ədəd olmaqla, ümumilikdə 148,9 min ədəd tut tingi Biləsuvar rayonu ərazisində cəbrayıllı keçmiş məcburi köçkünlər üçün salınmış qəsəbələrdə və rayonun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində 28 hektar sahədə əkilmişdir.

Tinglərə vaxtında qulluq göstərilmiş və normal bitiş alınmışdır. Ümumilikdə 2018-2023-cü illərdə rayon üzrə 647 qutu ipəkqurdundan 242 min kiloqram barama istehsal edilmiş, hər qutudan məhsuldarlıq 37,4 kiloqram olmuşdur. Ötən il rayonda barama istehsalı və tədarükü üzrə tapşırığa 104,1 faiz əməl edilmişdir.

Bundan başqa, 2023-cü ildə işğaldan azad edilmiş ərazilərdə mövcud tut bağlarının bərpası istiqamətində xeyli iş görülmüşdür. Növbəti mövsümdə həmin ərazilərdən yarpaq tədarükünün daha çox olacağı gözlənilir.

– "Böyük qayıdış" proqramına əsasən Cəbrayıl sakinləri tezliklə doğma yurda qayıdacaqlar. Əhalinin əhvali-ruhiyyəsi necədir?

– Cəbrayıllılar həmin günü böyük səbirsizliklə gözləyirlər. Bəllidir ki, torpaq, yurd itkisi ağır dərd idi. 2020-ci ilin oktyabrında Cəbrayıl düşməndən azad edilib. Əlbəttə, o vaxtdan sevincimizin həddi-hüdudu yoxdur. Bu xoşbəxtliyi xalqımıza Ali Baş Komandanımız, Prezident İlham Əliyev başda olmaqla, müzəffər Ordumuzun igid əsgər və zabitləri bəxş ediblər. Sağ olsunlar.

Cəbrayılın işğaldan azad edilmiş torpaqlarına hələlik kütləvi köç başlamayıb. Amma tezliklə o doğma və bərəkətli torpaqlardan traktor, texnika səsi eşidiləcək. Hazırda orada minalardan təmizləmə işləri aparılır, iri infrastruktur layihələri icra olunur. Zərrə qədər şübhə etmirəm ki, o torpaqlarda aqrar sektorun fəaliyyətini yüksək səviyyədə qura biləcəyik.

Yeri gəlmişkən, biz köçkün həyatı yaşadığımız illərdə də torpaqdan ayrılmamışıq. Aqrar sahədə çalışan cəbrayıllıların əkin-biçin işlərində zəngin təcrübələri var. Azərbaycan dövləti çalışır ki, torpağı halal zəhmətilə əkib-becərən insanların ruzisi daim olsun. Bunun üçün fermerlərə hər cür şərait yaradılır.

Söhbəti qələmə aldı:
Məsaim ABDULLAYEV
XQ

Azərbaycanın kənd nemətlərinin ixracı artır

Azərbaycan iqtisadiyyatının aparıcı sahələrindən sayılan kənd təsərrüfatının modernləşdirilməsi, problemlərin həllinə sistemli və kompleks yanaşılması, dövlətin maliyyə resurslarından səmərəli istifadə olunması müsbət nəticələr verir. Prezident İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısı, eləcə də dövlətin həyata keçirdiyi ünvanlı, konkret hədəflərə yönələn stimullaşdırıcı tədbirlər aqrar sektorda təşəbbüskarlığa geniş meydan açır. Məhz bunun nəticəsidir ki, son illər iri biznes qruplarının, eləcə də kiçik və orta sahibkarların bu sahədə xüsusi fəallığı müşahidə olunur.

İqtisadiyyatın qeyri-neft sektorunun inkişafına mühüm töhfələr verən fermerlər daxili bazarda məhsul bolluğuna şərait yaratmaqla yanaşı, ölkənin ixrac potensialının artırılmasında da yaxından iştirak edirlər. Təkcə onu qeyd etmək kifayətdir ki, son 10 il ərzində Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı 46,8 faiz artıb. Ötən dövrdə ölkədə bitkiçilik məhsullarının istehsalında 53 faiz, heyvandarlıq məhsullarının istehsalında isə 42,5 faiz artım qeydə alınıb. Bu da kənd

təsərrüfatı və ərzaq məhsullarının ixracının təqribən 30 faiz artmasına imkan yaradıb.

Aqrar sektorda müşahidə olunan müsbət dinamika 2023-cü ildə də davam edib. Belə ki, ötən il ölkəmizdə 12 milyard manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal edilib ki, bu da əvvəlki illə müqayisədə 3,1 faiz çoxdur. Bununla yanaşı, son bir ildə ölkədə istehsal olunan bitkiçilik məhsullarının dəyəri 2,8 faiz artaraq 5 milyard 842 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 3,3 faiz çoxalaraq 5 milyard 728 milyon manata yüksəlib.

Kənd təsərrüfatında əldə olunmuş inkişaf tempi ərzaq təhlükəsizliyi sahəsində müsbət nəticələrin əldə edilməsini şərtləndirib. Bu məsələdə isə hökumətin ərzaqlıq buğda istehsalçılarının aldığı kreditlərə dövlət zəmanəti verməsi, həmçinin faiz subsidiyasının ödənilməsi təşəbbüsünün gerçəkləşdirilməsi mühüm rol oynayıb. Prezident İlham Əliyevin 2018-ci il dekabrın 19-da imzaladığı "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" fərmanı isə bu sahədə müstəsna əhəmiyyət daşıyır. Bununla yanaşı, dövlətin aqrar sahəyə davamlı dəstəyinin növbəti təzahürü olaraq 2023-cü ildə ölkədə ərzaqlıq buğdanın dövlət tədarük qiyməti 2022-ci illə müqayisədə 22,4 faiz az, yəni 450 manat/ton müəyyənləşdirilib.

Qarabağ və Şərqi Zəngəzurun da aqrar sahədə potensialı olduqca yüksəkdir. Ötən müddətdə həmin ərazilərdə həyata keçirilmiş minatəmizləmə əməliyyatları on minlərlə hektar torpaq sahəsinin əkin dövriyyəsinə cəlb edilməsinə səbəb olub. 2022-2023-cü təsərrüfat ilində işğaldan azad olunmuş ərazilərdə 84,4 min hektar sahədə payızlıq taxıl əkilib. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında" ölkə Prezidentinin 2021-ci il 27 aprel tarixli Fərmanının icrası çərçivəsində aqrar sahədə fəaliyyət göstərən subyektlərlə Zəngilan rayonunda 2,2 min hektar (o cümlədən 720 hektar örüş), Qubadlı rayonunda 2 min hektar əkin sahəsi üzrə uzunmüddətli (40 il), digər sahələr üzrə isə qısamüddətli (11 ay) icarə müqavilələri bağlanılıb.

Kənd təsərrüfatında istehsalın artması Azərbaycanın ixrac imkanlarının da genişlənməsinə səbəb olub. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən il ölkəmiz 969,2 milyon dollarlıq aqrar və aqrar-sənaye məhsulları ixrac edib ki, bu da 2022-ci ilə nisbətən 6,2 faiz artım deməkdir. Yeri gəlmişkən, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın məlumatına görə, qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər 3,2 faiz artaraq 201 milyon ABŞ dolları təşkil edib.

İxracın strukturunda kənd təsərrüfatı məhsullarının payının artması 2024-cü ilin ilk ayında da müşahidə olunub. "İxrac icmalı"nın fevral buraxılışında yer alan məlumata əsasən, cari ilin yanvar ayında yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,5 faiz artaraq 70,4 milyon ABŞ dollarına bərabər olub. Hesabat dövründə bitki və heyvan mənşəli piylər və yağların ixracı 31,9 faiz, meyvə-tərəvəz ixracı isə 21,2 faiz artıb. Yanvar ayı ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 10,5 faiz artaraq 74,1 milyon ABŞ dolları təşkil edib. Bütövlükdə isə, ilin ilk ayında qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər 15,4 milyon ABŞ dollara bərabər olub.

Ölkədə aqrar sektorun inkişafını sürətləndirmək üçün əlverişli investisiya mühitinin yaradılması istiqamətində tədbirlər davam etdirilir. Kənd təsərrüfatı naziri Məcnun Məmmədovun bildirdiyinə görə, bu məqsədlə sektora subsidiyalar ayrılır, kənd təsərrüfatı texnikaları lizinqə verilir. Sahibkarlara güzəştli şərtlərlə ayrılan kreditlər hesabına yeni aqrar istehsal və emal sahələri yaradılır. Bununla bərabər, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi siyasi-iqtisadi kursa uyğun olaraq kənd təsərrüfatında innovativ həllərin tətbiqi genişləndirilir.

M.YAQUBZADƏ
XQ

Alma bağları sığortalanacaq

Alma deyəndə ilk yada düşən Quba rayonu olur. Ölkədəki intensiv və superintensiv alma bağlarının isə 96 faizi məhz Quba-Xaçmaz bölgəsindədir. Təkcə Quba rayonunda 11,6 min hektar, Qusarda 4,3 min hektar, Xaçmaz rayonunda isə 2,6 min hektar alma bağı var.

Bundan əlavə, Gədəbəy, Şabran, İsmayıllı, Şərur, Balakən, Zaqatala, Qax, Qəbələ, Şəki də alma yetişdirilməsinə görə seçilən rayonlardandır. Kənd Təsərrüfatı Nazirliyindən yayımlanan məlumatda deyilir ki, alma Azərbaycandan ən çox ixrac olunan, ölkəyə böyük həcmdə gəlir gətirən meyvələrdəndir və bu məbləğ ildən-ilə artmaqdadır. Belə ki, 2023-cü ildə xaricə 91,2 min ton alma ixrac edilib, ümumi gəlir 57,2 milyon dollar olub.

Qeyd etmək lazımdır ki, gəlirli sahə olduğundan alma bağlarına maraq artmaqdadır. Alma ağacları üçün əsas risklər - dolu, fırtına, qasırğa, şaxtavurma, müxtəlif növ zərərvericilər və bitki xəstəlikləridir. Azərbaycanda dövlət dəstəyi ilə tətbiq olunan aqrar sığorta mexanizmi vasitəsilə 41 bitkini, o cümlədən alma bağlarını çoxsaylı risklərdən sığortalamaq mümkündür. Sərfəli şərtlərlə fermerlərə təklif olunan sığorta zərflərində alma məhsulunu təbiət hadisələri, sel-subasma, dolu, qasırğa-fırtına, normadan artıq qar yağıntıları, yanğın, 3-cü şəxslərin hərəkəti və sair risklərdən sığortalamaq nəzərdə tutulub.

Məlumat üçün bildirək ki, aqrar sığorta haqqının 50 faizini fermerlərə dəstək üçün dövlət ödəyir. Nəticədə fermerlər cüzi ödənişlə alma bağlarını sığortalaya bilərlər. Məsələn, Quba-Xaçmaz regionunda 1000 manatlıq alma məhsulunu baza sığorta zərfi ilə sığortalamaq fermerə cəmi 18,4 manata başa gəlir.

XQ

Erməni xəyanətləri tarix güzgüsündə

Naftalan Şəhər İcra Hakimiyyətinin və Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Qərbi Azərbaycan: tarixi həqiqətlər" mövzusunda dəyirmi masa keçirilib.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin şərəfli ömür yolunu əks etdirən foto-eksponatlarla, daha sonra Qərbi Azərbaycanın mədəni irsini, tarixini və deportasiya prosesini əks etdirən kitab və fotoşəkillərlə tanış olublar. Soyqırımın tarixi ilə bağlı videoçarx nümayiş olunub.

İlk olaraq ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin, soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov və digər natiqlər qeyd ediblər ki, azərbaycanlılara qarşı əsrlər boyu törədilən bəşəri cinayət barədə həqiqətlərin dünya ictimaiyyətinə daha dolğun çatdırılması istiqamətində ulu öndər Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin xidmətləri misilsizdir. Bununla bağlı görülən tədbirlər daim diqqət mərkəzində saxlanılıb.

Dəyirmi masa ətrafında icmanın fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb, bir sıra təkliflər irəli sürülüb.

Sonda tədbir iştirakçıları Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququ məsələsində göstərdiyi diqqətə və Qərbi Azərbaycan İcmasının fəaliyyətinə verdiyi yüksək dəstəyə görə ölkə başçısına dərin minnətdarlıqlarını ifadə ediblər.

Hamlet QASIMOV,
XQ-nin bölgə müxbiri,
Naftalan

Qadın rollarının əlvan çələngi

Gəncə Dövlət Dram Teatrının xoşbəxt taleli yetirmələri sırasında Xalq artisti Ella Yaqubovanın öz yolu, öz dəsti-xətti var. Bu aktrisa 78 illik həyat yolunun 58 ilini sənət məbədində – səhnədə keçirib.

Ella İsmayıl qızı Yaqubova 1946-cı il dekabr ayının 30-da Gəncədə hərbçi ailəsində anadan olub. İbtidai təhsilini də orada alıb. Sonra atasının işi ilə əlaqədar ailə Bakıya köçüb və Ella təhsilini burada davam etdirib. Elə məktəbdə oxuyarkən burada dram dərnəyinin üzvü olub. Qızcığazın incəsənətə olan marağı onu mədəniyyət sarayının rəqs ansamblına gətirib. Həmçinin məktəb illərində televiziyanın uşaq verilişlərində çıxış edib. Məktəbi bitirdikdən sonra sənədlərini Pedaqoji Universitetə versə də, sənətə olan sevgisi onu Bakı Mədəni Maarif Texnikumuna gətirib. Xalq teatrlarında sənət məziyyətlərini Məmmədkamal Kazımov, Lütfü Məmmədbəyov, Hüseynağa Sadıqov, Süleyman Ələsgərov, Fazil Bayramov kimi sənətkarlardan öyrənə bilib. Gənc Tamaşaçılar Teatrında çalışıb. Festivalların birində Gəncə Dövlət Dram Teatrının rejissoru, Əməkdar incəsənət xadimi Həsən Ağayev onun çıxışını bəyənib və təyinatının verilməsinə Gəncəyə köməklik göstərib. Beləliklə, 1966-cı ilin aprel ayından Ella Yaqubova Gəncə Teatrına gəlib.

Maraqlı bir fakt: elə Gəncəyə ilk gəlişində rejissor, Xalq artisti Məhəmməd Burcəliyevin quruluşunda Cəlil Məmmədquluzadənin "Ölülər" pyesinin tamaşasında Nazlı obrazını ekspromt olaraq oynayıb. Debütü uğurlu olub və o, bu teatrın səhnəsində Ələddin Abbasov, Məhəmməd Burcəliyev, Sədayə Mustafayeva, Rəmziyyə Veysəlova, Firuzə Bədirbəyli, Səməd Tağızadə, Kərim Sultanov, Ağa Məmmədov, Zülfüqar Baratzadə, Reyhan Tağıyeva kimi sənət ustaları ilə çiyin-çiyinə çalışıb və onların sənət məktəbindən bəhrələnib. Aktrisa Gəncə Dövlət Dram Teatrının səhnəsində müxtəlif əsərlərdə iştirak etməklə, maraqlı obrazlar qaleriyası yarada bilib. "Komsomol poeması"nda Gülbahar, "Ezop"da Melita, "Son məktub"da Xatirə, "Mənim günahım"da Ayqız, "Nəriman ata"da Bacı və digər obrazlar bu qəbildəndir.

1968-ci ildə Mingəçevir Dövlət Dram Teatrı yaradılanda Ella xanım da oraya göndərilib. Teatrın təməli Cəfər Cabbarlının "Almaz" pyesi ilə qoyulub. Aktrisa Mingəçevir Teatrında 56 illik səhnə fəaliyyəti dövründə 330-dan artıq əsərdə 330 fərqli obrazlar qalereyasının yaradılmasına nail ola bilib.

"Almaz"da Almaz, "Solğun çiçəklər"də Sara, "Aydın"da Gültəkin, "Yaşar"da Tanya, "Hacı Qara"da Sona, "Eşq və İntiqam"da Həcər xanım, "Bayramın birinci günü"də Fəxrundə, "Vətən dərdi"də Sara bəyim, "Ana"da Səlma ana, "Nənəmin kələyi"də Nənə, "İki yetimin taleyi"də Ana, "Duel"də Naza, "Təcili teleqram"da Artıq, "Qətl günü"də Turan, "Cavanşir"də Reyhan, "Müfəttiş"də Mariya Antonovna-Çilingər arvadı, "Məhv olmuş gündəliklər"də Anjel, "Nənələr ərə gedir"də Məsi arvad, "Sərgüzəşti-vəziri-xani-Lənkəran"da Pəri xanım və başqa surətləri aktrisanın çox məharətlə yaratdığı rollar sayılır. İstər epizodik, istərsə də əsas rollar ifa edən Ella Yaqubova obrazlarının təqdimatında

öz təbiiliyi, səmimiliyi, emosionallığı ilə hər zaman fərqlənib. O, bu teatrın səhnəsində İldırım Cabbar, Zülfüqar Abbasov kimi rejissorların sənət məziyyətlərindən bəhrələnib. Teatrın repertuarının ideya və məzmun etibarı ilə dolğun, mündəricəli pyeslərlə zənginləşməsi naminə bədii şura üzvü kimi də əlindən gələni əsirgəməyib.

Mən 2017-ci ildə Ella Yaqubovanın Mingəçevir Dövlət Dram Teatrının səhnəsində 2 obrazını böyük maraqla izləmişəm. Bunlar Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti-vəziri-xani-Lənkəran" pyesinin tamaşasında Pəri xanım və gənc yazıçı-dramaturq Pərvinin "Nənələr ərə gedir" pyesinin tamaşasında Məsi arvad obrazlarıdır. Səhnədə aktrisanın məharətli ifası diqqətimi dərhal cəlb edib. Aktrisanın səhnədə olan hər bir mizanı rejissor təfsirinə uyğun mənimsəməsi obrazların daha maraqla qarşılanmasına səbəb olub. Aparıcı səhnə ustası olan Respublikanın Xalq artisti Ella Yaqubova Hüseyn Cavidin "Ana" pyesindəki Səlima ana obrazına görə Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl Dərviş" mükafatına layiq görülüb.

Aktrisanın mövcud vəziyyəti anında dəyərləndirmə, zəngin improvizasiya qabiliyyəti, rejissor tapşırıqlarını yüksək səviyyədə icra etmə bacarığı hər zaman diqqəti cəlb edib. Çünki Ella Yaqubova heç vaxt özü üçün, özünü səhnədə büruzə göstərmək üçün oynamayıb. Əksinə, onun əsas məqsədi tərəf-müqabilləri üçün oynamaq, bütövlükdə tamaşanın daha da uğurlu alınmasını təmin etmək olub. Respublikanın Xalq artisti Ella Yaqubova, həmçinin "Bakıfilm"in istehsal etdiyi "Xoca" filmində Ana obrazında çəkilib. Aktrisa bu filmdə Ananın iztirablarını, onun övlad yanğısını böyük məharətlə ifa edə bilib.

Aktrisa fəaliyyəti müddətində Mingəçevir Dövlət Dram Teatrında gənc nəslin yetişməsində əvəzsiz xidmətlər göstərib. Xalq artisti Ella Yaqubova bu gün də Mingəçevir şəhərinin ictimai həyatında fəal iştirak edir. Onun ümumşəhər tədbirlərində hazırladığı kompozisiyalar böyük maraqla qarşılanır.

Deyirlər, hər kəsin bir alın yazısı olur. Qismətin, taleyin ona bəxş etdiyi bir alın yazısı. Ella Yaqubova da alın yazısında olan 78 illik həyatını şərəf və ləyaqətlə, qürurla yaşayır.

Anar Ərtoğrul BURCƏLİYEV,
teatrşünas

Süni intellektin sənət hədəfləri

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutu və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) elmi şuralarının birgə iclası keçirilib.

ADMİU-nun rəhbərliyi və digər məsul əməkdaşları institutun AzScienceNet, Tədris-İnnovasiya, Multimedia Texnologiyaları və Elektron Kitabxana Mərkəzi ilə yaxından tanış olublar. AMEA-nın vitse-prezidenti, institutun baş direktoru, akademik Rasim Əliquliyev bu elmi qurumda IV Sənaye İnqilabının və dünyanın qlobal çağırışlarını, ölkəmizin milli və strateji maraqlarından irəli gələn elmi tədqiqatların aparıldığını söyləyib. Akademik qeyd edib ki, institutda süni intellekt, kiberdayanıqlılıq, Big Data, e-dövlət, e-təhsil, Əşyaların İnterneti və s. kimi aktual elmi-nəzəri və tətbiqi problemlər üzrə elmi tədqiqatlar aparılır, yüksəkixtisaslı kadr hazırlığı həyata keçirilir.

Prezident İlham Əliyevin çıxışlarında qlobal texnoloji inkişafa adekvat olan, müasir dövrün tələblərinə cavab verən intellektual insan resurslarının yetişdirilməsinin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd etdiyi, müvafiq dövlət qurumları və alimlərin qarşısında mühüm vəzifələr qoyduğu vurğulanıb. Alimin sözlərinə görə, mütəmadi olaraq "ağıllanan" süni intellekt texnologiyaları artıq yaradıcı insanlar üçün də ciddi problemlər və narahatlıqlar yaradır. Bütün bu intellektual texnologiyalar, eyni zamanda, bədniyyətli təşkilatların əlində çox güclü silaha çevrilir. Bu baxımdan müvafiq normativ-hüquqi bazanın formalaşdırılması və təkmilləşdirilməsi son dərəcə vacibdir. Artıq insanın bioloji, intellektual imkanları ilə süni intellektin imkanları müqayisəolunmaz həddə gəlib çatmışdır.

AMEA-nın vitse-prezidenti süni intellekt texnologiyalarının mədəniyyət və incəsənətin müxtəlif sahələrinə, yaradıcılıq proseslərinə transformasiyası istiqamətində birgə tədqiqatların aparılması, yüksəkixtisaslı kadrların, yeni nəsil yaradıcı insanların hazırlanmasının qarşıda duran mühüm vəzifələrdən olduğunu söyləyib.

ADMİU-nun rektoru, sənətşünaslıq üzrə elmlər doktoru, professor Ceyran Mahmudova İnformasiya Texnologiyaları İnstitutu ilə elmi-tədqiqat üzrə birgə fəaliyyətlə yanaşı, tədrisin keyfiyyətinin yaxşılaşdırılması və kadr hazırlığı istiqamətində də uğurlu əməkdaşlığın həyata keçiriləcəyinə əminliyini ifadə edib.

İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, texnika üzrə fəlsəfə doktoru, dosent Fərhad Yusifov ADMİU-nun magistraturasında tədris üçün hazırlanmış "Süni intellekt və incəsənət" fənni üzrə proqram haqqında ətraflı məlumat verib. O, proqramın institutun qabaqcıl alimlərinin təklifləri, həmçinin dünyanın aparıcı universitetlərinin təcrübəsinə əsaslanaraq tərtib edildiyini diqqətə çatdırıb.

Daha sonra elmi şuraların birgə iclası interaktiv dialoq formatında davam edib. Müzakirələr zamanı iki qurum arasında mədəniyyət, incəsənət və süni intellekt məsələlərinə həsr olunmuş birgə tədqiqatların aparılması, layihələrin həyata keçirilməsi, elmi konfrans və seminarların təşkilinə dair təkliflər də irəli sürülüb.

XQ

Bölgələrdə ədəbi həyat

"Keçirəm yenə də Muğan çölündən"

Muğanda yazılı ədəbi örnəklərin yaranması tarixi ən azı XVI-XVIII əsrləri əhatə edir. Burada Nişat Şirvani, Qasım Həsənoğlu, Yaqub Ədib, Mirzə Aslanoğlu, Məşədi Əmrah (Salyan), Mirzə Baxış Nadim (Hacıqabul), el şairəsi Ağcaqız (Neftçala) kimi söz ustalarının yazıb-yaratması bölgədə ədəbi ənənənin əsrlərlə yol gəldiyini göstərir. Bu zəngin mühit XX əsrdə də yüksələn xətlə inkişaf edib. Fəaliyyətinin miqyası bütün türk dünyasını əhatə edən Əli bəy Hüseynzadənin də məhz bu mühitdə doğulub böyüməsi hər bir muğanlını qürurlandırır.

…Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Əhməd Cəmil, Nəbi Xəzri, Mehdi Hüseyn, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Hüseyn Arif, Qabil və digər söz ustalarının Muğana səfərləri, buradakı unudulmaz görüşləri bölgədə yazıb-yaradan insanlara istiqamət verməklə bərabər, onların milli ədəbi prosesdə fəal iştirakına və sənət uğurları qazanmasına stimul yaradıb.

"Ovçuluğa meyl saldım, gecə-gündüz çöldə qaldım" – deyən Səməd Vurğun tez-tez bu yerlərə ova da gələrdi. Əlbəttə, onun məqsədi təkcə ov deyildi, şair təbiətdən ilham almaq üçün dağı, aranı, Mili, Muğanı gəzirdi, bu çöllərin yaraşığı ceyranları qorumağa çağırırdı:

Sükuta qərq olmuş ürəyimlə mən
Keçirəm yenə də Muğan çölündən.
Yanında balası, yağış gölündən
Əyilib su içir bir ana ceyran!
Nə gözəl yaraşır Muğana ceyran!

Bu zonanın yetirdiyi ünlü şairlər Əliağa Kürçaylı, Ağacavad Əlzadə, Xəlil Rza Ulutürk, Aşıq Pənah Pənahov, Sabir Almazov, Oqtay Rza, Balaş Nuri, Əlisəmid Kür və başqaları qədim şamanların, muğların çalıb-çağırdıqları, ov adıyla seyrinə çıxdıqları bu çöllərdən az ilham almayıblar. İndiki qələm əhli də, yəqin ki, ova çıxmağı, çöl gözəlliyini seyr etməyi sevir. Hər ovun uğurlu olduğunu deyə bilmərəm. Amma bildiyim budur ki, yazarlar evə əliboş qayıtsalar belə, hər birinin "söz tilovu"nda mütləq gözəl şeirlər, hekayələr olur.

Vaxtilə evinə qonaq getdiyim mərhum İmamverdi Əbilovla "Könül dünyamıza səyahət"imiz yadımdan çıxmır. Maksim Qorki adına Moskva Dünya Ədəbiyyatı İnstitutunun məzunu Müzəffər Məzahimin "Ata ocağı"nın istisinə də qızınmışam, "Əbədi buzlaqlar" romanı ilə ürəymizə sərinlik yayan Təyyar Nəsirli ilə, Neftçalanı "qarayanız Leyli" adlandıran Zabil Pərvizlə də söhbətlərim olub. Hər birini əsl sənət fədaisi, bədii söz, fikir, işıqlı ideya "ovçu"su kimi tanımışam.

Ətraf rayonlardakı qələm əhlinin birliyi olan AYB Muğan bölməsinin yaradılması 2008-ci ildə AYB-nin sədri Anar, 1-ci katibi Fikrət Qoca və başqalarının iştirakı ilə gerçəkləşdirilib. Bölmənin ilk sədri Namiq Hacıheydərli olub. Biləsuvar rayonunun qaçqın şəhərciyində məskunlaşmış istedadlar da bölməyə cəlb ediliblər. Bölmə indi sıralarında 32 nəfər AYB üzvünü birləşdirir. Salyan Rayon İcra Hakimiyyəti ictimai əsaslarla fəaliyyət göstərən bölmə üçün xüsusi otaq ayırıb. Birlik üzvlərinin, ədəbiyyat həvəskarlarının bədii və metodiki hazırlığının təmin etmək məqsədilə burada lazımi şərait yaradılıb.

Bölmənin xəttilə təhsil və mədəniyyət müəssisələrində ədəbi-bədii tədbirlər təşkil edilir, şair və yazıçıların, tanınmış şəxsiyyətlərin xatirə günləri və yubileyləri layiqincə qeyd edilir. 2019-cu ilin Nəsimi ili, 2021-ci ilin Nizami ili, 2023-cü ilin Heydər Əliyev ili elan edilməsi haqqında Prezident sərəncamları ilə bağlı məqsədyönlü tədbirlər həyata keçirilib. Eyni zamanda böyük mütəfəkkir Əlibəy Hüseynzadənin 160, ədəbiyyat vurğunu, filologiya elmləri doktoru İmamverdi Əbilovun 95, yazıçı Əli Ağabəylinin 100, tanınmış şairlərdən Əliağa Kürçaylının və Ağacavad Əlzadənin 95, Xəlil Rza Ulutürkün 90 illiyi ilə bağlı tədbirlərdə ziyalılar, gənclər, yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Son vaxtlarda bölmənin yaxından iştirakı ilə Milli Məclisin deputatları – Xalq şairi Sabir Rüstəmxanlı, yazıçı-publisist Aqil Abbas, ədəbiyyatşünas akademik Nizami Cəfərov, eləcə də AYB katibi Səlim Babullaoğlu, "Ədəbiyyat" qəzetinin baş redaktoru Azər Turan, ədəbiyyatşünaslar – professor Vaqif Yusifli, Əsəd Cahangir, şairlər Sayman Aruz, Avdı Qoşqar, İlham Qəhrəmanov, Damət Salmanoğlu və başqaları ilə keçirilən görüşlər yadda qalıb. Bölgənin ədəbi məclislərində tanınmış şair və yazıçılarla yanaşı, gənc istedadlar, poeziya həvəskarları və məktəblilər də iştirak ediblər.

Yazarların dəyərli, ümidverən poeziya və nəsr nümunələri ədəbi orqanlarda, yerli "Qələbə", "Gündoğar" və "Məhsul" qəzetlərində çap edilir. Ədəbi məclislər – "Kür-Xəzər" (rəhbəri Zabil Pərviz), "Xəlil Rza Ulutürk" (rəhbəri Həsən Kür), "Kürün töhfəsi" (rəhbəri Nəbi ibrahimov) və "Turan" (rəhbəri Firdovsi Sarvanlı) öz ətrafına xeyli ədəbiyyat həvəskarı toplayıb.

Fərəhli haldır ki, Qarabağ torpaqlarını düşməndən azad etmiş Vətən oğullarının qəhrəmanlığı bölgə yazarlarının yaradıcılıq leytmotivinə çevrilib. Elnur Uğurun Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılov, Müşfiq Muğanlının Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov, Gülqədəm Mirzəzadənin şəhid Elimdar Səfərov haqqında kitablarını, eləcə də Firdovsi Sarvanlının "Hər bir şəhid Vətəndir" və Təyyar Nəsirlinin "Altında yatarkən də bizimdir yerin üstü", şair Həsən Kürün "Döyüş və dönüş" əsərlərini ölməz şəhidlərdən bəhs edən qəhrəmanlıq səlnaməsi hesab etmək olar.

Bölgənin bütün ölkədə tanınmış yazarları Soltan Abbasın, Müzəffər Məzahimin, Zabil Pərvizin, Elnur Uğurun, Zərxanım Ülvinin, Şakir Xanhüseynin, Firudin Həsənağanın, Cəmaləddin Əjdəroğlunun və digərlərinin ədəbi-bədii yazıları günümüzün qayğıları, Azərbaycan həqiqətləri ilə həmahəng səslənir. Son illərdə Bakıda – AYB Natəvan klubunda da bölgənin təşəbbüsü ilə maraqlı kitab təqdimatları keçirilib və müzakirəyə çıxarılan əsərlər haqqında tənqidçilər dəyərli fikirlər söyləyiblər.

AYB Muğan bölməsinin sədri, yazıçı-publisist Nəbi İbrahimov görüşümüz zamanı dedi ki, öz ənənələri olan Muğan ədəbi-mədəni və ictimai mühiti bu gün də qaynar həyatını yaşamaqdadır. Hazırda Prezident sərəncamı ilə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin keçirilməsi ilə bağlı tədbirlər hazırlanır.

Əli NƏCƏFXANLI
XQ

Qarabağda peşə hazırlığına dəstək

Məşğulluq Agentliyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Dövlət Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində "Əhalinin peşə hazırlığının təşkili" mövzusunda "dəyirmi masa" təşkil edilib. Tədbir Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəliyi və Şuşa rayonunda Prezidentinin xüsusi nümayəndəliyinin birgə təşkilatçılığı ilə keçirilib.

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən XQ-yə verilən xəbərdə bildirilir. Qeyd edilir ki, tədbirdə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev, Şuşa rayonunda Prezidentin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Elşad İsgəndərov, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, digər dövlət qurumlarının və özəl tədris müəssisələrinin nümayəndələri iştirak edib.

M.Abbasbəyli belə tədbirlərin işğaldan azad olunan bölgələrə köçürülən vətəndaşların məşğulluğunun təminatında mühüm dəstək olduğunu vurğulayıb. Qeyd olunub ki, ilk mərhələdə müvafiq işçi qrupu işğaldan azad olunan ərazilərimizə qayıdışı planlaşdırılan 311 min şəxsin təhlilini (demoqrafik, məşğulluq və sosial göstəricilər) həyata keçirib. Qayıdış prosesində 256 işəgötürənlə görüş keçirilib, işçi qüvvəsinə olan tələbat öyrənilib, köçürülən sakinlərdən artıq 1495 şəxsin məşğulluğu təmin edilib, 979 nəfərin isə məşğulluğunun təmin olunması istiqamətində işlər davam etdirilir. Özəl sektorla əməkdaşlıq nəticəsində bu işlərin əhatəsi getdikcə genişlənir. Həmçinin əsas prioritetlərdən biri həmin ərazilərdə ehtiyac olan peşələrə dair tələbləri öyrənmək və gələcəkdə bu peşələr üzrə kurslar təşkil etməkdir. Bu sahədə özəl sektorla əməkdaşlığa xüsusi önəm verilir.

Tədbir iştirakçılarına işğaldan azad olunan ərazilərə köçürülən sakinlərin yeni peşələrə yiyələnməsi üçün Agentliyin həyata keçirdiyi və təşkili planlaşdırılan peşə kursları barədə məlumat verilib. Bildirilib ki, ilkin mərhələdə həmin ərazilərdə 12 min şəxsin peşə hazırlığına cəlbi nəzərdə tutulub. Ötən il Bərdədə açılışı olan Qarabağ Regional Peşə Hazırlığı Mərkəzi bu sahədə mühüm rola malikdir.

Mərasimdə özəl tədris müəssisələrinin işğaldan azad edilmiş ərazilər üzrə peşə hazırlığının təşkili prosesinə cəlb edilməsi, onların bu sahədə səmərəli fəaliyyətinin təşkili məsələləri, habelə iştirakçıların təklifləri müzakirə olunub.

Nazirlikdən, həmçinin bildirilib ki, Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunan ərazilərimizdə işsiz və işaxtaran şəxslərin peşə hazırlığının təşkili istiqamətində tədbirlərini də davam etdirir. Həmin ərazilərdə özəl tədris müəssisələri ilə birgə peşə kurslarının təşkili məqsədilə onların mövcud infrastruktur və şəraitlə tanışlığı üçün agentliyin Bərdə şəhərindəki Qarabağ Peşə Hazırlığı Mərkəzinə və Xankəndi şəhərinə infoturu təşkil olunub.

Özəl tədris müəssisələrinin nümayəndələri Qarabağ Peşə Hazırlığı Mərkəzində işaxtaran və işsiz şəxslərin əmək bazarının tələbatına uyğun peşələrə yiyələnməsi üçün yaradılan şəraitlə tanış olublar. Bildirilib ki, ötən ilin avqust ayında Prezident İlham Əliyevin iştirakı ilə açılışı olan mərkəzdə 48 peşə istiqaməti üzrə tədrisin təşkili üçün imkanlar yaradılıb. Qeyd edilib ki, müəssisədə dərzi, tikişçi, dizayner, aşpaz, ofisiant, bərbər, vizajist, çilingər, dülgər, tornaçı, xarrat, mebel ustası, rəngsaz, qaynaqçı, informasiya texnologiyaları və s. istiqamətlər üzrə tədris aparılır. Burada 7 emalatxana, 8 sinif və instruksiya otağı, Peşəyönümü və Karyera Planlaması Mərkəzi, inzibati və texniki otaqlar fəaliyyət göstərir. Mərkəzdə bu il ərzində 1000 nəfərin peşə hazırlığına cəlb olunması nəzərdə tutulub.

Agentliyin və özəl tədris müəssisələrinin nümayəndələri Xankəndi şəhərində də olublar. Burada da işəgötürənlərin ehtiyacları əsasında peşə hazırlığı kurslarının təşkili imkanları ilə bağlı məlumat verilib, infrastruktur və şəraitlə tanışlıq olub.

Zərifə HÜSEYNOVA
XQ

Müxalifət Makronun ağlına şübhə edir

(əvvəli 1-ci səhifədə)

Yelisey sarayının sahibi çərşənbə günü parlamentin müxalifət liderlərini onlara "Rusiya Federasiyasına qarşı müharibədə Ukraynanı dəstəkləmək niyyəti ilə bağlı mövqeyini" izah etmək üçün görüşə dəvət edib. Bununla belə, onun planları - müharibə iqtisadiyyatına keçid və məhdudiyyətsiz yardım - yekdilliklə rədd edilib. Makron çıxışını yekunlaşdırana yaxın görüşdə iştirak edənlər açıq-aşkar maraqlanırdılar ki, görəsən millətin başında duran adamın hələ də ağlı başındadırmı?

Makronun "böyük söz oyunu" heç kimi, xüsusilə də Vladimir Putini heyran edə bilməyən, ancaq daha da pis, Fransa və Avropadakı mülki insanları qorxudan bir addımdır. Bu gün martın 12-də Milli Assambleya Makronun sözlə müharibəyə təhrik etməsini müzakirə edəcək. Artıq ehtimal etmək olar ki, əksəriyyət onun əleyhinə çıxış edəcək.

Bu günə qədər hələ heç bir müxalifət nümayəndəsi, hətta sağçı burjuaziyadan olanlar belə onun müdafiəsinə qalxmayıb. Hökumət fraksiyasının bir hissəsi də, görünür, prezidentlə ziddiyyət təşkil etmək niyyətindədir. Baş verənlərin ən qısa və əhəmiyyətli xülasəsini Jan-Lyuk Melenşon belə yekunlaşdırır: "Dövlət başçısı "müharibə məntiqi"nin tələsinə düşdü ki, bu tələnin "qitəni nüvə silahı ilə məhv etməkdən" başqa "artıq heç bir mənası yoxdur".

Məhz bu mövqedən çıxış edən Fransa Kommunist Partiyasının milli katibi Fabien Roussel bildirib ki, Makronun Ukrayna ilə bağlı mövqeyi narahatlıq doğurur. Prezident münaqişədən fransızların diqqətini onların düşdükləri fəlakətli vəziyyətdən yayındırmaq üçün istifadə edir. Müsahibəsində o, ölkədə "acınacaqlı sosial vəziyyətin" olduğunu, "alıcılıq qabiliyyətinin günəşli havada qar əridiyi kimi əridiyini" və hökumətin heç bir tədbir görmədiyini xatırladıb,

Roussel vurğulayır ki, "səs-küylü bəyanatlar dövlət başçısına hərbi lider rolunu sınamağa imkan verir, bununla belə o, ölkəni çox pis şeylər vəd edən sosial müharibəyə aparır. Mənə elə gəlir ki, o, özünü 2003-cü ildə ABŞ prezidenti olmuş Corc Buş kimi təsəvvür edir. Fransada Buşa ehtiyacımız yoxdur. Bizə Fransada sərkərdə lazım deyil - bizə Avropaya sülh gətirəcək dinc koalisiya lazımdır".

Fabien Roussel, həmçinin Ukraynanın NATO-ya daxil olması ilə bağlı bəndin yer aldığı 16 fevral tarixli Fransa-Ukrayna təhlükəsizlik sazişini "təxribat" və "axmaqlıq" adlandırıb. O, söz verib ki, əgər onun şərtlərində heç nə dəyişməsə, çərşənbə axşamı Milli Assambleyadakı müzakirələrdə Kommunist Partiyası bunun əleyhinə səs verəcək. Kommunist lider onu da bildirib ki, "məhdudiyyətsiz hərbi yardım" Avropanın gələcəyi üçün təhlükəli addım deməkdir ki, bu da "hərbi münaqişənin təhlükəli həddə yetişməsinə" gətirib çıxara bilər.

"Məsələ nəyə səs verəcəyimizi bilməkdir. Əgər söhbət Emmanuel Makron və Volodimir Zelenskinin imzaladıqları sazişdəki şərtləri ehtiva edən baş nazirin çıxışıdırsa, biz onun əleyhinə səs verəcəyik", – deyə Roussel xəbərdarlıq edib.

Fransa kommunistlərinin liderinin fikrincə, Kiyevə uzunmüddətli dəstəyi təmin etmək üçün nəzərdə tutulmuş və xüsusən də Ukraynanın NATO-ya daxil olması ilə bağlı danışıqları, habelə bu ölkəyə qeyri-məhdud hərbi yardımı nəzərdə tutan bu ikitərəfli saziş həm ölkənin təhlükəsizliyinə, həm də, Fransa da daxil olmaqla alyansa üzv ölkələrə, Avropaya və bütün dünyaya təhdid yaradır.

"Müqavilədə, xüsusilə də Ukraynanın NATO-ya daxil olması göstərilir, bu, təxribat və axmaqlıqdır. O, heç vaxt alyansa qoşulmayacaq, çünki bu, Vladimir Putinin dediyi qırmızı xətlərdən biridir. Ukrayna heç vaxt Şimali Atlantika Alyansına qoşulmayacaq, bu, absurddur", – deyə siyasətçi bildirib.

Fabien Rossel daha sonra deyib: "Bundan başqa, müqavilədə Kiyevə qeyri-məhdud hərbi dəstək göstərəcəyimiz qeyd olunub. Bizim danışdığımız və səs verdiyimiz, mənim səs verdiyim Ukraynaya yardımla bağlı qətnamədir, lakin bu gün biz Avropanın gələcəyi və qitədə sülh üçün təhlükəli olan xətti keçirik. Biz təhlükəli hərbi eskalasiya astanasındayıq və sülhü məhv etmək istəmirik".

İlqar RÜSTƏMOV
XQ

Bunu NATO-nun Baş katibi Yens Stoltenberq Brüsseldə alyansın 32-ci üzvü olan İsveçin bayrağının qaldırılması mərasimi başlamazdan əvvəl deyib. Məlumatı UNİAN agentliyi yayıb.

O bildirib ki, təslim olmaq sülh demək deyil: "Biz Ukraynanı gücləndirməkdə davam etməliyik. Elə etməliyik ki, Rusiya döyüş meydanında istəyinə nail olmayacağını anlasın. Biz danışıqlar masasında Ukraynanın ərazi bütövlüyünün tanındığı həll yolunu axtarmalıyıq".

Y.Stoltenberq söyləyib ki, savaşı Rusiya başladıb və ancaq Rusiya bitirə bilər: "Rəsmi Moskva 2 il əvvəl müharibəyə başlayanda öz sərhədlərində NATO-nun təsirinin daha az olmasını istəyirdi və Ukraynanı məhv etməyə çalışırdı. Amma bunun əksi oldu. İndi Ukrayna NATO üzvlüyünə əvvəlkindən daha yaxındır".

Qeyd edək ki, ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller daha əvvəl Ukraynanın Rusiyaya sürprizlər hazırladığına işarə vurub. Ukrayna Prezident Ofisinin müşaviri Mixaylo Podolyak isə söyləyib ki, cəbhədə vəziyyət ciddi şəkildə dəyişib, Rusiyanın itkiləri artıb.

Xatırladaq ki, Rusiya ilə Ukrayna arasında müharibə 2022-ci il fevralın 24-də başlayıb.

XQ

ABŞ silah bazarında hökmrandır

ABŞ qlobal silah ixracı bazarındakı payını artırır. Rusiyanın göstəriciləri isə azalır. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) ekspertləri bu qənaətə gəliblər. SIPRI-ın hesablamalarına görə, Rusiya artıq ABŞ-dan sonra ikinci ən böyük silah ixracatçısı deyil. Fransa bu məsələdə ilk dəfə şimal qonşumuzu arxada qoyub. Ancaq Rusiya hərbi məhsullarına tələbatın azalmadığını iddia edir.

Bazar ertəsi SIPRI-nın qlobal silah və hərbi texnika ixracı bazarına dair hesabatı dərc olunub. Hesabatla tanış olan Rusiyanın "Kommersant" qəzeti yazır ki, sözügedən institut ənənəvi olaraq belə rəyləri ötən beşilliyi əvvəlki ilə müddətlə müqayisə edərək mart ayında ictimaiyyətə açıqlayır. Mütəxəssislərin fikrincə, bu iki dövrdəki məlumatların müqayisəsi bu sahədə müşahidə edilən meylləri daha aydın müəyyənləşdirməyə və təsadüflərin qarşısını almağa imkan verir. Bu dəfə 2019–2023-cü illəri 2014–2018-ci illərlə müqayisə ediblər.

Araşdırmalar göstərib ki, ABŞ bu on il ərzində silah ixracatında lider olaraq qalıb. Bundan başqa, Vaşinqton bazar paylarını 34 faizdən 42 faizə yüksəldə bilib. Kəmiyyət baxımından ABŞ-dan silah tədarükü 17 faiz artıb. 2019-cu ildən 2023-cü ilə qədər Birləşmiş Ştatlar 107 ölkəyə silah tədarük edib ki, bu da əvvəlki beşillik dövrlərdən çox və hər hansı digər silah ixracatçısından dəfələrlə artıqdır. SIPRI silah transferi proqramının direktoru Metyu Corc deyir ki, "ABŞ əvvəlkindən daha çox ölkəyə daha çox silah ixrac edərək qlobal rolunu gücləndirib, silah tədarükçüsü olub və bu, onun xarici siyasətinin mühüm aspektidir".

2019–2023-cü illərdə ABŞ silahlarının ilk üç idxalçısı Səudiyyə Ərəbistanı, Yaponiya və Qətər olub. Eyni zamanda, bu dövrdə Amerika silahlarının 28 faizi Avropaya çatdırılıb ki, bu da əvvəlki beşillik dövrlə müqayisədə 17 faiz çoxdur. ABŞ silah ixracının əhəmiyyətli bir hissəsini döyüş təyyarələri təşkil edir. SIPRI-nin hesablamalarına görə, 2019-2023-cü illərdə ABŞ xaricə 420 döyüş təyyarəsi tədarük edib, onlardan 249 ədədi "F-35" qırıcıları olub. Bu təyyarə ümumilikdə 10 ölkəyə satılıb və ABŞ-ın ümumi silah ixracının 24 faizini təşkil edib. Yaxın illər üçün ABŞ-ın daha 1071 döyüş təyyarəsi (bunlardan 785 ədədi "F-35"dir) sifarişi var.

Hesabatda qeyd edilir ki, 2014–2018 və 2019–2023-cü illər arasında Fransanın silah ixracı 47 faiz artıb və Paris ilk dəfə olaraq "Rusiyanı bir qədər qabaqlayaraq" ikinci ən böyük silah ixracatçısı olub. Fransanın silah ixracının ən böyük payı (42 faiz) Asiya və Okeaniya ölkələrinə, digər 34 faizi isə Yaxın Şərq ölkələrinin payına düşüb. Fransız silahlarının ən böyük idxalçısı Hindistan olub ki, bu da təxminən 30 faiz təşkil edib. Parisin silah ixracının artımı əsasən Hindistana, Qətərə və Misirə döyüş təyyarələrinin (ilk növbədə "Dassault Rafale" qırıcıları) tədarükü ilə bağlı olub. Ümumilikdə, Fransa 66 ölkəyə silah satır.

SIPRI-nin məlumatına görə, 2014–2018 və 2019–2023-cü illər arasında Rusiyanın silah ixracı 53 faiz azalıb. Hesabatda qeyd edilib ki, azalma xüsusilə son beş ildə sürətlənib. Əgər 2019-cu ildə Rusiya 31 ölkəyə silah ixrac edib, lakin 2023-cü ildə cəmi 12 ölkə şimal qonşumuzdan silah alıb. Rusiya silah ixracının ümumi həcminin 68 faizi Asiya və Okeaniya dövlətlərinin payına düşüb. SIPRI-nin məlumatına görə, "Rusiyadan gözlənilən əsas silahların tədarük həcminin aşağı olması onu göstərir ki, Rusiya silah ixracat səviyyəsi ən azı yaxın perspektivdə 2014–2018-ci illərdə əldə edilən səviyyədən əhəmiyyətli dərəcədə aşağıda qalacaq". Bununla belə, "Kommersant" qəzeti qeyd edir ki, Rusiyanın silah müqavilələri ilə bağlı bütün məlumatlar dərc olunmur və SIPRI-ın statistikası yalnız açıq mənbələrdən əldə edilən məlumatlar əsasında tərtib edilir.

Dünyada dördüncü və beşinci ən böyük silah ixracatçıları müvafiq olaraq Çin və Almaniyadır. Onların son beş ildəki göstəriciləri də aşağı düşüb. SIPRI-nin hesablamalarına görə, ümumilikdə, 66 dövlət xaricə əsas silah növləri tədarük edir. Ümumilikdə, nəzərdən keçirilən dövrdə beynəlxalq silah və hərbi texnika təchizatının qlobal həcmi 3,3 faiz azalıb. Eyni zamanda Avropa ölkələri tərəfindən əsas silah növlərinin idxalı iki dəfə artıb (94 faiz). Bu tendensiya əsasən dünyanın 30 ölkəsi tərəfindən silahla təmin olunan Ukraynadan silah idxalının kəskin artması ilə bağlıdır. Kiyevə silah tədarükündə ABŞ geniş fərqlə birinci, Almaniya ikinci, Polşa üçüncü yerdədir. Nəticədə Ukrayna Hindistan, Səudiyyə Ərəbistanı və Qətərdən sonra dünyanın dördüncü ən böyük silah idxalçısı olub. Pakistan dünyanın ən böyük silah idxalçıları arasında ilk beşliyi bağlayır. Avropada Ukraynadan başqa ilk beş silah idxalçısına Böyük Britaniya, Hollandiya, Norveç və Polşa daxildir. Bu ölkələr üçün əsas silah təchizatçısı ABŞ-dır.

Hərbi-texniki əməkdaşlıq üzrə federal xidmətin rəhbəri Dmitri Şuqayev ötən il jurnalistləri əmin etmişdi ki, "Rusiya beynəlxalq silah bazarından çıxarılmayacaq". Onun sözlərinə görə, bu gün Rusiyanın hərbi sənayesi olduqca səmərəli işləyir, Rusiyanın təklif etmək üçün çox məhsulu var. Dmitri Şuqayev iddia etmişdi ki, "Rusiyanın tərəfdaşlarına təzyiq göstərmək və Rusiyanı gözdən salmaq cəhdlərinə baxmayaraq, ölkənin hərbi məhsullarına tələbat azalmır".

Hazırladı:
S.ELAY
XQ

NASAMS-nin Ukraynaya çatdırılması niyə gecikir?

Kanadanın müdafiə naziri Bill Bleyr Norveçin NASAMS zenit-raket kompleksinin (SAM) Ukraynaya tədarükü ilə bağlı problemləri izah edib. O bildirib ki, müqavilənin tamamlanmasını maliyyələşdirmə ilə bağlı problemlərlə üzləşən ABŞ təmin edib. Nazir bu prosesi sürətləndirəcəyinə söz verib.

"Amerikalılar Norveçin Kongsberg Defence and Aerospace istehsalçısı ilə müqavilələri tamamlamaq üçün maliyyə ayırmalıdırlar... Biz prosesi sürətləndirməyə çalışdıq. Təəssüf ki, amerikalılar öz maliyyələşdirmələri ilə bağlı bəzi problemlərlə üzləşdilər", – Bill Bleyr Edmonton şəhərinə səfəri zamanı deyib.

Bill Bleyrə görə, ABŞ ilə ortaq müqavilə olmasaydı, NASAMS-ı normal satınalma prosesi ilə əldə etmək illər çəkərdi. "Əlbəttə, ABŞ səfiri öz hökuməti adından bizi müdafiə etdi və mən müdafiə nazirinin ofisi ilə danışdım. Onlar başa düşürlər ki, bu, bizim üçün çox aktualdır". "Ukrayna bildirib ki, bizdən bu NASAMS raketlərini mümkün qədər tez çatdırmağımızı istəyir və biz mümkün olan hər şeyi edirik", - nazir əlavə edib.

Kanadanın vəd etdiyi NASAMS kompleksi Ukrayna hərbçiləri tərəfindən 406 milyon dollar dəyərində qiymətləndirilib. Kanadanın keçmiş müdafiə naziri Anita Anand ötən ilin yanvarında bildirmişdi ki, kompleksin təhvil verilməsi "mümkün qədər tez" həyata keçiriləcək və bu proses "illər" çəkməməlidir.

S.MƏMMƏDOV
XQ

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

İstehsalat Xidmətləri İdarəsinin yanğından mühafizə balonlarının doldurulması sahəsi üçün yanğınsöndürmə avadanlıqlarının satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il martın 19-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1132.

Ünvan-Bakı, Mikayıl Useynov küçəsi 2.

"Böyükşor Avtonəqliyyat" ASC
səhmdarlarının nəzərinə!

"Böyükşor Avtonəqliyyat" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 12 aprel 2024-cü il saat 12.00-da keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Səhmdar cəmiyyətinin direktorunun təyin edilməsi .
2. Səhmdar cəmiyyətinin müşahidə şurası üzvlərinin təyin edilməsi .

Səhmdarlardan şəxsiyyət vəsiqələrinin təqdim edilməsi xahiş olunur.

Növbədənkənar ümumi yığıncaq səhmdar cəmiyyətinin yerləşdiyi ünvanda-Bakı şəhəri, Böyükşor şossesi 2062-ci məhəllədə keçiriləcəkdir.

Direktor

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 55 (30459) 12 mart 2024-cü il, çərşənbə axşamı

Novruz marafonu

Bu gün Yel çərşənbəsidir!

Bu gün ilaxır çərşənbələrin üçüncüsüdür. Dünyanın yaranmasında iştirak edən üçüncü ünsür hava olduğundan, Yel çərşənbəsi adlanır.

Yel torpağı, suyu durğunluqdan çıxarır. Mifik təsəvvürlərdə Od və havanın işə qarışması ilə sular dalğalanır, coşub–daşır, torpaqlar vulkana çevrilib püskürür. Xalq arasında "Yel olmasa, sel olmaz", "Yel eləyəni fələk eləyə bilməz",– deyimləri yaranıb. İnanca görə, həmin gün söyüd ağacının altında dilək tutub, "A Yel baba, Yel baba, gözləyirik, gəl, baba"– deyib "Yel baba"nı çağırsan, niyyətin hasil olar.

Yel özündən əvvəlki Od çərşənbəsinin hərarətini çöllərə yayır, torpağı isitməyə, oyatmağa tələsir. Həmin gün əsən isti küləklər yazın gəlişindən xəbər verir. Bu çərşənbə xalq arasında "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə", "Yelli çərşənbə", "Külək çərşənbəsi" kimi də tanınır.

Yel çərşənbəsi günü süfrədə şirniyyatların olması bütün ilin şirin keçməsinin əsas göstəricisi hesab olunur. Hamı bir–birini "çərşənbən mübarək!"– deyə təbrik edir. Bütün ailə üzvləri eyni vaxtda süfrə ətrafına toplaşırlar...

Bu çərşənbə günündə niyyət edək, bütün diləklərimiz həyata keçsin!

Z.BƏŞİRQIZI
XQ

İdman

Gimnastlarımız 6 medal qazandılar

Azərbaycan gimnastları Polşanın Krakov şəhərində keçirilən batut gimnastikası və tamblinq üzrə 11-ci Vavel turnirində altı medal qazanıblar.

Komandamızın aktivinə qızıl medalları tamblinq üzrə Adil Hacızadə və Aleksey Karataşov qazandırıblar. Mixail Malkin və Xətai Hümbətov gümüş, Bilal Qurbanov isə bürünc mükafata yiyələniblər. Batut gimnastikasında isə Fərhad Vəliyev qalib adına layiq görülüb.

Boksçumuzun dünya kuboku

Monteneqronun Budva şəhərində gənc boksçular arasında ənənəvi Dünya kuboku statuslu "Adriatik incisi" beynəlxalq turniri başa çatıb. Azərbaycan milli komandası yarışı 2 medalla başa vurub.

Yığmamızın heyətində Zidan Hümbətov Dünya kubokuna yiyələnib. 51 kiloqram çəki dərəcəsində mübarizə aparan boksçumuz finalda rusiyalı Arseniy Jiltsovu 3:2 hesabı ilə məğlub edib və qızıl medala layiq görülüb.

Komandamızın heyətində Bilalhəbəşi Nəzərov (48 kq) isə finalda Tamta Briyeşlə (Hindistan) üzüzə gəlib. Yığma üzvü 2:3 hesabı ilə məğlub olduğundan gümüş medala sahib olub.

Qeyd edək ki, yarışda 22 ölkədən 245 boksçu mübarizə aparıb.

Avstriyada cüdo gümüşü

Azərbaycan cüdo yığması Avstriyanın Linz şəhərində keçirilən Qran-prini 1 medalla başa vurub.

Turnirdə 5 idmançı ilə iştirak edən komanda üzvlərindən yalnız Rəşid Məmmədəliyev (73 kq) mükafatçılar sırasına düşə bilib. Cüdoçumuz həlledici mərhələdə məğlub olaraq gümüş medalla kifayətlənib.

Leyla SABİRQIZI
XQ

Böyük rus yazıçısı Lev Tolstoy deyirdi ki, qadın elə bir mövzudur ki, onu nə qədər müzakirə etsən də, həmişə yenidir. Alman yazıçısı Henrix Heyne isə belə deyib: "Qadınlar bizi xoşbəxt etməyin bir, bədbəxt etməyin min yolunu bilirlər".

Hər iki fikir gözəl və gözəl olduğu qədər də fəlsəfi, həyati və düşündürücüdür. Qadın anadır, ana isə dünyada yaradılmışlar içərisində ən müqəddəs məxluqdur... Qadın həyatdır, qadın gözəllikdir, qadın sevgidir, qadın anadır. Ən böyük şairlər, rəssamlar, memarlar öz şah əsərlərini qadınların, anaların şərəfinə yaradıblar. Məsələn, Hindistanda Tac-Mahal məqbərəsi, Leonardo da Vinçinin "Mona Liza" əsəri, Naxçıvandakı Möminə Xatun türbəsi...

Ananın müqəddəsliyi haqqında min illərdir danışırlar, yazırlar, deyirlər. Amma onu vəsf etmək olarmı?

...Anadan soruşurlar:

–Övladlarından hansını çox istəyirsən?

Cavab verir:

–Böyüyənə qədər ən kiçiyini, sağalana qədər xəstə olanı, evə qayıdana qədər səfərdə olanı, nə qədər ki, nəfəs alıram, hər birini.

...Qarlı-çovğunlu havada ana sərçə körpə balasını belinə mindirib yuvasına uçur. Yolda nəfəsini dərib dincəlmək üçün balasını belindən yerə qoyur. Bala sərçə deyir:

–Ana, gedib yuvamıza çataq. Qoy böyüyüm, onda mən də səni belimdə aparacağam.

Ana sərçə deyir:

–Mənim balam, böyüyəndən sonra da məni belində apara bilməyəcəksən. Onda sənin öz balan olacaq və onu belinə mindirib aparacaqsan.

...Müəllim dərs dediyi şagirdlərə sabah onlar üçün dünyada ən qiymətli olan şeyi gətirməyi tapşırır. Şagirdlərdən kimi qızıl, kimi gümüş, kimi daş-qaş və s. gətirir. Bir şagird isə ovcunda bir parça torpaq gətirir. Müəllim ondan adi torpağı nə üçün gətirdiyini soruşanda şagird deyir:

– O, adi torpaq deyil, müəllim. Siz dərsdə deyirdiniz ki, peyğəmbər buyurub ki, cənnət anaların ayağı altındadır. Mən bu torpağı anamın ayaq basdığı yerdən gətirmişəm. Ona görə də bu torpaq mənim üçün cənnət misalındadır.

Bizi dünyaya gətirən, beşiyimizi yırğalayan, əzabımızı çəkən, boyumuzu sevən, ömrünü gilə-gilə balaları yolunda əridən, dünyanı bizə sevdirən və bizi dünyaya əmanət verən ana! Südü ilə can verən, nəfəsi ilə qızdıran, əlləri ilə ağrılarımıza məlhəm qoyan, ürəyi daim övladları üçün əsən, qayğısı üstümüzdə, duaları yanımızda olan ana!

Böyük avar şairi və ictimai xadimi Rəsul Həmzətov qadınlara xitabən deyirdi: "Əgər sizi bu dünyada sevən iki nəfər varsa, bilin ki, onun biri mənəm. Əgər sizi bu dünyada sevən bir nəfər varsa, bilin ki, o mənəm. Əgər sizi bu dünyada sevən bir nəfər də yoxdursa, bilin ki, Rəsul Həmzətov həyatda yoxdur…"

Bu sözlərin altından mən də öz imzamı qoyuram.

Süleyman QARADAĞLI

İlin "Oskar" qalibləri

ABŞ Kino Sənəti Akademiyası ilin "Oskar" qaliblərini elan edib. Los-Ancelesdə keçirilən 96-cı mükafatlandırma mərasimində 23 nominasiya üzrə açıqlama verilib.

Baş ən yaxşılar: "Ən yaxşı film" "Oppenhaymer" sayılıb. "Ən yaxşı aktyor" titulunu Killian Merfi ("Oppenhaymer"), "Ən yaxşı aktrisa" adını Emma Stoun ("Bəxtsiz") qazanıblar. "Ən yaxşı mahnı" nominasiyasında "Barbi", "Ən yaxşı musiqi"də isə "Oppenhaymer" filmləri birinci olub.

Sonrakı ən yaxşılar: "Ən yaxşı ikinci plan kişi aktyoru" – Robert Dauni ("Oppenhaymer"); "Ən yaxşı ikinci plan qadın rolu" – Davayn Coy Randolf ("Artıq-urtuq"); "Ən yaxşı xarici film" – "Maraq zonası"; "Ən yaxşı uyğunlaşdırılmış ssenari" – "Amerika fantastikası"; "Ən yaxşı orijinal ssenari" – "Düşmə anatomiyası"; "Ən yaxşı animasiya filmi" – "Oğlan və quş"; "Ən yaxşı sənədli film" – "Mariupolda 20 gün";

"Ən yaxşı orijinal sauntrek" - Lyudviq Qoransson ("Oppenhaymer").

Texniki ən yaxşılar: "Ən yaxşı vizual effektlər" – "Godzilla: Mənfi Bir"; "Ən yaxşı montaj" – Cennifer Leym ("Oppenhaymer"); "Ən yaxşı səs" – "Maraq zonası"; "Ən yaxşı makiyaj və saç düzümü" – "Kasıblar və bədbəxtlər"; "Ən yaxşı kostyumlar" – Holli Uoddinqton ("Kasıblar və bədbəxtlər"); "Ən yaxşı istehsal dizaynı" – Şauna Hit, Ceyms Prays ("Kasıblar və bədbəxtlər").

Kiçik ən yaxşılar: "Ən yaxşı qısametrajlı bədii film "Henri Şuqarın ecazkar hekayəsi"; "Ən yaxşı qısametrajlı animasiya filmi" – "Müharibə bitdi! Con və Yoko musiqisindən ilhamlanıb"; "Ən yaxşı qısametrajlı sənədli film" – "Son təmir sexi".

XQ

Hava

Abşeronda yağmursuz, bölgələrdə yağıntılı və dumanlı...

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən martın 12-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə arabir çiskinli olacağı ehtimalı var.

Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 3-6°, gündüz 6-9° isti olacaq. Atmosfer təzyiqi 769 mm civə sütunundan 773 mm civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Şərq rayonlarında intensiv olacağı ehtimalı var. Gündüz tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-6°, gündüz 8-13° isti, dağlarda gecə 5-10° , gündüz 0-3° şaxta olacaq. Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlayacağı ehtimalı var.

Q.QASIMOV
XQ

"Dünya gözəli – 2024"

23 yaşlı Çexiya vətəndaşı Kristina Pışkova Hindistanın Mumbay şəhərində keçirilmiş "Miss dünya – 2024" gözəllik yarışının qalibi olub.

Hindistan mətbuatı yazır ki, Pışkova peşəkar model kimi işləyir, habelə hüquq və biznes idarəçiliyi üzrə təhsil alır. İngilis, polyak, slovak və alman dillərində sərbəst danışır. O, həmçinin təhsil vasitəsilə davamlı inkişaf dəstək təşviq edən fondun rəhbəridir.

XQ

ALLAH RƏHMƏT ELƏSİN

Süleyman İsmayılov və şöbənin əməkdaşları iş yoldaşları Aygün Səfərovaya əzizi

ELMAN CƏFƏROVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universiteti slavyan ölkələri tarixi kafedrasının kollektivi iş yoldaşları dosent Abutalıb Cəlilova qardaşı

RASİM CƏLİLOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3915
SİFARİŞ 567
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00